İLHAM ƏLİYEV
VƏ
AZƏRBAYCAN ENERGETİKASI



İdeya müəllifi: Baba Rzayev - "Azərenerji" ASC-nin prezidenti

Koordinator: Vüqar Əliyev - "Azərenerji" ASC-nin prezidentinin ümumi işlər üzrə müşaviri

Kitabın yaradılması ilə bağlı Komissiyanın sədri: Teymur Abdullayev - İctimaiyyətlə əlaqələr və Media Mərkəzinin rəisi

Kitabın yaradılması ilə bağlı Komissiyanın üzvləri: Şirin Quliyev - Enerjinin İstehsalı Operatoru rəisi,
Ramiz Gəncəliyev - Elektrik Enerjisinin Ötürülməsi İdarəsinin rəisi,
Zəminə Tağıyeva - Texniki İstehsalat İdarəsinin baş mütəxəssisi,
Aytək Babayeva - "AzET və LAEİ" MMC-nin direktoru vəzifəsini icra edən,
Valeh Nəsibov - "AzET və LAEİ" MMC-nin Enerjisistemin perspektiv inkişaf şöbəsinin rəisi

İşçi qrup: Asəf Əliyev, Aybəniz Əhmədova, Sadıq Qarayev, Zəhraxanım Cabarlı, Rövşən Paşazadə, Səfa Bağırov, Toğrul Quliyev, Hikmət Əsgərov, Təbriz Hacıyev

İstifadə olunan mənbələr: Milli Arxiv İdarəsi,
"Azərenerji" ASC-nin arxivi,
"Azərbaycan" İES-in arxiv sənədləri,
"Azərbaycan elektroenergetikası" kitabı,
"Bərpa olunan miras" kitabı

AzərEnerji

İLHAM ƏLİYEV
və
AZƏRBAYCAN ENERGETİKASI

BAKI - 2021

Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik.
Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir.

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

AZƏRBAYCAN ENERJİSİSTEMİNİN

İNTİBAH DÖVRÜ

Prezident İlham Əliyev "Xaçmaz" Elektrik Stansiyasının açılışında, 7 dekabr 2006-cı il

15 oktyabr 2003-cü il tarixində Azərbaycan Respublikasında keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanan (76,84%) İlham Əliyev ölkə rəhbəri seçildikdən sonra Azərbaycanda yeni bir dönəmin başlanğıcının təməli qoyuldu. Ölkə iqtisadiyyatı sürətli inkişaf mərhələsinə keçid etdi. Bu inkişaf bütün sahələrə, o cümlədən elektroenergetika sisteminə də müsbət təsirini göstərdi. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, hazırlanan dövlət proqramları, onların dəqiq icra mexanizmi bütün xalq tərəfindən dəstəkləndiyindən ölkəmizin sürətli inkişafı üçün əlverişli şərait yarandı. Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi nəticəsində Azərbaycan yüksək inkişafa nail oldu.

Ümummilli lider Heydər Əliyevin enerji sistemində yürütdüyü strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək islahat, inkişaf və tərəqqi mərhələsinə qədəm qoyub. Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi

sayəsində mümkün olub. Prezident İlham Əliyevin şəxsiyyəti müasir cəmiyyətdə liderlik fenomeninin ən önəmli cəhətlərini özündə birləşdirir.

Ölkə rəhbərinin diplomatik səyləri nəticəsində Azərbaycan bu gün regionda hansısa ölkədən enerji asılılığı olmayan, tələbatını daxili imkanlar hesabına ödəyən və üstəlik enerjini ixrac edən aparıcı dövlətlərdəndir. Bu gün uğurla həyata keçirilən enerji siyasətinin məqsədi Azərbaycanın dünya bazarına çıxışını artırmaq, həmin bazarlar üçün alternativ mənbə yaratmaq, habelə dünya bazarına çıxışın şaxələnməsini təmin etməkdən ibarətdir və bu da beynəlxalq ictimaiyyətin maraqlarına tamamilə cavab verir. Azərbaycan iqtisadi baxımdan bölgənin dinamik və sürətlə inkişaf edən lider dövləti olaraq qonşu ölkələrin də etibarlı tərəfdaşına çevrilib. Belə ki, İlham Əliyevin Prezident kimi respublikanın enerji sisteminə xüsusi diqqət yetirməsinin nəticəsində bir sıra layihələrin hazırlanaraq həyata keçirilməsinə başlanıldı. Elektroenergetika sisteminin tamamilə yenilənməsi, yeni texnologiyaların tətbiqi ilə təchiz olunan müasir tipli elektrik

Prezident İlham Əliyev "Şimal-2" Elektrik Stansiyasının açılışında, 5 sentyabr 2019-cu il

stansiyalarının tikintisinə start verildi. Məhz 2003-cü ildən başlayaraq bu tip infrastruktur layihələrin icrası və inkişafı geniş vüsət aldı.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində ölkəmizdə elektroenegetikanın inkişa-fının keyfiyyətcə yeni mərhələsi başlandı. Nəticədə qısa müddət ərzində yeni generasiya güclərinin işə salınması, bir sıra istilik, su və külək elektrik stansiyalarının tikilməsi, iqtisadiyyatın enerji təchizatının möhkəmləndirilməsi, Azərbaycanın regionda elektrik enerjisinin tranziti, sonra isə ixracı üzrə mühüm ölkəyə çevrilməsini nəzərdə tutan layihələr əsasında ölkə üzrə 32 müa-sir tipli yeni elektrik stansiyaları inşa edilərək istismara verildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elektroenergetika tarixindəki danılmaz fəaliyyətini illər üzrə bir neçə mərhələyə ayırmaq olar və hər mərhələnin nəticəsi heyrət olunacaq qədər qürurvericidir.

Cənub
ELEKTRİK STANSİYASI
QAZ KOMPRESSOR

2003-2021-ci illər ərzində Azərbaycanın enerji sistemində inşa edilər stansiyalar haqqında məlumat

s/s	Elektrik stansiyaların adı	İstismara verilmə tarixi	Qoyuluş gücü (MVt)
	İstilik elektrik stansiyaları		
1	Astara ES	03.02.2006	87
2	Şəki ES	14.10.2006	87
3	Xaçmaz ES	07.12.2006	87
4	Naxçivan qaz-turbin elektrik stansiyası	20.12.2006	64
5	Naxçıvan ES	20.12.2006	87
6	Bakı ES	22.02.2007	105
7	Səngəçal ES	24.12.2008	300
8	Şahdağ ES	18.09.2009	105
9	Sumqayıt ES	19.11.2009	525
10	Cənub ES	01.07.2013	780
11	Lerik ES	15.10.2018	16.5
12	Şimal-2 ES	05.09.2019	400
13	Qobu ES	.2021	385
	Cəmi:		**3028,5**
	Su elektrik stansiyaları		
1	"Biləv" SES	03.10.2010	22
2	Füzuli SES	15.12.2012	25
3	"Arpaçay-1" SES	07.03.2013	20.5
4	Taxtakörpü SES	28.09.2013	25
5	Şəmkirçay SES	15.11.2014	25
	Cəmi:		**117,5**
	Kiçik su elektrik stansiyaları		
1	Vayxır KSES	20.12.2006	5
2	"Qusar-1" KSES	20.12.2012	1
3	"İsmayıllı-1" KSES	14.08.2013	1.6
4	"Arpaçay-2" KSES	07.04.2014	1,4
5	"Göyçay-1" KSES	06.10.2015	3,1
6	"İsmayıllı-2" KSES	10.08.2016	1,6
7	"Balakən-1" KSES	03.08.2017	1,4
8	"Güləbird" KSES	14.02.2021	8
9	"Suqovuşan-1" KSES	03.10.2021	4,8
10	"Suqovuşan-2" KSES	03.10.2021	3
	Cəmi:		**30,9**

Hibrid elektrik stansiyaları			
1	"Azalternativenerji"MMC-nin Qobustan Hibrid elektrik stansiyası	16.07.2014	5.6
2	Bakı Bərk Məişət Tullantılarının Yandırılması zavodu	19.12.2012	37
	Cəmi		**42.6**
Günəş elektrik stansiyaları			
1	"Suraxanı" GES	16.07.2014	2,8
2	"Babək" GES	01.12.2015	22
3	"Pirallahı" GES	21.07.2017	1.2
4	"Kəngərli" GES	08.07.20	5
	Cəmi		**31**
Külək elektrik stansiyaları			
1	"Yeni Yaşma" KEP	11.10.2018	50
2	"Yaşma Bağlar" KEP	11.10.2018	3,6
3	"Şuraabad" KEP	11.10.2018	1,7
	Cəmi		**55.3**

2003-cü ildək Azərbaycanın enerji sistemində istismara verilmiş və "Reabilitasiya Proqramı"ından sonra yenidən qurulan elektrik stansiyalarının siyahısı

Elektrik stansiyalar			
1	Azərbaycan İES	20.10.1981	2400
2	Bakı İEM	27.09.2001	107
3	Şimal ES	29.11.2001	400
4	Mingəçevir SES	15.11.1954	424
5	Varvara SES	01.09.1957	18
6	Şəmkir SES	07.07.1983	380
7	Yenikənd SES	06.04.2003	150
8	Araz SES	21.02.1974	22
	İstismarda olan cəmi:		**3901 MVt**
	Ümumi cəm:		**7,206,8 MVt**

Enerjisistemin generasiya gücləri haqqında qısa məlumat
2003-2021-cu illər

• 2004-cü ildə ümumi gücü 5236,1 MVt olan 10 elektrik stansiya (5 İES; 5 SES) fəaliyyət göstərirdi

• 2003-2021-ci illərdə 37 yeni elektrik stansiya istismara verilib, ümumi güc ≈ 3305,8 MVt

(13 ES + 5 SES + 10 KSES + 2 Hirbid + 4 Günəş + 3 Külək)

• Hazırda ümumi güc 7206,8 MVt olan 40 elektrik stansiya mövcuddur (16 İES + 10 SES + 7 KSES + 1 Hibrid + 3 Günəş + 3 Külək)

Qeyd: Ötən müddət ərzində 4 elektrik stansiya istismardan çıxarılmışdır:

-Şirvan İES.....	1050 MVt	2018-ci il
-Şimal ES Blok 7	150 MVt	2007-ci il
-Bakı İEM-1	135 MVt	2007-ci il
-Bakı İEM-2	24 MVt	2006-cı il

Ümumi gücü ..... 1359 MVt

2004-2019-ci illər ərzində güc artımının saldosu 1518.6 MVt

5236,1 + 2896.8 = 8132.9 – 1359 = 6774 MVt

AzərEnerji
Şimal ES

SES

2003-2008-Cİ İLLƏR

İNKİŞAFIN İLKİN MƏRHƏLƏSİ

Prezident İlham Əliyev "Şəki" Elektrik Stansiyasının açılışında, 14 oktyabr 2006-cı il

Enerjisistemin müasir və innovativ texnologiyaların tətbiqi ilə əlamətdar olan, sürətli iqtisadi yüksəlişin tələbatını ödəməyə istiqamətlənmiş yeni inkişaf mərhələsi cənab Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başlanmışdır. Ötən zaman ərzində bu sahədə görülən işlərin miqyası, həyata keçirilən layihələrin həcmi çox böyük və möhtəşəmdir. Yeni mərhələnin əsas məqsəd və vəzifələri konkret şəkildə dövlət başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2 may 2005-ci il tarixli sərəncamında müəyyənləşdirilib. O vaxt ölkənin inkişaf perspektivləri ilə əlaqədar tələbatı ödəmək üçün 1800 meqavata qədər yeni elektrik gücünün istismara verilməsi və yüksəkgərginlikli elektrik şəbəkələrinin genişləndirilməsi vacib hesab edilmişdi.

2003-2007-ci illərdə ölkə ərazisində elektrik enerjisi təchizatında yaranmış problemlərin aradan qaldırılması, əhalinin və müəssisələrin etibarlı və fasiləsiz enerji ilə təmin edilməsi məqsədi ilə "Astara", "Şəki", "Xaçmaz", "Bakı" modul tipli elek-trik stansiyaları istismara verildi. "Naxçıvan" Qaz-Turbin Elektrik Stansiyası əsaslı yenidənqurmadan sonra dizel yanacağından qaz yanacağına keçirildi, "Vayxır" Su Elektrik Stansiyası blokada şəraitində olan Naxçıvanın enerji təminatında mühüm rol oynadı.

Eyni zamanda inkişaf perspektivləri ilə əlaqədar enerji tələbatının ödənilməsi məqsədilə yeni elektrik güclərinin istismara verilməsi, yüksəkgərginlikli elektrik şəbəkələrinin genişləndirilməsi vacib hesab edilmişdi. Elektrik verilişi xətlərinin çəkilməsi, xeyli sayda yarımstansiyanın inşa edilməsi və yenidən qurulması, ən son elmi-texniki yeniliklərə əsaslanan rəqəmsal texnologiyanın - SCADA sisteminin tətbiqi ilə enerjisistemin idarəçiliyinin köklü şəkildə təkmilləşdirilməsi həmin strateji vəzifənin layiqincə yerinə yetirildiyini, ölkəmizin nəinki enerji təhlükəsizliyinin təmin edilməsi, həm də ixrac potensialının yaranması üçün mühüm işlər görüldüyünü göstərir.

Prezident İlham Əliyev "Bakı" Elektrik Stansiyasının açılışında, 22 fevral 2007-ci il

"Astara" Elektrik Stansiyası

Astara rayonu və ətraf ərazilərin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə 2005-ci il sentyabr ayının 8-də Astara rayonunun Ərçivan qəsəbəsi yaxınlığında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan "Astara" modul tipli Elektrik Stansiyasının tikintisi 3 fevral 2006-cı ildə başa çatıb. Astara rayonunda yerləşən, 10 moduldan ibarət, ümumi gücü 87 MVt olan stansiyada hər generasiya qurğusu 8,7 MVt elektrik enerji-si istehsal edir.

Stansiyanın yarımstansiyasında hər birinin gücü 25 meqavat olan 5 transformator quraşdırılıb. Bu stansiyanın tikintisi Finlandiyanın podratçı "Wartsila" şirkəti tərəfindən aparılıb, avadanlıqlar ABB firmasından alınıb və tikinti işləri yerli şirkətlər tərəfindən həyata keçirilib.

"Şəki" Elektrik Stansiyası

Turizmin inkişaf etdiyi Şəki rayonunun Göybulaq kəndi yaxınlığında ümumi gücü 87 meqavat olan bu stansiyanın tikintisinə 2005-ci ilin 14 oktyabrında başlanıldı. 12,5 hektar

"Bakı" Elektrik Stansiyası,
22 fevral 2007-ci il

"Şəki" Elektrik Stansiyası

sahəni əhatə edən stansiya 14 oktyabr 2006-cı ildə istifadəyə verilib. Bu stansiya ildə 600 milyon kVts elektrik enerjisi istehsal edə bilir.

Stansiyada quraşdırılan 10 porşen tipli aqreqatın hər birinin gücü 8,7 meqavatdır. Burada hər birinin uzunluğu 1,2 kilometr olan 4 ədəd 110 kilovoltluq elektrik verilişi xətti, 3,5 kilometr uzunluğunda 10 kilovoltluq kabel xətti, habelə 1,2 kilometr qaz xətti çəkilib. Obyektin özünün ayrıca qazpaylayıcı stansiyası var.

Tikintinin baş podratçısı Finlandiyanın "Wartsila" şirkətidir. Avadanlıqlar ABB şirkətinə məxsusdur. Tikinti işləri yerli şirkətlər tərəfindən aparılıb.

"Xaçmaz" Elektrik Stansiyası

Quba, Qusar, Xaçmaz və Dəvəçi rayonlarının elektrik enerjisinə olan ehtiyacının təmin edilməsi məqsədilə Xaçmaz rayonunun Qobuqırağı kəndi yaxınlığında yerləşən "Xaçmaz" Elektrik Stansiyasının təməli 1 dekabr 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qoyulub və 7 dekabr 2006-cı ildə istifadəyə verilib.

"Xaçmaz" Elektrik Stansiyası, 7 dekabr 2006-cı il

Hər birinin gücü 8,7 meqavat olmaqla 10 porşen tipli aqreqatdan ibarət olan və ümumi gücü 87 meqavat təşkil edən stansiya müasir texnologiyalar əsasında inşa edilib. Stansiya ildə 600 milyon kVts elektrik enerjisi istehsal edə bilir. Stansiyanın işləməsi üçün təbii qazın 6 atmosfer təzyiqində verilməsi kifayətdir.

Yardımçı stansiyada ümumi gücü 125 MVA olan 5 ədəd transformator quraşdırılıb. Tikintinin baş podratçısı Finlandiyanın "Wartsila", avadanlıqlar üzrə podratçı ABB şirkəti olub. Tikinti işləri isə yerli şirkətə həvalə edilib.

"Vayxır" Kiçik Su Elektrik Stansiyası

Ölkə enerji sisteminin daha da dayanıqlı olması üçün istənilən elektrik stansiyanın tikilməsi dövlətin prioritet vəzifələrindən biridir. Bu baxımdan 2005-ci ildə tikintisinə başlanılan 5 MVt gücə malik olan "Vayxır" Kiçik Su Elektrik Stansiyası da ölkə enerji sisteminə öz töhfəsini verir. Naxçıvan MR-da Heydər Əliyev adına su anbarı üzərində bəndönü tipli stansiya 20 dekabr 2006-cı il tarixində istismara verilib.

"Naxçıvan" Qaz-Turbin Elektrik Stansiyası

Babək rayonunun Naxçıvan-Culfa avtomobil yolunun 8-ci kilometrliyində tam yenidən qurulan "Naxçıvan" Qaz-Turbin Elektrik Stansiyası 20 dekabr 2006-cı ildə cənab Prezident İlham Əliyevin iştirakı ilə istismara verilərək, əhalinin enerji ilə təminatının yaxşılaşdırılmasında mühüm rol oynayır.

Stansiya hər birinin gucu 8,7 meqavat olan Finlandiyanın "Wartsila" şirkətinə məxsus 10 ədəd qaz porşen tipli aqreqatdan ibarətdir. Ümumi gücü 87 meqavat olan "Naxçıvan" Qaz-Turbin Elektrik Stansiyasında ildə 600 milyon kVts elektrik enerjisi istehsal edilir. Burada ümumi gücü 125 meqavat amper olan 5 transformator quraşdırılıb. Bu gün də muxtar respublikanın elektrik şəbəkələrinin dayanıqlığının yüksəldilməsi, əhalinin etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı üçün yeni stansiyaların, yüksəkgərginlikli transformator yarımstansiyalarının tikilməsi, mövcud yarımstansiyaların yenidən qurulması işləri həyata keçirilir.

"Naxçıvan" Elektrik Stansiyası

"Bakı" Elektrik Stansiyası

Bakı şəhərinin enerji təminatının yaxşılaşdırılması məqsədilə 4 hektar ərazidə 2006-cı ilin 15 iyul traixində "Bakı" Elektrik Stansiyasının tikintisinə başlanılıb və 22 fevral 2007-ci ildə istismara verilib. Burada müasir avadanlıqlarla təchiz olunan, ümumi gücü 104 MVt, hər birinin gücü 8,7 MVt olan 12 porşen tipli aqreqat quraşdırılıb. Elektron idarəetmə sistemi mühərriklərin istismarını asanlaşdırıb. Mühərriklər qısa müddətdə işə qoşula və dayandırıla bilər.

Eyni zamanda ümumi gücü 160 MVA olan 4 transformator və qapalı soyutma sistemi quraşdırılıb. 2 km uzunluğunda 110 kilovoltluq yeni elektrik ötürücü xətlər, stansiyanın qaz təchizatı üçün 5 metr uzunluğunda qaz xətti çəkilib. Stansiyada stasionar yanğınsöndürmə sistemi, mühərriklərin avtomatik olaraq yağla doldurulması, fövqəladə hallar üçün nəzərdə tutulmuş 230 kVtluq generator var.

Stansiya ildə 700 milyon kVts-dən çox elektrik enerjisi istehsal etməyə imkan verir.

"Bakı" Elektrik Stansiyası

Cənub

2008-2013-CÜ İLLƏRİN

ENERJİSİSTEMİ

Prezident İlham Əliyev
"Cənub" Elektrik Stansiyasında,
1 iyul 2013-cü il

2008-ci ildən başlayaraq Ölkə Prezidenti cənab İlham Əliyev energetika sahəsində generasiya güclərinin artırılması istiqamətində yeni layihələrin həyata keçirilməsinə start verdi. Bir-birinin ardınca "Səngəçal", "Şahdağ" modul elektrik stansiyaları, "Sumqayıt", "Cənub" elektrik stansiyaları, "Biləv", "Füzuli", "Taxtakörpü" su elektrik stansiyaları və "İsmayıllı-1", "Arpaçay-1", "Qusar-1" kiçik su elektrik stansiyaları istifadəyə verildi. "Şəmkir" SES-in 1-ci hidroaqreqatında yenidənqurma işləri aparıldı. Eyni zamanda "Azərbaycan" İES-in III və IV enerji blokunun yenidən qurulmasının başa çatdırılması nəticəsində 200 MVt əlavə güc yaradıldı.

Ötürücü infrastrukturun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər isə enerji-sistemin dayanıqlığını möhkəmləndirməklə yanaşı, regional əməkdaşlıq və kommersiya əlaqələri üçün texniki imkanların genişləndirilməsinə də şərait yaradatdı.

"Səngəçal" Elektrik Stansiyası

Bakı şəhəri və Abşeron yarımadasının enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, eləcə də əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması məqsədilə Bakının Qaradağ rayonu ərazisində 2007-ci ilin fevral ayında tikintisinə başlanılan, ümumi qoyuluş gücü 300 MVt olan modul tipli "Səngəçal" Elektrik Stansiyası 2008-ci ilin 24 dekabr tarixində istismara verilib. Stansiyada hər birinin gücü 16,6 meqavat olan 18 ədəd Finlandiyanın "Wartsila" şirkətinə məxsus qaz porşen aqreqatları quraşdırılıb.

Tikintinin baş podratçısı Finlandiyanın "Wartsila", avadanlıqlar üzrə podratçısı ABB, BƏƏ "Monolit", "İnter Enerji", "Qlobus" şirkətləri olub.

Hər blokda 51 meqavat elektrik enerjisi, eyni zamanda istilik enerjisi də istehsal olunur.

Stansiyada ildə 1 milyard 200 milyon kVts elektrik enerjisi istehsal edilir. Əsas yanacaq kimi qaz və mazutdan, keçid proseslərində isə dizel yanacağından istifadə edilir.

"Səngəçal" Elektrik Stansiyası

"Şahdağ" Elektrik Stansiyası

"Şahdağ" Elektrik Stansiyası

Quba və Qusar rayonlarının elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq, eləcə də Sahdağ Qış-Yay Turizm Kompleksini dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə Quba rayonunun Xuçbala kəndi yaxınlığında yerləşən, ümumi qoyuluş gücü 105 MVt olan modul tipli "Şahdağ" Elektrik Stansiyasının təməli 2008-ci ilin aprel ayında Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə qoyulub və 2009-cu ilin 18 sentyabr tarixində istismara verilib. Burada hər birinin gücü 8,7 MVt olan 12 ədəd Finlandiyanın "Wartsila" şirkətinin qaz porşen aqreqatları quraşdırılıb. Stansiya ildə 700 milyon kVts elektrik enerjisi istehsal edə bilir.

İstehsal olunan enerjinin ötürülməsi üçün 110 kilovoltluq 2-ci "Quba" hava xəttinin stansiyaya giriş-çıxışının təmin edilməsi məqsədi ilə 2 kilometr uzunluğunda yeni xətt, qaz təchizatı üçün 14 kilometr uzunluğunda boru kəməri çəkilib, qazpaylayıcı stansiya tikilib.

"Sumqayıt" Elektrik Stansiyası

Sumqayıt şəhəri və ətraf ərazilərin enerji təminatının yaxşılaşdırılması məqsədi ilə ölkə rəhbəri İlham Əliyev 12 avqust 2005-ci ildə 525 MVt-lıq tam müasir avadanlıqlarla təchiz edilmiş yeni elektrik stansiyanın əsasını qoyub. 2 qaz, 1 buxar və 3 generatordan ibarət olan stansiya 19 noyabr 2009-cu ildə istismara verilib.

İstehsal gücü 485 MVt olan stansiyada ildə 4 milyard kilovat-saatdan çox elektrik enerjisi istehsal etmək mümkündür. Stansiyanın turbinlərində işlənən buxarı soyutmaq üçün Xəzər dənizindən 1200 metrlik su xətti çəkilib, suqəbuledici kəmər, açıq suaxıdıcı kanal və nasos stansiyası tikilib.

Almaniyanın "Bayerische Landesbank"nın maliyyələşdirdiyi tikinti-quraşdırma işlərini Böyük Britaniyanın "Tayko", Avstriyanın "Terpo", Türkiyənin "Erpo" və yerli şirkətlər həyata keçirib. Stansiyanın güc və elektrik avadanlıqları Almaniyanın "Siemens", istilik avadanlıqları isə Belçikanın "CMI" şirkətinə məxsusdur.

İstehsal edilən elektrik enerjisi sistemə 110 və 220 kilovoltluq yarımstansiyalar vasitəsi ilə ötürülür. Bu məqsədlə hər birinin uzunluğu 6,5 kilometrə çatan və 300 meqavat yük daşıya bilən

"Sumqayıt" Elektrik Stansiyası

220 kilovoltluq "Sənaye qovşağı" və "Yaşma" hava xətləri ilə yanaşı, 110 kilovoltluq 7 elektrik xətti də çəkilib. Bu qurğu tam avtomatlaşdırılmış T-3000 sistemi vasitəsilə idarə olunur.

"Biləv" Su Elektrik Stansiyası

Naxçıvan MR-nın Ordubad rayonunun Biləv kəndi ərazisində yerləşən, 3 oktyabr 2010-cu ildə istismara verilən "Biləv" Su Elektrik Stansiyasının nominal gücü 20 meqavat, maksimal gücü isə 22 meqavatdır. Stansiya ilin bütün fəsillərində bol suyu olan Gilançaydan qidalanır. Su əvvəlcə tənzimləyici bəndə, sonra suyun toplanması üçün sahəsi 5,15 hektar olan süni gölə ötürülür. Göldəki bəndlərin eni 159 metr, hündürlüyü isə 7,3 metrlə 9,5 metr arasında dəyişir. Gölün su tutumu 250 min kubmetrdir. Burada su bərk əşyalardan təmizlənir, açıq və qapalı kanallarla sutəmizləyici anbara ötürülür. Üçsıralı anbar 8200 kubmetr su tutur.

Avstriyanın "Andritz" şirkətinin hazırladığı 2 turbin və 2 generator quraşdırılan "Biləv" Su Elektrik Stansiyasının binası bütün zəruri avadanlıqlarla təchiz edilib. Orta illik enerji istehsalı 80 milyon kilovat-saatdır.

"Biləv" Su Elektrik Stansiyası, 3 oktyabr 2010-cu il

"Füzuli" Su Elektrik Stansiyası

"Füzuli" Su Elektrik Stansiyası

"Füzuli" Su Elektrik Stansiyasının tikintisi Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na əsasən həyata keçirilib. Füzuli rayonunun Bala Bəhmənli kəndi ərazisində 18 aprel 2008-ci ildə təməli qoyulan "Füzuli" Su Elektrik Stansiyası Baş Mil kanalı üzərində yaradılan 40 min ton tutumu olan su anbarı daxil olmaqla, 14 hektar ərazidə inşa olunub.

Hər birinin gücü 6,3 meqavat olan 4 ədəd hidroaqreqatın fəaliyyət göstərdiyi "Füzuli" Su Elektrik Stansiyası 15 dekabr 2012-ci il dövlət başçısı tərəfindən istismara verilib. Ümumi gücü 25,2 meqavat, orta illik elektrik enerjisi istehsalı 105,84 mln. kVt-saat-dır.

Stansiya 110 kilovoltluq "Haramı" yarımstansiyası vasitəsilə respublikanın enerji sisteminə birləşdirilərək onların paralel rejimi təmin edilib.

"Qusar-1" Kiçik Su Elektrik Stansiyası

"Qusar-1" Kiçik Su Elektrik Stansiyası

2010-cu il avqust ayının 12-də dövlət başçısı İlham Əliyev Qusara səfəri zamanı Qusarqolu kanalı üzərində Xaçmaz rayonunun Urfa kəndi yaxınlığında "Qusar-1" Kiçik Su Elektrik Stansiyasının təməlqoyma, 20 dekabr 2012-ci ildə isə açılış mərasimində iştirak edib. Müasir avadanlıqla təchiz olunan stansiya tam kompüterləşdirilib və texnoloji proses avtomatlaşdırılmış şəkildə həyata keçirilir.

Stansiya 3 ədəd turbin, 3 ədəd hidrogenerator, suqəbuledici qurğu, avtomatik suaşıran, basqılı hovuz, derivasiya boruları, su elektrik stansiyasının inzibati binası və aparıcı kanaldan ibarətdir. Qoyuluş gücü 0,960 MVt, illik elektrik enerji istehsalı 5,088 mln. kVt-saatdır.

"Cənub" Elektrik Stansiyası

Ölkənin cənub bölgəsində 50 il əvvəl istismara verilən "Şirvan" ("Əli-Bayramlı" İstilik Elektrik Stansiyası) Elektrik Stansiyası istismar müddətini başa vurduğu üçün Prezident İlham Əliyevin

2005-ci ildə imzaladığı Sərəncamla Şirvan şəhərində 20 hektar ərazidə ümumi qoyuluş gücü 780 MVt olan "Cənub" Elektrik Stansiyasının təməli 24 dekabr 2007-ci ildə qoyulub, 1 iyul 2013-cü il tarixində isə istismara verilib.

Finlandiyanın "Wartsila" , ABB və digər şirkətlərin birgə iştirakı ilə tikilən stansiya ildə 6 milyard kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verir.

Burada hər birinin gücü 128 meqavat olan 4 qaz turbini, hər birinin gücü 135 meqavat olan 2 buxar turbini, hər birinin məhsuldarlığı saatda 186 ton olan 4 qazan-utilizator və hər birinin gücü 160 meqavolt amper olan 6 generator, ümumi gücü 160 MVA olan 4 transformator və digər zəruri avadanlıqlar quraşdırılıb. "Sahil" nasos stansiyasında hər birinin məhsuldarlığı saatda 80 min kubmetr olan üç qaz kompressoru, Kür çayı üzərində diametri iki min millimetr olan iki kollektorlu 4 nasosdan ibarət 3 kilometr uzunluğunda su soyuducu sistem, 2 köməkçi işəsalma və qızdırıcı qazan var. Stansiyada "GİS" tipli qapalı 330/220/110 kilovoltluq yarımstansiya fəaliyyət göstərir.

Yarımstansiyada ümumi uzunluğu 50 kilometr olan 330, 220 və 110 kilovoltluq kabel və hava xətləri, həmçinin uzunluğu 130 kilometr olan 220 kilovoltluq ikidövrəli "Cənub Elektrik Stansiyası — Böyükşor yarımstansiyası" hava xətti çəkilib.

"Cənub" Elektrik Stansiyası

"İsmayıllı-1" Kiçik Su Elektrik Stansiyası

"İsmayıllı-1" Kiçik Su Elektrik Stansiyası İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında yerləşir. Stansiyanın inşasına 2010-cu ildə başlanıb, 14 avqust 2013-cü ildə isə açılış mərasimi olub. Tikinti işləri zamanı burada suqəbuledici quraşdırılıb, hər birinin uzunluğu 2115 metr, diametri 800 millimetr olan üç boru çəkilib, stansiya binası inşa edilib. Stansiyada 0,527 MVt gücündə 3 ədəd turbinin ümumi qoyuluş gücü 1,581 MVt təşkil edir. İllik elektrik enerjisi istehsalı 7,905 mln. kVt-saatdır.

Burada eyni zamanda 10 və 0,4 kilovoltluq yarımstansiya, elektrik ötürücü xətti çəkilib.

Prezident İlham Əliyev "İsmayıllı-1" Kiçik Su Elektrik Stansiyasının açılışında, 14 avqust 2013-cü il

"Arpaçay-1" Kiçik Su Elektrik Stansiyası

"Arpaçay-1" Kiçik Su Elektrik Stansiyası

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Gümüşlü kəndində yerləşən, ulu öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində muxtar respublikada reallaşdırdığı böyük layihələrdən biri olan Arpaçay su anbarından qidalanan bəndönü tipli "Arpaçay-1" Kiçik Su Elektrik Stansiyasının tikintisinə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2011-ci ilin fevral ayında başlanıb, 9 sentyabr 2013-cü ildə başa çatdırılıb.

Gücü 20,5 MVt olan stansiya suqəbuledici qurğu, inzibati bina, Arpaçay su anbarından suyun ötürülməsi məqsədi ilə suötürücü dəmir-beton qurğudan, tunel və transformator yarımstansiyasından ibarətdir. İstehsal olunan elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün transformator yarımstansiyası qurulub, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətti çəkilib. Stansiyada il ərzində 60 milyon kilovat-saat elektrik enerjisi istehsal olunur.

"Taxtakörpü" Su Elektrik Stansiyası

Şabran şəhərinin yaxınlığında Samur çayı, Taxtakörpü su anbarında 2011-ci ildə inşa olunan "Taxtakörpü" Su Elektrik Stansiyasının açılış mərasimi 28 sentyabr 2013-cü ildə olub.

Stansiyada bəndin hündürlüyü 142,5 m, maksimum su səviyyəsi 183,31 m-dir. Su 3 ədəd turbinə 1600 mm-lik xüsusi

ötürücü boru vasitəsilə verilir. Burada ümumi gücü 25 MVt olan üç hidroaqreqat, 2 ədəd 500 kVA-lıq xüsusi sərfiyyat transformatoru və bir ədəd 270 kVA-lıq qəza dizel generatoru quraşdırılıb. Orta illik elektrik enerji istehsalı 56 mln. kVt-saatdır.

İstehsal olunan elektrik enerjisi sistemə 110 kV-luq 1-ci və 2-ci "Taxtakörpü" hava xətləri vasitəsilə ötürülür.

"Taxtakörpü"
Su Elektrik Stansiyası

14.08.13

2013-2018-Cİ İLLƏR

DAVAM EDƏN ENERJİ SİYASƏTİ

"Arpaçay-2" Kiçik Su Elektrik Stansiyası

Prezident İlham Əliyevin energetika strategiyasına uyğun olaraq 2013-2017-ci illərdə enerjinin istehsalı, ötürülməsi, paylanması və idarə edilməsi sahəsində aparılan inkişaf, islahat, tikinti və yenidənqurma işləri daha geniş vüsət alıb. Bir-birinin ardınca tikilən "Şəmkirçay" Su Elektrik Stansiyası, "Göyçay-1", "Arpaçay-2", "İsmayıllı-2" və "Balakən-1" kiçik su elektrik stansiyaları ölkənin enerji təminatında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan artıq dünyada enerjini ixrac edən ölkələr sırasında yer alıb. Yeni stansiyalar, yarımstansiyalar, elektrik verilişi xətlərinin tikintisi ilə yanaşı, uzun illər istismarda olan müəssisələrin də yenidən qurulması, müasir avadanlıqlar və texnologiya ilə təmin olunması günün ən vacib məsələlərindən birinə çevrilib.

"Arpaçay -2" Kiçik Su Elektrik Stansiyası

Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması, zəngin hidroenerji resurslarından səmərəli istifadə ilə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin stimul-

laşdırılması məqsədilə Şərur rayonunun Aşağı Yayçı kəndi ərazisində yerləşən, 7 aprel 2014-cü ildə istismara verilən, 1,4 meqavat gücündə olan "Arpaçay-2" Kiçik Su Elektrik Stansiyasında anbarın ümumi su tutumu 3 milyon kubmetrdir. Əsasən paylayıcı funksiyanı yerinə yetirən stansiyada son vaxtlar görülən işlər əhalinin elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına və daha geniş ərazidə əkin sahələrinin suvarılmasına əlverişli imkanlar yaradır.

"Şəmkirçay" Su Elektrik Stansiyası

Şəmkir rayonu Yuxarı Seyfəli kəndində 7,01 hektar ərazidə inşa edilən "Şəmkirçay" Su Elektrik Stansiyasının tikintisinə 2008-ci ildə başlanıb və 15 noyabr 2014-cü ildə açılış mərasimi olub. Qoyuluş gücü 25 MVt olan stansiya 6 ədəd Frensis tipli hidroaqreqatdan ibarətdir. Hidrogeneratorların gücü 4,073 MVt-dır. Burada əsasən Almaniya, Çexiya və digər xarici ölkələrdən gətirilən avadanlıqlar quraşdırılıb. İldə 56 milyon kVts elektrik enerjisi istehsal olunur.

Prezident İlham Əliyev "Şəmkirçay" Su Elektrik Stansiyasının açılışında, 15 noyabr 2014-cü il

Dispetçer otağında son elmi-texniki yeniliklərə əsaslanan avadanlıqlar quraşdırılıb. Qapalı paylayıcı qurğu, qəza dizel generatoru, digər qurğu və avadanlıqlar da inkişaf etmiş ölkələrin energetika obyektlərindəki standartlara uyğundur. 110 kilovoltluq açıq paylayıcı qurğu da mükəmməlliyi ilə seçilir.

"Göyçay-1" Kiçik Su Elektrik Stansiyası

Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilən, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 noyabr tarixli Sərəncamına əsasən, 12 fevral 2010-cu ildə təməli qoyulan "Göyçay-1" KSES-in açılış mərasimi 6 oktyabr 2015-ci ildə olub. Ümumi gücü 3,1 meqavat olan stansiya ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verir. Bu isə Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir.

Burada suqəbuledici və tutumu 4500 kubmetr olan təzyiq hovuzu, hər birinin uzunluğu 28,4 metr olan üç dəmir-beton

"Göyçay-1" Kiçik Su Elektrik Stansiyası

Prezident İlham Əliyev "İsmayıllı-2" Kiçik Su Elektrik Stansiyasının açılışında, 10 avqust 2016-cı il

təzyiq qurğusu quraşdırılıb. Həmçinin turbin zalı və sunəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib. 5 hektar ərazidə yaşıllaşdırma və abadlıq işləri aparılıb, köməkçi tikililər inşa edilib.

"İsmayıllı-2" Kiçik Su Elektrik Stansiyası

İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən, 2016-cı il avqust ayının 10-da açılış mərasimi olan "İsmayıllı-2" Kiçik Su Elektrik Stansiyasının ümumi layihə gücü 1,6 meqavat təşkil edir. Stansiyanın əsas komponentləri suqəbuledici, hər birinin uzunluğu 2115 metr, diametri 800 millimetr olan üç boru, inzibati bina, nəzarət, mühafizə, idarəetmə və uçot sistemləri, gücü 0,527 meqavatlıq üç hidroturbin və üç hidrogenerator, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətlərindən ibarətdir. "İsmayıllı-1" Kiçik Su Elektrik Stansiyasının aşağı byefindən çıxan təmizlənmiş su bu stansiyaya daxil olur, beləliklə, stansiyanın ümumi qoyuluş gücü 3,2 meqavat olmaqla silsilə təşkil edir. Burada ildə 8 milyon kilovat-saat elektrik enerjisi istehsal edilir.

"Balakən-1" Kiçik Su Elektrik Stansiyası

"Balakən-1" Kiçik Su Elektrik Stansiyası

Alternativ enerji mənbələrindən səmərəli istifadə edilməsi proqramı çərçivəsində inşa olunan, Balakən şəhərinin və ətrafdakı 6 kəndin elektrik enerjisinə olan tələbatını ödəyə bilən, Balakən çayı üzərində tikilən və ümumi gücü 1,44 meqavat olan "Balakən-1" Kiçik Su Elektrik Stansiyasının təməli 2010-cu il iyulun 8-də Prezident İlham Əliyev tərəfindən qoyulub və 3 avqust 2017-ci ildə stansiyanın açılış mərasimi baş tutub. Stansiya texniki göstəricilərinə görə olduqca səmərəli və müasirdir. Hündürlüyü 5,6 m, eni 28 m olan bənd tikilib. Uzunluğu 2 min metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan üç hidroturbin və hidrogenerator quraşdırılıb. Stansiya ildə 10 milyon kVt-saat elektrik enerjisi istehsalı gücünə malikdir və rayonun 15 faiz, Balakən şəhərinin isə 25-30 faiz tələbatını ödəyir.

SIEMENS

2018-2021-Cİ İLLƏR

İSLAHAT, İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜ

"Lerik" Elektrik Stansiyası

Bu dövr Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin apardığı elektroenergetika siyasətinin nəticəsində Cənubi Qafqazda mövcud enerji potensialına liderlik edən Azərbaycan enerjisistemi müasir texnologiyaların, məsafədən idarə olunan SCADA sistemi və innovasiyaların tətbiqi ilə dinamik inkişafa nail olub. Yeni tikililərlə yanaşı, 2018-ci ilin sentyabr ayında "Azərenerji" ASC-də növbəti islahatlara start verildi. Ümumilikdə isə 2003-cü ildən sonra elektroenergetika sahəsində aparılan islahatlar, yeni generasiya güclərinin tikilib istifadəyə verilməsi enerjisistemin dayanıqlığının artırılmasına, enerji ixracatçısı kimi potensialının gücləndirilməsinə gətirib çıxarıb və ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib.

"Lerik" Elektrik Stansiyası

2018-ci ilin oktyabr ayının 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda gücü 16,5 MVt olan "Lerik" Elektrik Stansiyasının istismara verilməsi mərasimində iştirak edib. Bölgələrdə bu cür elektrik stansiyalarının yaradılması həm enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına təkan verməklə əlavə iş yerlərinin açılmasına səbəb olur.

Elektrik stansiyası Lerik şəhər mərkəzindən bir kilometr cənubda, Cəngəmiran kəndində 3,6 hektar ərazidə yerləşir. Burada hər birinin gücü 3,3 MVt olan beş mühərrik-generator, həmçinin 35 və 10 kV-luq yarımstansiyalar quraşdırılıb. Stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Burada əsas yanacaq kimi qazdan istifadə olunur. Bundan başqa, blok transformatoru, iki güc transformatoru və iki ədəd xüsusi sərfiyyat transformatoru da layihənin komponentləri sırasındadır.

Prezident İlham Əliyev "Lerik" Elektrik Stansiyasının açılışında, 15 oktyabr 2018-ci il

Prezident İlham Əliyev "Şimal-2" Elektrik Stansiyasının açılışında, 5 sentyabr 2019-cu il

"Şimal-2" Elektrik Stansiyası

21 sentyabr 2011-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə 104,9 hektar ərazidə il ərzində 3,2 milyard kVts elektrik enerjisi istehsal edə bilən, gücü 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının təməli qoyuldu və 5 sentyabr 2019-cu ildə açılış mərasimi oldu. Ümumi qoyuluş gücü 800 MVt olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərinin operativ aradan qaldırılması üçün Mərkəzi İdarəetmə binası inşa edilib. Binada stansiyanın tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey, iclas və konfrans zalları da fəaliyyət göstərir.

İdarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıb, enerjisistemin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilib. İki stansiya birlikdə il ərzində 5,7 milyard kilovat-saat elektrik enerjisi istehsal edə bilir.

Stansiyada Yaponiyanın "Mitsubishi" şirkətinə məxsus 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücün-də elektrik generatoru, 480 MVA gücündə blok transformatoru və onların köməkçi sistemləri, paylayıcı qurğular

arasında əlaqəni təmin etmək üçün müxtəlif gərginlik sinfinə malik olan iki avtotransformator quraşdırılıb. Stansiyanı yüksək təzyiqli yanacaqla təmin etmək məqsədilə yeraltı qaz kəməri, qaz tənzimləyici və təmizləyici qovşaq, qaz qızdırıcı qurğular və kompressor stansiyası tikilib. Stansiyanın buxar turbinlərinin kondensatorları və avadanlıqları Xəzər dənizindən götürülən su vasitəsilə soyudulur. Bu məqsədlə Xəzər dənizindən 140 metr uzunluğunda soyuducu su kanalı, hovuz, su xətti və ümumi məhsuldarlığı saatda 52 min kubmetr olan sahil nasos stansiyası, o cümlədən soyuducu suyun Xəzər dənizinə qaytarılması üçün boru xətti inşa olunub. Yanğın təhlükəsizliyi üçün müasir yanğınsöndürmə sistemi, texniki və içməli suya olan tələbatın təmin edilməsi və su ehtiyatının yaradılması üçün duzsuzlaşdırma qurğusu və digər zəruri infrastruktur yaradılıb.

Enerjinin ötürülməsi üçün Abşeron regionunda 220 kilovoltluq dairəvi sxem qurulub, "Şimal" Elektrik Stansiyasının "Sumqayıt" Elektrik Stansiyası və "Abşeron" yarımstansiyası ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik verilişi xətti istismara verilib.

"Şimal-2" Elektrik Stansiyası

"Şimal-2" Elektrik Stansiyası

"AZƏRENERJİ" ASC-DƏ
HƏYATA KEÇİRİLƏN

REABİLİTASİYA PROQRAMI

Reabilitasi

iya prosesi



2018-ci ildən "Reabilitasiya Proqramı"na uyğun olaraq 12 elektrik stansiyasında aparılan işlər

Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İES-in 330 kV-luq APQ-sində Q-41 eleqaz açarının "A" fazasında quraşdırılmış ТФРМ-330Б-У1 tipli cərəyan transformatorunun 3 iyul 2018-ci il saat 00:20 radələrində partlaması, alovlanmış transformator yağının kabel kanalında yerləşən idarəetmə və ikinci kommutasiya kabellərini sıradan çıxarması, "Azərbaycan" İES-in tam dayanmasına, eləcə də 3 iyul 2018-ci il saat 18:46 radələrində "Şimal" ES-də 310 MVt güclə işləyən enerji blokunun sistemdən açılması və sistemin əks-qəza avtomatikasının qeyri-qənaətbəxş işləməsi sistemin ümümi dayanıqlığının pozulması və ölkədə enerji təchizatının 1 sutka ərzində 2 dəfə tam kəsilməsi ilə nəticələnmişdir. Baş vermiş 1-ci qəzanın lokallaşdırılaraq dərhal ləğv edilməməsi, "Azərbaycan" İES-in yerli mühafizə qurğularının sabit cərəyan mənbəyinin itməsi səbəbindən sona qədər işləməməsi və imtinası qəzanın genişlənərək, nəinki "Azərbaycan" İES-in dayanmasına, həm də bütün energetika sistemində gərginliyin itməsinə və ölkədə elektrik enerjisi təchizatının tam kəsilməsinə səbəb olmuşdur. Qəzanın energetika sisteminə yayılaraq dərinləşməsinə "Azərbaycan" İES-lə bərabər, qoyuluş gücləri 2500 MVt olan müasir tipli "Cənub" ES, "Şimal" ES, "Sumqayıt" ES, eləcə də "Səngəçal", "Bakı" və digər modul tipli elektrik stansiyalarının mühafizə avtomatika sistemlərinin normal işləməməsi, həmçinin energetika sisteminin qəza əleyhinə avtomatika sistemlərinin lazımi səviyyədə işləməməsi və ya imtinası səbəb olmuşdur. Qonşu Gürcüstandan elektrik enerjisi idxalına baxmayaraq, bir neçə gün ərzində ölkənin elektrik enerji sistemini tam bərpa etmək mümkün olmadı. Qəza zamanı 2 gün ərzində ölkənin 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmış, tələbatçılar elektrik enerjisi ilə təminatdan məhrum olmuşdular.

Elektrik stansiyalarında böyük güc itkisinin yaranması, istismar müddətini başa vurmuş, təmirlə bərpası mümkün olmayan avadanlıq və qurğuların vaxtında yenilənməməsi, həmdövrəli elektrik stansiyalarında gizli ehtiyatın olmaması (stansiyalar baza rejimində işləmişlər), avtomatika və idarəetmə proqramlarının köhnəlməsi enerjisistemin manevretmə və çevikliyinə mənfi təsir göstərmiş, nəticədə 3 iyul 2018-ci il tarixində sistem qəzasına şərait yaratmışdır.

Baş vermiş qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə 3 iyul 2018-ci il tarixindən

LOGISTICS
Logistics

"Azərbaycan" İstilik Elektrik Stansiyası

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti tərəfindən Dövlət Komissiyasına günahkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə hadisənin başvermə səbəblərini araşdıraraq obyektiv rəy hazırlanması və gələcəkdə belə halların təkrarlanmaması üçün təkliflərin verilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsinə dair çox ciddi tapşırıqlar verildi.

Dövlət Komissiyası tərəfindən yerli və xarici ekspertlər, aidiyyəti dövlət orqanlarının və qurumlarının nümayəndələri də cəlb edilməklə, qəzanın başvermə səbəbləri ciddi araşdırılmış, mövcud çatışmazlıqlar və problemlər, habelə qəzanı doğuran hallar da əks olunmaqla, hərtərəfli və geniş rəy hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edildi. Hazırlanan rəydə baş verən qəzanın əsas səbəblərindən biri kimi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin qəzaya lazımi səviyyədə hazır olmaması, fəaliyyətində mövcud olan texniki və bir sıra digər çatışmazlıqlar üzündən qəzaya adekvat reaksiya verə bilməməsi, nəticədə ölkənin enerji sistemində qəzaya gətirib çıxaran bir sıra digər nöqsanlara yol verdiyi qeyd olunub.

Enerjisistem üzrə yaranmış kritik vəziyyətin aradan qaldırılması, generasiya güclərinin bərpa edilməsi, yarımstansiyaların müasir qurğu və avadanlıqlarla təchiz olunması, elektrik ötürücü sistemin yükburaxma qabiliyyətinin artırılması istiqamətində yerli və xarici şirkətlərin mütəxəssisləri tərəfindən verilmiş məsləhətlər nəzərə alınmaqla "Azərenerji" ASC tərəfindən hazırlanan və ölkə rəhbəri tərəfindən qəbul edilən "Reabilitasiya Proqramı" çərçivəsində enerjisistemdə təxirəsalınmaz tədbirlər həyata keçirilir, geniş miqyasda tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa işləri aparılır və zəruri avadanlıqlar tədarük edilir. Eləcə də, enerji sistemin dayanıqlılığının artırılması, elektrik enerjisi verilişinin keyfiyyətinin və səmərəliliyinin yaxşılaşdırılması, enerji şəbəkəsinin texniki-iqtisadi göstəricilərinin yüksəldilməsi, maliyyə sağlamlığına nail olma, elektrik enerjisi hasilatının artırılması istiqamətində enerji sisteminin mövcud elektrik stansiyalarında güc məhdudiyyətinin aradan qaldırılması, elektrik enerjisi hasilatında yanacaq sərfinin və elektrik verilişi xətlərində enerji itkilərinin azaldılması, ötürücü şəbəkənin bərpası, ixrac potensialının artırılması və yeni elektrik stansiyalarının tikintisinin nəzərdə tutulduğu reabilitasiya, yenidənqurma, inkişaf mərhələlərdən ibarət 2019-2024-cü illər üzrə "Master

Plan" hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib. 2019-cu ilin may ayında təsdiq edilib və icrasına başlanılıb. Ümumilikdə 12 elektrik stansiyasında yenidənqurma, təmir-bərpa işləri aparılıb və bu istiqamətdə işlər davam edir.

2018-ci ilin sentyabr ayında "Azərenerji" ASC-nin generasiya güclərindəki problemlər Almaniyanın "VPC" və "Enerco" mühəndislik və konsaltinq şirkətlərinin bu istiqamət üzrə apardığı əhatəli diaqnostikaların nəticəsində təsbit olunub. Bundan əlavə, Yaponiyanın "TEPSCO" və Almaniyanın "FICHTNER" konsaltinq şirkətlərinin 2013-2014-cü illərdə hazırladığı müvafiq Hesabat və Baş Plan bu problemlərin tarixçələrini də araşdırmağa imkan verir. 3 iyul 2018-ci il tarixli sistem qəzasından sonra Almaniyanın "VPC" şirkətinin xüsusilə "Azərbaycan" İES-də apardığı təftiş və onun nəticələri əsasında hazırlanan Reabilitasiya üzrə Baş Plan keçmiş hesabatları bir daha təsdiqləyib və həyata keçiriləcək təmir-bərpa işləri üçün əsas vəzifələri müəyyən edilib.

"Master Plan" hazırlanarkən "Azərenerji" ASC-nin Texniki Şurasının, elmi-tədqiqat institutlarının, Yaponiyanın "TEPSCO",

Almaniyanın "Fichtner", "Enerco", "VPC" kimi dünyada tanınmış şirkətlərinin mütəxəssisləri tərəfindən aparılan tədqiqatlar, hazırlanan proqramlar və təftiş-sınaq işlərinin nəticələri nəzərə alınıb və enerjisistemin dayanıqlılığının artırılması, elektrik enerjisi verilişinin keyfiyyətinin və səmərəliliyinin yaxşılaşdırılması, enerji şəbəkəsinin texniki-iqtisadi göstəricilərinin yüksəldilməsi hədəfi əsas prioritet seçilib.

Reabilitasiya mərhələsində enerjisistemin kritik vəziyyətdən çıxarılması üçün əsas hədəflər kimi təxirəsalınmaz tədbirlərin görülməsi və "itirilmiş" 800 MVt-a qədər gücün bərpa edilməsi üçün ümümilikdə 12 ədəd İES və modul tipli elektrik stansiyalarında yenidənqurma işlərini həyata keçirilməsi olub.

"Reabilitasiya Proqramı"nın həyata keçirildiyi 2018-ci ilin sentyabr ayından 2021-ci ilin iyul ayına qədər olan müddətdə yenidənqurma, təmir-bərpa işləri nəticəsində elektrik stansiyalarında 1348 MVt "itirilmiş" güc bərpa edilib. Bundan 1118 MVt istilik elektrik stansiyalarından, 230 MVt isə su elektrik stansiyalarından əldə olunub.

2018-ci ilin 3 iyul tarixində Mingəçevir şəhərində yerləşən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES-də baş verən qəza nəticəsində enerjisistem çökmüş, ölkənin sosial-iqtisadi həyatı iflic olmuşdu.

Baş vermiş qəzanın araşdırılması və fəsadlarının aradan qaldırılması məqsədi ilə cənab Prezident İlham Əliyevin tapşırığına əsasən dövlət komissiyası yaradılmış, ölkə başçısının rəhbərliyi ilə toplantı keçirilərək təxirəsalınmaz tədbirlərin icrasına başlanmışdır.

Qeyd edək ki, qoyuluş gücü 2400 MVt olan istilik elektrik stansiyasının həmin dövrdə maksimum imkan gücü 1505 MVt olub, isti və soyuq ehtiyata malik deyildi. Demək olar ki, stansiya ən kritik həddə bütün sahələr üzrə istismar müddətini başa vurmuş, stansiyada dayanıqlılıq, etibarlılıq və təhlükəsizlik ən minimum səviyyəyə düşmüşdü.

Baş vermiş qəza ilə bağlı aparılan araşdırma nəticəsində məlum olmuşdur ki, təkcə "Azərbaycan" İES deyil, bütövlükdə ölkənin enerjisistemi təhlükəli vəziyyətə düşüb. Belə ki, beynəlxalq şirkətlərin apardığı texniki monitorinq və audit hesabatlarında da elektrik stansiyasının ömrünü başa vurduğu xüsusi qeyd olunur. Beynəlxalq qurumların qeydlərində bildirilirdi ki, elektrik stansiyası fəaliyyətini ya dayandırmalı, ya da sökülərək yerində yenisi tikilməlidir.

Lakin "Azərbaycan" İES ölkə enerjisistemində istehsal edilən elektrik enerjisinin 40 faizini hasil etdiyi üçün stansiyanın sökülməsi energetiklər şəhəri olan Mingəçevirdə böyük işsizlər ordusu yaradacağından, eyni zamanda stansiyanın sökülərək yenisinin tikilməsinə milyardlarla manat vəsait tələb olunduğundan, eyni zamanda ulu öndər Heydər Əliyevin "Şah əsəri" sayılan bu stansiyanın sökülməsi həm texniki, həm maddi, həm də mənəvi baxımdan ciddi problemlərə səbəb ola bilərdi.

Sadalanan səbəblərə görə, cənab Prezidentin birbaşa göstərişinə əsasən yerli mütəxəssislər, AMEA-nın əməkdaşları, "Azərenerji" ASC-nin Texniki Şurasının üzvləri, beynəlxalq şirkətlərin nümayəndələri ilə məsləhətləşmələr aparılaraq mükəmməl "Reabilitasiya Proqramı" işlənib hazırlandı. Dünyaca məşhur olan "McKinsey&Company" şirkəti "Reabilitasiya Proqramı"na yüksək rəy verdi.

Beləliklə, 2019-cu ilin əvvəlində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasında bütün sahələr üzrə tikinti, yenidənqurma, təmir və bərpa işlərinə start verildi.

Nəticədə istismar müddətini başa vuran stansiya tamamilə

yenidən qurularaq, ömrü ən azı 20 il uzadıldı. Etibarlılıq, dayanıqlılıq, səmərəlilik və təhlükəsizlik təmin edilərək, 620 meqavatdan artıq "itirilmiş" güc bərpa olundu. Hazırda 2400 MVt-lıq "Azərbaycan" İES nominal güclə işləməyə qadirdir. Çünki stansiyada bütün parametrlər üzrə tikinti, bərpa və yenidənqurma işləri yüksək səviyyədə icra edilib.

Nəticədə "Azərbaycan" İstilik Elektrik Stansiyası nəinki ölkənin, bütövlükdə regionun ən müasir və yüksək tələblərə cavab verən nəhəng elektrik stansiyasına çevrilib.

"Azərbaycan"
İstilik Elektrik Stansiyası

"AZƏRBAYCAN" İSTİLİK ELEKTRİK STANSİYASINDA

01 İlk növbədə 8 enerji blokunda texniki avadanlıqlar, material və ehtiyat hissələri xarici ölkələrdən gətirilərək yenilənib.

02 Turbinlərdə, rotorlarda, qazan qurğularında kompleks əsaslı və yenidənqurma təmir işləri aparılıb, generatorların təsirlənmə sistemləri, xüsusi sərfiyyat transformatorları dəyişdirilib.

03 Əvvəllər yağış, qar altında qalan turbin sexinin dam örtüyünün dəyişdirilməsindən tutmuş, idarəetmə nəzarət kabellərinin yenilənməsinə qədər işlər həyata keçirilib.

04 Görülən izolyasiya işinin həcmi 350 min kvadratmetr təşkil edib.

05 Yarımstansiyada kommutasiya aparatları, idarəetmə, mühafizə, nəzarət kabelləri, kabel kanalları tam yenidən qurulub.

06 Yarımstansiyalar üçün yeni idarəetmə binaları tikilib və ən müasir avadanlıqlarla təchiz edilərək istismara verilib.

07 Stansiyanın ərazisindən keçən Yuxarı Qarabağ kanalının dib hissəsi, sağ və sol yamacları 1 km məsafədə betonlanaraq əsaslı təmir edilib.

08 Qəza baş verən 330 və 500 kV-luq yarımstansiyalar tamamilə yenidən qurulub, bütün avadanlıqlar müasir texnologiyaların tələblərinə uyğun yenilənib. İstismar müddətini bitirdiyindən hər an partlaya bilən, daim qəza mənbəyi olan cərəyan transformatorları, o cümlədən gərginlik transformatorları yenilənib.

09 Yeni azot-oksigen, elektroliz və başqa istehsalat sahələri istismara verilib.

10 Stansiyanın əks-qəza avtomatikası, SCADA Dispetçer sistemi tam yenidən qurulub. Həmçinin binada regional Tədris Mərkəzi yaradılıb.

11 Elektrik stansiyasında kimya sahəsi tikilib, müasir əks-osmos su təmizləyici qurğuları və su çənləri quraşdırılıb.

12 Stansiyanın xüsusi əhəmiyyəti nəzərə alınaraq ərazidə helikopter meydançası, stadion, ümummilli lider Heydər Əliyevin heykəli, ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların, o cümlədən 1941-1945-ci il Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə abidə ucaldılıb.

13 Yanğından mühafizə xidməti əsaslı təmir edilib. Yanğına qarşı yeni nasos stansiyası qurulub, köpüklə söndürmə sistemi quraşdırılıb.

14 Stansiyanın perimetr üzrə video müşahidə sistemi ilə təchiz edilmiş 6 km uzunluğunda yeni mühafizə hasarı tikilib.

15 Altımərtəbəli mühəndis korpusu da daxil olmaqla əsas və köməkçi binalar kompleks şəkildə yenidən qurulub. Yeni avadanlıqlarla təchiz edilib.

16 Stansiya yaxınlığında yaşayan əhalinin istifadəsi üçün Yuxarı Qarabağ kanalı üzərində eni 8, uzunluğu 60 metr olan yeni körpü tikilib və yol çəkilib.

17 Hektarlarla ərazidə ağaclar, güllər və çiçəklər əkilib, yaşıllaşdırma işləri aparılıb.

18 12 km məsafədə - 100 min kvadratmetrdən artıq əraziyə asfalt və beton qatı çəkilib.

19 Stansiya işçilərinin sağlamlığını risk altında qoyan zərərli azbes materialından ibarət köhnə inzibati bina sökülərək yeni Baş İdarəetmə Mərkəzi tikilib. Burada hündürlüyü 3, eni 24 metr olan monitor vasitəsi ilə seksiyalar üzrə 8 enerji bloku, yarımstansiyalar, yüksəkgərginlikli xətlər avtomatik rejimdə idarə olunur.

Bununla da ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin təkidi və təşəbbüsü ilə tikilən Cənubi Qafqazın ən böyük elektrik stansiyası, Möhtərəm Prezident İlham Əliyevin qətiyyət və qayğısı ilə tam yenidən qurularaq, beynəlxalq qurumlar tərəfindən istismar müddəti bitmiş hesab olunan stansiya əvvəlkindən daha müasir və səmərəli vəziyyətə gətirilib. "Azərbaycan" İES-in yenidən qurulması eyni zamanda Mingəçevir şəhər sakinlərinin məşğulluğu üçün də xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, ulu öndər Heydər Əliyev ölkənin ən böyük elektrik stansiyasını yaratdı, Möhtərəm cənab Prezident İlham Əliyevin qayğısı sayəsində stansiya yenidən quruldu, qorundu, saxlanıldı və ömrü uzadıldı.

Qoyuluş gücü 2400 MVt olan güc balansında "Azərenerji" ASC-nin ümumi gücünün 37%-dən çoxunu təşkil edən "Azərbaycan" İES-in enerji bloklarının vəziyyətini nəzərə almaqla 500 və 330 kV-luq açıq paylayıcı qurğularda görülən işlərlə paralel, eləcə də stansiyanı işlək vəziyyətdə saxlamaqla ilk növbədə enerji bloklarının əsaslı təmir qrafikləri hazırlanıb və bu qrafikə uyğun olaraq bütün 8 enerji blokunda yenidənqurma, təmir-bərpa işləri aparılıb. O cümlədən:

6 saylı enerji blokunda 03.10.2018 - 26.12.2018-ci il
7 saylı enerji blokunda 07.01.2019 - 28.03.2019-cu il
5 saylı enerji blokunda 23.03.2019 - 25.07.2019-cu il
8 saylı enerji blokunda 09.04.2019 - 12.06.2019-cu il
4 saylı enerji blokunda 30.07.2019 - 27.10.2019-cu il
2 saylı enerji blokunda 06.09.2019 - 13.12.2019-cu il
1 saylı enerji blokunda 27.09.2019 - 02.02.2020-ci il
3 saylı enerji blokunda 03.01.2020 - 27.03.2020-ci il

tarixlərdə nomenklatur həcmdə əsaslı təmir-bərpa, yenidən-qurma işləri görülüb.

Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 25 iyun 2020-ci il tarixində "Reabilitasiya Proqramı" çərçivəsində "Azərbaycan" İES-in 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 ədəd enerji bloku, Dispetçer İdarəetmə Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra istismara verilib.

- 8 ədəd enerji blokunda təmir-bərpa işləri aparılıb.
- 330 və 500 kV-luq yarımstansiyalar tam yenidən qurulub. Əks-qəza avtomatikası tətbiq edilib. Müasir SCADA sistemi quraşdırılıb. Avtomatlaşdırılmış idarəetmə sistemi və rəqəmsal mühafizə sistemi tətbiq edilib. Dövrələr tam yenidən qurulub, bütün elementlər yenilənib. Şin ayırıcıları, boşaldıcılar,

"Azərbaycan" İstilik Elektrik Stansiyası

torpaqlama konturları, pantoqrafik ayırıcılar, kabel trassaları, işıqlandırma sistemləri yenilənib.

• 500 kV-luq reaktor və 400 MVA gücündə blok transformatoru əsaslı təmir olunub, 63 MVA gücündə T02 transformatoru yenisi ilə əvəz edilib. 40 MVA gücündə ehtiyat xüsusi sərfiyyat transformatoru əsaslı təmir olunub.

• Yeni 3x2500 kVA gücündə 6/0,4 kV-luq transformator məntəqəsi tikilib.

• Soyutma su nasos stansiyası bərpa olunub.

• Yeni inzibati bina, idarəetmə mərkəzi, reagent təsərrüfatı, sənaye sularının təmizlənməsi sistemi, mühafizə hasarı və video müşahidə sistemi yaradılıb.

2018
2020

• 1 və 2 saylı maşın zalları əsaslı təmir olunub və dam örtüyü yenidən qurulub. Hər iki maşın zalında kranaltı yollar (relslər) təmir olunub.

• Yanğından mühafizə stansiyası əsaslı təmir olunub, su kəmərləri yenilənib, mazut təsərrüfatında yeni köpük söndürmə sistemi quraşdırılıb. 2-ci növbə yanğınsöndürmə nasos stansiyası və 6/0,4 kV-luq qapalı paylayıcı qurğu tikilib.

• Yanacaq təsərrüfatı genişləndirilib və 6 ədəd əlavə çən tikilib.

• Kimya sexi tikilib, əks-osmos sutəmizləyici qurğuları və ehtiyat su çənləri quraşdırılıb.

• Azot-oksigen və hava kompressor stansiyaları tikilib.

• 2 ədəd yeni (İtaliya istehsalı olan Model 33 tipli) elektroliz qurğusu quraşdırılıb.

• Mazut təsərrüfatında yeni tikilən 6 ədəd 20.000 m³-luq mazut çəni istifadəyə verilib.

• 1 və 2 saylı qaz paylayıcı məntəqələrinin binaları və texnoloji hissələrində əsaslı təmir işləri aparılıb.

• Stansiyanın metal konstruksiyalarına korroziyaya qarşı örtük çəkilib.

• 330 m hündürlüyü olan 2 ədəd əsas tüstü borularının daxili və xarici səthlərinin müayinəsi, əsaslı təmiri və rənglənməsi işləri aparılıb.

• Kimya sexinin çökdürmə sahəsinin qurulması başa çatıb.

• Rabitə sistemi yenidən qurulub.

• Əks-osmos su təmizləyici qurğuları və ehtiyat su çənləri quraşdırılıb.

• Stansiyanın metal konstruksiyalarına korroziyaya qarşı ikiqat antipast qatı çəkilib.

• Blokların tristor təsirlənmə sistemi yenidən qurulub.

• Bloklarda transformator-generator mühafizə sistemi dəyişdirilib.

• Bloklarda regenerativ hava qızdırıcıları yenilənib.

• Açıq konfiqurasiyalı olan qazan aqreqatlarında istilik itkilərinin azaldılması, küləkdən və yağışdan mühafizəsinin təmin edilməsi məqsədilə qazanlara perimetr üzrə ekranlar qurulub.

• Blokların qüsurlu işçi kürəkləri dəyişdirilib.

• Blokların güc, idarəetmə və nəzarət kabelləri yenilənib.

• Blokların 6/0,4 kV-luq panelləri dəyişdirilib.

• Turbin və generatorların bandaj və labirint kipləmləri dəyişdirilib.

• Bloklarda generator mühafizə panelləri üçün akkumulyator batareyaları quraşdırılıb.

HEYDƏR
ƏLİYEV

• Yağ təsərrüfatı və mexaniki emal sahələri tikilib.

• Ərazidən keçən Yuxarı Qarabağ kanalının giriş və çıxışında əsaslı təmir işləri aparılıb. Kanalın yamacları və dib hissəsi beton örtüklərlə bərpa olunub, dövran su xətlərinin altındakı dayaqlar əsaslı təmir edilib, kanal yamacları sulfata davamlı beton örtüklə örtülüb.

• Qəzalı vəziyyətdə olan transformator təmiri sexi, qazan bölməsində 1 saylı körpülü kran, 9-cu qazan qurğusu, onların tikinti, metal və boru konstruksiyaları sökülüb.

• 7 ədəd yeni sərnişin və yük liftləri (İstanbul asansor Ltd.) quraşdırılıb.

• Helikopter meydançası və idman sağlamlıq kompleksi tikilib istifadəyə verilib.

• Yuxarı Qarabağ kanalının üzərində eni 8 m, uzunluğu 60 metr olan yeni körpü tikilərək istifadəyə verilib. Elektrik stansiyasına gələn uzunluğu 900 m, eni 8 metr olan iki zolaqlı avtomobil yolu və avtomobil yolunun hər iki tərəfində piyadalar üçün səki inşa edilib.

• Stansiyanın ərazisində yerləşən yeraltı sığınacaqda təmir işləri aparılıb.

• 6 kV-luq xüsusi sərfiyyat paylayıcı qurğuları və onların kommutasiya aparatları yenidən qurulub.

• Yeni içməli su şəbəkəsi qurulub.

• Qapalı anbar binası tikilib, açıq anbar əsaslı təmir edilib.

• Stansiyadaxili yollara asfalt örtüyü salınıb, qazon, ağac və gül kolları əkilib.

• Ulu öndər Heydər Əliyevin heykəl kompleksi tikilib.

• 1941-1945-ci illər Böyük Vətən müharibəsi və Şəhidlər Abidəsi tikilib.

• 120 hektar ərazidə abadlıq işləri aparılıb.

Yenidənqurmadan sonra görülən işlər nəticəsində stansiya üzrə 580 MVt "itirilmiş" güc bərpa olunub. Belə ki,

• 6 saylı enerji blokunda - 80 MVt;
• 5 saylı enerji blokunda - 80 MVt;
• 8 saylı enerji blokunda - 60 MVt;
• 4 saylı enerji blokunda - 60 MVt;
• 2 saylı enerji blokunda - 60 MVt;
• 1 saylı enerji blokunda - 90 MVt;
• 7 saylı enerji blokunda - 90 MVt;
• 3 saylı enerji blokunda - 60 MVt təşkil edib.

HEYDƏR
ƏLİYEV

780 MVt gücündə "Cənub" ES üzrə:

- 2 saylı qaz turbini əsaslı təmir edilib.
- Qaz kompressorlarında qüsurlar aradan qaldırılıb.
- Stansiyanın idarəetmə proqram təminatı yenilənib.
- Hacıqabul rayonunda yerləşən qaz paylayıcı stansiyadan "Cənub" ES-ə 25 km məsafədən yeni yüksək təzyiqli qaz kəməri çəkilib.
- "General Electric" şirkəti ilə 10 illik servis müqaviləsi bağlanıb.
- 220 MVA gücündə avtotransformator əsaslı təmir edilib.
- Qazanın küləkdən mühafizəsinin qurulması başa çatıb.
- Stansiyanın soyutma sisteminin yenidən qurulması üçün Kür çayının içində dambanın tikinti işləri başa çatıb.

Görülən işlər nəticəsində stansiya üzrə 200 MVt "itirilmiş" güc bərpa olunub.

Cenub

"Sumqayıt" Elektrik Stansiyası,
3 sentyabr 2021-ci il

525 MVt gücündə "Sumqayıt" ES üzrə:

• Almaniyanın "Siemens" şirkəti ilə əsas energetika avadanlıqlarının texniki xidmət və təmiri üzrə 10 il müddəti üçün servis müqaviləsi bağlanıb.

• Qaz turbinlərinin inspeksiyası aparılıb, buxar turbinin 1-ci yastığında qüsurlar aradan qaldırılıb.

• Buxar və qaz turbinlərinin təftişi aparılıb.

• Mövcud soyuducu su sistemləri və nasosların əsaslı təmiri aparılıb. Xəzər dənizində suyun səviyyəsinin düşməsi ilə əlaqədar yaranan kritik vəziyyətin "Sumqayıt" ES-in fəaliyyətinə təsirinin aradan qaldırılması layihəsi ilə əlaqədar dənizdə 750 m məsafədə yeni estakadanın tikintisi yekunlaşdırılıb.

• "Siemens" şirkətinin mütəxəssisləri tərəfindən buxar və qaz turbinlərində əsaslı təmir və texniki xidmət işləri aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 30 MVt "itirilmiş" güc bərpa olunub.

400 MVt gücündə "Şimal-1" ES üzrə:

• "Şimal-1" və "Şimal-2" ES-lərin mərkəzi idarəetmə şiti tam yenilənib və yeni idarəetmə mərkəzinin binası tikilib.
• Qaz turbininin zədələnən rotoru təmir olunan rotorla əvəz edilib.
• Enerji blokunda təmir-bərpa işləri aparılıb.
• Generatorun təsirlənmə sistemində olan qüsur aradan qaldırılıb.
• 1600 KVA gücündə qəza dizel generatoru quraşdırılıb.
• "Mitsubishi" şirkəti ilə 12 illik servis müqaviləsi bağlanılıb.
• Xüsusi təyinatlı lilsovuran gəmi alınıb.
• Sutullayıcı kanal üzərində 300 kV gücündə hidroaqreqat quraşdırılıb.
• 400 MVt-lıq blokda qəza-bərpa işləri aparılıb.
• 2 ədəd azot istehsalı qurğusu quraşdırılıb.
• İstilik mübadiləetdiriciləri dəyişdirilib.
• "Şimal-1" və "Şimal-2" ES-lər üçün əlavə 1 ədəd elektroliz qurğusu quraşdırılıb.

• Qaz turbininin kompressoru üçün hava süzgəcləri alınıb və əvəz edilib.

• "Şimal-1" ES -də enerji blokunun əsaslı təmiri aparılıb.

• Qaz turbininin köhnə rotoru çıxarılaraq yerinə yenisi qoyulub.

• Blokun idarəetmə sistemində aparat və proqram təminatları yenilənib.

• Sahil nasosxanasındakı nasosların və fırlanan torların dəyişdirilməsi, qazanların daxili izolyasiya örtüyünün yenilənməsi həyata keçirilib.

• Generatorun təsirlənmə sistemi birkanallı sistemdən yeni nəsil ikikanallı təsirlənmə qurğusu ilə əvəzlənib.

• "Şimal-2" Elektrik Stansiyasının işləmə saatına uyğun olaraq yanma kameralarının təftişi aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 30 MVt "itirilmiş" güc bərpa olunub.

"Bakı" İstilik Elektrik Mərkəzi

107 MVt gücündə "Bakı" İEM üzrə:

- 2 saylı Qaz-Turbin qurğusunda "C" təftişi işləri aparılıb.
- 1 və 3 saylı şəbəkə nasosları dəyişdirilib.
- 2 və 4 saylı şəbəkə nasosları üçün nasoslar alınıb.
- Su qızdırıcılar (boylerlər) təmir edilib.
- Hava süzgəci dəyişdirilib.
- Qapalı kontur istilik dəyişdiricisinin dəniz suyu süzgəcləri təftiş və təmir olunub.
- İstilik mübadiləetdiricilər təmir edilib.
- QTQ-1 də "B" təftişi aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 18 MVt "itirilmiş" güc bərpa olunub.

104 MVt gücündə "Bakı" ES üzrə:

"Reabilitasiya Proqramı" ilə əlaqədar stansiyann bütün aqreqatlarında əsaslı təmir işləri - 32000 saatlıq texniki qulluq işləri aparılıb:

• Stansiyanın təmiri üçün tələb olunan orijinal ehtiyat hissələrinin alınması üçün Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanıb və avadanlıqlar alınıb.

• 12 saylı mühərrik əsaslı təmir edilib.

• 1, 2, 3, 4, 7, 8 və 11 saylı mühərriklərdə inspeksiya işləri həyata keçirilib.

• 110 kV-luq 3-cü və 4-cü "8-ci km" EVX-lərinin bir hissəsinin en kəsiyi daha böyük olan naqillərlə əvəz edilib və xətlərin yükburaxma qabiliyyəti artırılıb.

• Eleqaz açarları və inteqalları alınıb.

• 6 və 9 saylı mühərriklərdə inspeksiya həyata keçirilib.

• Reqlament üzrə aqreqatlarda təmir və texniki xidmət işləri aparılıb.

• Ehtiyat hissələrinin təchizatı işləri həyata keçirilib.

Görülən işlər nəticəsində stansiya üzrə 18 MVt "itirilmiş" güc bərpa olunub.

"Bakı" Elektrik Stansiyası

"Səngəçal" Elektrik Stansiyası,

300 MVt gücündə "Səngəçal" ES üzrə:

"Reabilitasiya Proqramı"nın yerinə yetirilməsi ilə əlaqədar 18 aqreqatda əsaslı təmir işləri aparılıb. 2 ədəd aqreqatda əsas qaz klapanları dəyişdirilib, yanma sistemləri tənzimlənib. Bütün işləyən aqreqatların WECS tənzim proqramında müvafiq düzəlişlər (kalibrovka) edilib.

• Stansiyanın təmiri üçün tələb olunan orijinal ehtiyat hissələrinin alınması məqsədilə Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanılıb və avadanlıqlar alınıb.

• Zədələnmiş 6, 9, 11 və 15 saylı mühərriklər əsaslı təmir edilib.

• 11 saylı mühərrik demontaj olunaraq yenisi ilə əvəz edilib.

• 8 ədəd mühərrikdə 24 min saatlıq texniki xidmət işləri aparılıb.

• Mühərriklərin proqram təminatları yenilənib, generatorların stator dolaqları sınaq olunaraq rotor və təsirlənmə dövrələri təftiş olunub.

• 1 və 18 saylı mühərriklərdə 24 min saatlıq texniki xidmət işləri yerinə yetirilib.

• 12 saylı mühərrikin dirsəkli valında və blokunda yaranmış nasazlıqlar aradan qaldırılıb.

• 4,5 və 10 saylı mühərriklərdə təmir-bərpa işləri aparılıb.

• Stansiyanın ərazisində təmir bərpa və abadlıq işləri görülüb.

• Ehtiyat hissələrinin təchizatı başa çatıb.

• Mühafizə və videomüşahidə sistemi qurulub.

Görülən işlər nəticəsində stansiya üzrə 103 MVt "itirilmiş" güc bərpa olunub.

104 MVt gücündə "Şahdağ" ES üzrə:

"Reabilitasiya Proqramı" ilə əlaqədar stansiyanın aqreqatlarında işləmə saatlarına uyğun texniki qulluq işləri aparılıb. Ehtiyat hissələri ilə stansiya tam təmin olunub.

• Stansiyanın təmiri üçün tələb olunan orijinal ehtiyat hissələrinin alınması üçün Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanıb və avadanlıqlar alınıb.

• 1 saylı mühərrikdə əsaslı təmir işləri aparılıb.

• 4 ədəd mühərrikdə 24 min saatlıq texniki xidmət işləri həyata keçirilib.

• 5 ədəd mühərrikdə 24 min saatlıq texniki xidmət işləri aparılıb.

• 2 ədəd mühərrikdə 32 min saatlıq texniki xidmət işləri həyata keçirilib.

• Ehtiyat hissələri alınıb.

• 3, 6, 8 və 10 saylı aqreqatlar (32000 saat) əsaslı təmir olunub.

• TCA902 saylı idarəetmə kompressorunda texniki qulluq işləri aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 15 MVt "itirilmiş" güc bərpa olunub.

"Astara" Elektrik Stansiyası

87 MVt gücündə "Astara" ES üzrə:

"Reabilitasiya Proqramı" ilə əlaqədar stansiyanın bütün aqreqatlarında (32000, 48000 saatlıq texniki qulluq işləri, 16 saylı aqreqatda 16000 saatlıq texniki qulluq işləri) əsaslı təmir işləri aparılıb.

- Stansiyanın təmiri üçün tələb olunan orijinal ehtiyat hissələrinin alınması üçün Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanıb və avadanlıqlar alınıb.
- 3 ədəd mühərrik bərpa edilib.
- 4 ədəd mühərrikdə 48 min saatlıq texniki xidmət işləri aparılıb.
- "WECS" idarəetmə proqramı təmirdən sonra yenilənib.
- Eleqaz açarları və inteqallar alınıb.
- Generatorlarda əsaslı təmir işləri aparılıb.
- Ehtiyat hissələri alınıb.
- Binaların və ərazinin əsaslı təmiri və abadlaşdırılması aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 39 MVt "itirilmiş" güc bərpa olunub.

87 MVt gücündə "Şəki" ES üzrə:

"Reabilitasiya Proqramı" ilə əlaqədar 2019-cu il ərzində stansiyanın bütün aqreqatlarında əsaslı təmir işləri (48000 saatlıq texniki qulluq), 6 saylı aqreqatda təmir-bərpa işləri aparılıb. Stansiya ehtiyat hissələri ilə tam təmin olunub. WECS-də tənzimləmə işləri aparılıb.

- Stansiyanın təmiri məqsədilə tələb olunan orijinal ehtiyat hissələrinin alınması üçün Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanıb və avadanlıqlar alınıb.
- 2 ədəd mühərrik bərpa edilib.
- 9 ədəd mühərrikdə 48 min saatlıq texniki xidmət işləri aparılıb.
- "WECS" idarəetmə proqramı təmirdən sonra yenilənib.
- Eleqaz açarları, inteqallar və ehtiyat hissələri alınıb.
- 2 ədəd mühərrikdə təmir işləri başa çatıb.

Görülən işlər nəticəsində stansiya üzrə 38 MVt "itirilmiş" güc bərpa olunub.

"Şəki" Elektrik Stansiyası

"Xaçmaz" Elektrik Stansiyası

87 MVt gücündə "Xaçmaz" ES üzrə:

"Reabilitasiya Proqramı" ilə əlaqədar 2019-cu il ərzində stansiyanın bütün aqreqatlarında əsaslı təmir işləri (48000 saatlıq texniki qulluq) aparılıb. Stansiya ehtiyat hissələri ilə tam təmin olunub.

- Stansiyanın təmiri üçün tələb olunan orijinal ehtiyat hissələrinin alınması üçün Finlandiyanın "Wartsila" şirkəti ilə müqavilə bağlanıb və avadanlıqlar alınıb.
- 1 ədəd mühərrik bərpa edilib.
- 5 ədəd mühərrikdə 48 min saatlıq texniki xidmət işləri aparılıb.
- "WECS" idarəetmə proqramı təmirdən sonra yenilənib.
- Eleqaz açarları və inteqallar alınıb.
- 4 ədəd mühərrikdə təmir aparılıb.
- Ehtiyat hissələri alınıb.

Görülən işlər nəticəsində stansiya üzrə 47 MVt "itirilmiş" güc bərpa olunub.

424 MVt gücündə "Mingəçevir" SES üzrə:

• 110/220/330 kV-luq APQ tam yenidən qurulub və işə qoşulub.
• 2, 4, 5 və 6 saylı hidroaqreqatların idarəetmə və mühafizə sistemləri yeni idarəetmə binasına keçirilib.
• 2 MVA gücündə 220/110 kV-luq 3 saylı avtotransformator istismara verilib.
• 6 saylı hidroaqreqatın generatorunun zədələnmiş valı Rusiyada təmir edilib və quraşdırılıb.
• 6 saylı hidroaqreqatda qəza-bərpa işləri aparılıb və yeni idarəetmə sisteminə keçirilib.
• Stansiya SCADA sisteminə qoşulub.
• 1-6 saylı aqreqatlar üzrə aktiv gücün avtomatik tənzimləmə qurğuları (QRAM) istismara verilib.
• Sürət tənzimləyiciləri yenilənib.
• Bina və qurğularda cari təmir işləri başa çatıb.
• 1-6 saylı hidroaqreqatların təsirlənmə sistemi, idarəetmə avadanlıqları və mühafizə qurğuları dəyişdirilərək yeni idarəetmə siste-minə keçirilib.
• 4 saylı hidroaqreqatların 5300 mm diametrində disk bağlayıcısı əvəz edilib.
• Mühafizə və idarəetmə sistemi yenilənib.
• 2 hidroaqreqatın 5300 mm diametrində disk bağlayıcısı əvəz edilib.
• Bəndin yamacında təmir işləri aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 70 MVt "itirilmiş" güc bərpa olunub.

"Mingəçevir"
Su Elektrik Stansiyası

YK

380 MVt gücündə "Şəmkir" SES üzrə:

• 2 saylı hidroaqreqat əsaslı təmir edilib.
• 330 kV-luq 250 MVA gücündə blok transformatoru əsaslı təmir edilib.
• Qəza sutullayıcısında su sızmalarının qarşısı alınıb.
• Xüsusi sərfiyyat sxemində 6/0,4 kV-luq yağ açarları eleqaz açarları ilə əvəz edilib.
• İstismara yararsız və fəaliyyətsiz qalan 190 MVt gücündə hidroaqreqatın fəaliyyəti tam bərpa edilib.
• Qəza sutullayıcısının çıxış başlığı və 3 kanalı əsaslı təmir edilib.
• Bəndin möhkəmləndirilməsi üçün sutullayıcı qurğunun orta suaşırımında 88 ədəd quyu qazılaraq 170 ton tomponaj sementi

vurulub və təmir işləri başa çatdırılıb.

• Sutullayıcı qurğunun çıxış başlığından başlayaraq suaparıcı kanalın dib zonasının, sağ və sol istinad divarının alt hissəsinin, sudöyən quyunun və susöndürücülərin təmiri aparılıb.

Görülən işlər nəticəsində stansiya üzrə 160 MVt "itirilmiş" güc bərpa olunub.

FÜZULİ SES

ELEKTRİK ENERJİSİNİN
İSTEHSALI

ELEKTRİK ENERJİSİNİN ARTAN TEMP ÜZRƏ İSTEHSALI

Ölkənin elektrik enerjisinə olan tələbatının vaxtında və keyfiyyətli ödənilməsi məqsədilə elektrik enerjisinin istehsalının artırılması daim diqqət mərkəzində olub. Belə ki, 2003-2021-ci illər ərzində istismarda olan stansiyalarda təmir-bərpa işlərinin vaxtında və planlaşdırılmış qaydada aparılması, artım tempinə uyğun olaraq yeni generasiya güclərinin yaradılması (2003-cü ildən bəri 2885 MVt gücündə ("Cənub", "Sumqayıt", "Şimal-2", "Səngəçal", "Bakı", "Şahdağ", "Astara", "Şəki", "Xaçmaz", "Lerik", "Qobu" elektrik stansıyaları tikilərək istismara verilib) Azərbaycan enerji sisteminin sürətli inkişafından xəbər verir.

2018-ci ildən başlayaraq "Reabilitasiya Proqramı" çərçivəsində "Azərbaycan İES" MMC-də 8 enerji blokunun hər birində əsaslı təmir işləri aparılıb, "itirilmiş" güclər bərpa edilib, stansiyanın gücü nominal parametrlərdə 2400 MVt-a çatdırılıb. 300 kV-luq və 500 kV-luq açar tipli yarımstansiyalar tam yenidən qurulmaqla həm stansiyanın, həm də bütövlükdə enerji-sistemin dayanıqlığı artırılıb. "Şimal-2" Elektrik Stan-siyasının işə qoşulması enerji sistemin güc ehtiyatını 409 MVt artırıb və bu gün sistemin əsas yük daşıyıcılarından birinə çevrilərək müvəffəqiyyətlə istismar edilir.

"Cənub ES" MMC-də görülən işlər sayəsində stansiyanın istismar gücü 780 MVt-a çatdırılıb. Stansiyaya uzunluğu 22 km olan yüksəktəzyiqli yeni qaz kəmərinin çəkilməsi, 11 MVt güc tələb edən kompressorların istismardan çıxarılması ilə, elektrik enerjisinin istehsalına elektrik enerjisinin xüsusi sərfini 50% azaldılıb və stansiyanın texniki iqtisadi göstəriciləri xeyli yaxşılaşdırılıb.

Xəzər dənizinin səviyyəsinin ilbəil aşağı düşməsi ilə əlaqədar "Sumqayıt" ES-in soyuducu su təchizatında əmələ gəlmiş çətinliklər aradan qaldırılıb (uzunluğu 750 m olan estakada inşa edilərək, dənizin daha dərin yerindən temperaturu az olan təmiz su vurmaq üçün ikinci nasos stansiyası tikilib istismara verilib) və hal-hazırda müvəffəqiyyətlə istismar olunur. Məqsədyönlü şəkildə bütün stansiyalarda görülən bu cür işlər sayəsində enerjisistem üzrə elektrik enerjisinin istehsalı 2003-cü ilə nisbətən (18,5%) artaraq, 2020-ci ildə 22142.5 mln.kVts-a çatdırılıb. Görülən tədbirlər nəticəsində enerjisistemin texniki iqtisadi göstəriciləri xeyli yaxşılaşdırılıb, şindən buraxılan hər kVts elektrik enerjisinin buraxılışına sərf olunan şərti yanacağın xüsusi sərfinin, cədvəldən göründüyü kimi, illər üzrə şərti yanacağın sərfinin fərqi azalaraq 263.8 qr/kVts həddinə çatdırılıb.



2003-2021-Cİ İLLƏR ÜZRƏ
ELEKTRİK ENERJİSİNİN İSTEHSALI (İES VƏ SES) VƏ ŞƏRTİ YANACAĞIN XÜSUSİ SƏRFİ

İllər	Elektrik enerjisinin istehsalı		Elektrik enerjisinin buraxılışına şərti yanacağın xüsusi sərfi
	İES	SES	
2003	18680,7	2469,6	386,18
2004	18589,3	2755,5	385,888
2005	19340,4	3007,8	378,8
2006	21150,4	2409,5	367,802
2007	18730,7	2258,8	353,43
2008	18575,3	2147,4	347,42
2009	15905,6	2190,2	329,01
2010	14594,2	3293,8	318,7
2011	16752,7	2482,2	313,98
2012	18955,5	1665,5	314,24
2013	19520,6	1266,2	244,83
2014	20963,7	1155,4	293,76
2015	20618,0	1455,7	291,96
2016	20490,6	1731,6	285,91
2017	20209,5	1563,1	296,29
2018	20918,6	1602,1	279,83
2019	22045,2	1343,4	271,15
2020	22142,5	891,3	263,8

ŞİNDƏN BURAXILMIŞ 1 KVTS ELEKTRİK ENERJİSİNƏ VƏ 1 QKAL İSTİLİK ENERJİSİNİN BURAXILIŞINA SƏRF EDİLƏN ŞƏRTİ YANACAQ MİQDARI



TÜRKİYƏ

ELEKTRİK ENERJİSİNİN İSTEHSALI (İES VƏ SES)

ELEKTRİK ENERJİSİNİN İSTEHSALINA SƏRF EDİLMİŞ YANACAQ MİQDARI



AZƏRBAYCAN ENERJİSİSTEMİNİN
2003-2020-Cİ İLLƏR ÜZRƏ TEXNİKİ GÖSTƏRİCİLƏRİ

İl	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011
Qoyulmuş güc, MVt	5643,5	5295,1	5295,1	5624,4	5728,8	5798	5798	6296,9	6296,6
İstehsal, mln.kVts	21150,3	21344,7	22348,1	23784	21415,3	21173,2	18581,4	18428,3	19971,2

İl	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Qoyulmuş güc, MVt	6322,9	7153,2	7179,1	7179,1	7224,2	7225,6	6343	6 453,60	6 453,90
İstehsal, mln.kVts	21344,5	21535,2	22690,4	22524,4	22665,7	22209,8	22952,2	23388,5	23033,8

ELEKTRİK ENERJİSİNİN İSTEHSALININ DİNAMİKASI,
MLRD. KVTS



AzərEnerji

QOBU
ENERJİ QOVŞAĞI

QOBU”
ENERJİ

ENERJİ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ NÖVBƏTİ ADDIM

Prezident İlham Əliyevin tapşırığına əsasən ölkə elektroenergetikasının potensialını artırmaq məqsədi ilə daha bir iri layihənin, 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının inşası bu istiqamətdə həyata keçirilən növbəti uğurlu irimiqyaslı işlərin davamıdır.

1000 meqavat yükötürmə gücü olan 330/220/110 kV-luq "Qobu" yarımstansiyasının əhəmiyyəti ondan ibarətdir ki, hasil olunan elektrik enerjisinin enerjisistemə ötürülməsi, Bakının və Abşeron yarımadasının elektrik enerjisi təchizatında 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasından asılılığın aradan qaldırılması, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatının təmin edilməsi, respublika ərazisində 330 kilovoltluq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün bu yarımstansiya müstəsna rola malikdir. "Qobu" yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, bu, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiyadır və ölkənin ən strateji yarımstansiyası olan 500 kilovoltluq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyır. "Qobu" yarımstansiyasının enerjisistemə inteqrasiyası 2 mərhələdə həyata keçirilir.

Qeyd edək ki, ölkədə enerji təminatının əsaslı şəkildə yaxşılaşdırılması, böyük infrastruktur layihələrin icrası baxımından mühüm işlər görülüb. Lakin elektroenergetika sektorunun daim inkişaf edən sahə olduğunu, əhalinin artım tempini, sənayeləşmə prosesini nəzərə alaraq sonrakı dövrdə generasiya güclərinə tələbatın müəyyənləşdirilməsi və onun vaxtında qarşılanması konkret vəzifə olaraq qarşıya qoyulub. 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının generasiya mənbəyi olaraq yaradılması qarşıya qoyulan mühüm vəzifənin əsas komponentlərindəndir.

Qeyd edək ki, bu stansiya bir sıra qeyri-neft sənayesi obyektlərinin, Ələt qəsəbəsi yaxınlığında yaradılan "Azad İqti-sadi Zona"nın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayır. "Qobu" layihəsinə dünyanın məşhur şirkətləri yüksək rəy verməklə yanaşı, onun tikintisində yaxından iştirak ediblər.

"Qobu" Enerji layihəsi, o cümlədən 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının tikintisi ölkənin enerjisistemində birmənbədən asılılığı aradan qaldırmaq, Bakı şəhərinin,

ümumilikdə Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmağa hesablanan layihədir. Bu layihənin icrası digər sosial məsələdə də əhəmiyyəti ilə seçilir. Belə ki, "Qobu" Elektrik Stansiyası və "Qobu" yarımstansiyasının istifadəyə verilməsi əhalinin məşğulluğunun artırılmasına və 120-dən artıq yeni iş yerlərinin açılmasına töhfə verib.

PREZİDENT İLHAM ƏLİYEVİN 385 MEQAVATLIQ "QOBU" ELEKTRİK STANSİYASI VƏ 330/220/110 KİLOVOLTLUQ "QOBU" ELEKTRİK YARIMSTANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ ÇIXIŞI

-Bu gün ölkəmizin elektroenergetika sahəsində növbəti önəmli addım atılır. "Qobu" Elektrik Stansiyasının təməl daşını qoyduq. Əminəm ki, bu stansiyanın tikintisi uğurla gedəcək və nəzərdə tutulmuş vaxtda – 2022-ci ilin əvvəlində tam istifadəyə veriləcəkdir. Bu, bizim enerji potensialımızın gücləndirilməsi istiqamətində çox önəmli addımdır. Stansiyanın generasiya gücü 385 meqavatdır. Bu, ölkəmizdə tikilən böyük stansiyalar arasında öz yerini tapacaq.

Prezident İlham Əliyev "Qobu" Enerji Layihəsinin təməlqoyma mərasimində, 21 avqust 2020-ci il

Prezident İlham Əliyev "Qobu" Enerji Layihəsinin təməlqoyma mərasimində, 21 avqust 2020-ci il

Bütövlükdə bu stansiyanın çox böyük əhəmiyyəti var. Çünki bu stansiyanın timsalında biz müasir Azərbaycanın ümumi inkişafını görürük. Burada ən müasir texnologiyalar tətbiq ediləcəkdir. Dünyanın aparıcı şirkətləri bizimlə bərabər bu stansiyanın inşasında iştirak edəcəkdir. Eyni zamanda çox güclü beynəlxalq nəzarət olacaq.

Stansiya bütün beynəlxalq ekoloji standartlara tam cavab verir. Ona görə ekoloji baxımdan stansiyanın əhəmiyyəti xüsusi qeyd edilməlidir. Burada şərti yanacağın sərfiyyatı da aşağı səviyyədədir - 260 qram. Energetiklər bilirlər ki, bu, çox müsbət haldır.

Bütövlükdə son illərdə görülmüş işlər nəticəsində enerji sistemində şərti yanacağın sərfiyyatı aşağı düşməkdədir. Eyni zamanda itkilər də azalır. İtkilərin azalmasına gəldikdə, bu stansiyanın əhəmiyyəti ondadır ki, o, Bakı və Abşeron yarımadasının "Mingəçevir" İstilik Elektrik Stansiyasından asılılığını aşağı salacaq və beləliklə, itkilər azalacaq. Çünki "Mingəçevir" İstilik Elektrik Stansiyası Bakıdan 250 kilometr məsafədə yerləşir və əlbəttə ki, enerjinin ötürülməsi istər-istəməz itkilərə gətirib çıxarır. Eyni zamanda bu stansiyanın əhəmiyyəti ondadır ki, mümkün olan qəzaların fəsadları azalacaq. Çünki hamımız yaxşı xatırlayırıq, iki il bundan əvvəl

Prezident İlham Əliyev "Qobu" Enerji Layihəsinin təməlqoyma mərasimində, 21 avqust 2020-ci il

"Mingəçevir" İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində demək olar ki, Bakı şəhəri, Abşeron yarımadası və ölkəmizin böyük hissəsi işıqsız qalmışdı. Ona görə bu stansiyanın məhz Abşeron yarımadasında inşa edilməsi bizi qəzalardan da sığortalayacaq.

Eyni zamanda, bildiyiniz kimi, son vaxtlar bərpa olunan enerji növlərinə Azərbaycanda çox böyük əhəmiyyət verilir. Bu istiqamətdə böyük planlarımız var. Energetiklər yaxşı bilirlər ki, bərpa olunan enerji növlərinin genişmiqyaslı inkişafı ənənəvi enerji növlərinin inkişafı ilə bilavasitə bağlıdır. Ona görə bu stansiya enerji dayanıqlığının təmin edilməsi işində də mühüm rol oynayacaqdır. Bütövlükdə bu stansiyanın enerji sistemimizin təşkilində və gələcək inkişafında çox böyük rolu olacaqdır.

Əlbəttə ki, yeni generasiya güclərinin yaradılması bizim ümumi inkişafımızın təzahürüdür. Çünki enerji sistemimizin müasirləşdirilməsi ölkəmizin ümumi inkişafı ilə uzlaşır və bütün işlər planlı şəkildə aparılır. Bildiyiniz kimi, infrastruktur layihələri arasında elektrik stansiyalarının tikintisi xüsusi yer tutur və deyə bilərəm ki, biz birinci növbədə bu məsələ ilə məşğul olmağa başlamışdıq. Təsadüfi deyil ki, 2004-cü ildə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair birinci

Dövlət Proqramında elektrik stansiyalarının tikintisi xüsusi nəzərə alınmışdır. O vaxtdan bu günə qədər ölkəmizdə 30-dan çox elektrik stansiyası tikilib. Mən onların arasında, əlbəttə ki, böyük stansiyaları xüsusilə qeyd etmək istərdim. Çünki bu stansiyalar tikilməsəydi, bu gün biz öz enerji potensialımızı bu səviyyəyə çatdıra bilməzdik. Yadımdadır, birinci regional inkişaf proqramı qəbul olunandan sonra 525 meqavat gücündə "Sumqayıt" Elektrik Stansiyası tikildi. Ondan sonra digər stansiyalar - təxminən 800 meqavat gücündə "Cənub" stansiyası, 400 meqavata yaxın gücü olan "Şimal-2" Elektrik Stansiyası, generasiya gücü 300 meqavat olan "Səngəçal" Elektrik Stansiyası. Ölkəmizin müxtəlif yerlərində modul tipli beş stansiya tikilmişdir ki, o stansiyaların hər birinin generasiya gücü təxminən 90 meqavatdır.

İndi təsəvvür edin, əgər bunlar tikilməsəydi, bu gün biz yenə də əvvəlki illərdəki kimi, idxaldan asılı vəziyyətdə olacaqdıq və öz enerji təhlükəsizliyimizi təmin edə bilməyəcəkdik. Məhz elektroenergetika sahəsinə göstərilən diqqət və ayrılan dövlət sərmayəsi imkan verdi ki, bu gün biz öz tələbatımızı tam şəkildə ödəyirik. Eyni zamanda bizdə güclü ixrac potensialı yaranmışdır. Daxili tələbatımızın artmasına baxmayaraq, bizim ixrac potensialımız ildən-ilə artır. 2004-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız və o cümlədən sənaye potensialımız üç dəfədən çox artmışdır. Müasir texnologiyaların tətbiqi nəticəsində Azərbaycanda həm generasiya gücləri yaranır, eyni zamanda itkilər də azalmaqdadır.

Bütün bu müsbət nəticələrə baxmayaraq, onu da qeyd etməliyəm ki, əfsuslar olsun, əvvəlki dövrlərdə tikilmiş stansiyaların, o cümlədən bizim və Cənubi Qafqazın ən böyük stansiyası olan "Mingəçevir" İstilik Elektrik Stansiyasının istismarı dövründə böyük və kobud səhvlər buraxılıb. Vaxtında təmir işləri aparılmayıb. Stansiyaların müasirləşdirilməsi ilə əlaqədar heç bir addım atılmamışdır. Sovet dövründə tikilmiş stansiyalar tənəzzülə uğradı və eyni zamanda, 2004-cü ildən bu günə qədər tikilmiş stansiyalarda da generasiya gücləri böyük dərəcədə "itirilmiş"dir. Məhz səhlənkarlıq, məsuliyyətsizlik və kobud səhvlər nəticəsində iki il bundan əvvəl "Mingəçevir" İstilik Elektrik Stansiyasının yarımstansiyasında qəza baş verdi və böyük fəsadlara gətirib çıxardı. Ondan sonra dərhal operativ tədbirlər görülməyə başlanmışdır. "Azərenerji"nin rəhbərliyi dəyişdirildi və mən göstəriş vermişdim ki, bizim bütün enerji sistemimiz ciddi təftiş edilsin. Bu təftiş nəticəsində çox xoşagəlməz mənzərə üzə çıxdı. Qeyd etdiyim kimi, məhz məsul-

iyyətsizlik və laqeydlik nəticəsində enerji sistemimizə çox böyük ziyan dəymişdir. Ancaq operativ tədbirlər, görülmüş işlər və ayrılmış vəsait nəticəsində biz cəmi iki il ərzində bu sahədə çox ciddi irəliləyişə nail ola bilmişik və "itirilmiş" generasiya gücləri bərpa edilmişdir.

Deyə bilərəm ki, 1300 meqavata qədər "itirilmiş" generasiya gücləri son iki il ərzində mövcud stansiyalarda bərpa edilmişdir. Ən böyük işlər "Mingəçevir" İstilik Elektrik Stansiyasında görülmüşdür. Orada 600 meqavat generasiya gücü bərpa edildi. 2400 meqavat gücündə olan və bu gün tam gücü ilə işləyən bu stansiya bizim əsas enerji mənbəyimizdir. Bu stansiyanın ömrü uzadıldı və o, bundan sonra onilliklər ərzində bizə xidmət göstərəcək.

"Cənub" Elektrik Stansiyasının təmiri nəticəsində orada 200 meqavat modul tipli stansiyalarda 200 meqavatdan çox, "Mingəçevir" və "Şəmkir" su elektrik stansiyalarında isə 230 MVt generasiya gücü bərpa edildi. Digər stansiyalarda da işlər aparıldı və bütövlükdə iki il ərzində biz 1300 meqavat "itirilmiş" gücləri bərpa etdik. Hesab edirəm ki, bu, çox böyük tarixi hadisədir. 1300 meqavat gücündə yeni stansiyaları tikmək bizə milyardlarla dollara başa gələ bilərdi. Ancaq "Azərenerji" bunları çox məhdud büdcə ilə sahmana saldı və bu gün bu stansiyalara yeni həyat verilmişdir.

Beləliklə, son illərdə bu sahədə görülmüş işlər təqdirəlayiqdir. Bu gün təməl daşını qoyduğumuz "Qobu" Elektrik Stansiyası da bizim ümumi enerji potensialımızı gücləndirəcək, ixrac imkanlarımızı genişləndirəcək və eyni zamanda, bundan sonra daxili tələbatı təmin edəcək. Çünki tələbat artır, Azərbaycan əhalisi artır. Müstəqillik dövründə Azərbaycan əhalisi 8 milyondan 10 milyona qalxmışdır və bu meyillər davam edəcək. Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir, hər il əhalimiz artır. Bu, ölkəmizdə görülən işləri əks etdirir. Çünki insanların yaşayış səviyyəsi yaxşılaşır. Ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq demoqrafik vəziyyətə bilavasitə təsir edən amillərdəndir.

Eyni zamanda, sənaye istehsalı da artmaqdadır. Hətta bu il qeyri-neft sektorunda sənaye artır. Deyə bilərəm ki, pandemiyanın demək olar bütün ölkələrin iqtisadiyyatına mənfi təsir göstərməsinə baxmayaraq və hətta bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10-15-20 faiz səviyyəsindədir, Azərbaycanda bu ilin 7 ayında iqtisadi vəziyyət hesab edirəm, qənaətbəxşdir, iqtisadiyyat cəmi 2,8 faiz azalıbdır. Ancaq bunu da nəzərə almalıyıq ki, neftin qiyməti düşüb və bu, bizim

"Qobu" Elektrik Stansiyası

iqtisadi inkişafımıza mənfi təsir göstərir. Eyni zamanda, OPEC+ razılaşması nəticəsində hasilatımız da bir qədər azalıb. Ancaq sənaye sahəsində, o cümlədən qeyri-neft sənayesi sahəsində artım var və bu artım bu ilin 7 ayında 13 faizdir. Bax, budur, bugünkü Azərbaycan reallıqları. Bu, bir daha onu deməyə əsas verir ki, bundan sonra da elektrik stansiyalarının tikintisi və mövcud stansiyaların istismar müddətinin uzadılması istiqamətində əlavə addımlar atılmalıdır. Biz öz enerji potensialımızdan maksimum istifadə edirik və etməliyik.

Sevindirici hal ondan ibarətdir ki, bu gün dünyanın ən böyük enerji şirkətləri Azərbaycanda bərpa olunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İlin

əvvəlində iki böyük beynəlxalq şirkətlə 440 MVt generasiya gücü olan günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümid edirəm ki, ilin sonuna qədər bütün sənədlərin imzalanması başa çatacaq və stansiyaların tikintisinə start veriləcək. Azərbaycanda 440 MVt gücündə bərpa olunan enerji növlərinin yaradılması, özü də Azərbaycan dövləti tərəfindən bir manat vəsait qoyulmadan reallaşdırılması bizə olan inamın təzahürüdür, həmçinin Azərbaycanın sabit gələcəyinə, inkişafına olan inamın təzahürüdür. Onu da bildirməliyəm ki, hazırda bizim Energetika Nazirliyi dünyanın bir neçə ən böyük enerji şirkəti ilə danışıqlar aparır. Biz bu şirkətlərlə bərpa olunan yeni günəş və külək elektrik stansiyalarının tikintisi ilə əlaqədar danışıqları apararkən hesab edirik ki, istədiyimizə nail olacağıq və xarici investisiyalar bu sahəyə daha böyük həcmdə gələcəkdir.

Eyni zamanda, yerli və xarici şirkətlərə bildirmək istərdim ki, biz ənənəvi enerji növlərinin istehsalı ilə əlaqədar işlərimizi davam etdirmək əzmindəyik. Biz xarici və yerli investorları istilik elektrik stansiyalarının tikintisinə dəvət edirik. O cümlədən onları su elektrik stansiyalarının və digər bərpa olunan enerji stansiyalarının tikintisinə cəlb etmək istəyirik. Əgər belə maraq olarsa, hesab edirəm ki, qısa müddət ərzində bu məsələ öz həllini tapa bilər. Çünki bu gün Azərbaycanda investisiya

"Qobu" Elektrik Stansiyası

"Qobu" Elektrik Stansiyası

qoyuluşu sahəsində çox böyük işlər görülür, Azərbaycanda biznes mühiti yaxşılaşır. "Doing Business" proqramında biz tarixi nailiyyətlərə çata bilmişik. Dünya Bankı tərəfindən hazırlanan bu reytinq cədvəlində Azərbaycan artıq qabaqcıl yerlərdədir. Eyni zamanda, biz dayanıqlı inkişaf baxımından çox böyük irəliləyişə nail ola bilmişik. BMT-nin Dayanıqlı İnkişaf İndeksinə görə, biz ildən-ilə mövqeyimizi yaxşılaşdırırıq. Ona görə Azərbaycan bu gün xarici sərmayələr üçün çox cəlbedici ölkə olaraq qalır və bu sahə-elektroenergetika sahəsi hesab edirəm ki, çox böyük maraq doğurur və artıq həyat bunu təsdiqləyir.

Bir sözlə, bu gün tam əminliklə deyə bilərəm ki, ölkəmizin elektroenergetika sahəsi öz sürətli inkişaf dövrünü yaşayır və bu, bizim inkişafımızın əsas şərtidir. Çünki hər bir ölkənin iqtisadiyyatı üçün elektroenergetika sahəsi başlıca rol oynayır. Bu sahə inkişaf etməsə, heç bir başqa sahə inkişaf edə bilməz. Ona görə kompleks tədbirlər nəticəsində elektrik stansiyalarının inşası, xarici investorların Azərbaycana gəlişi, yarımstansiyalarda aparılan təmir-bərpa işləri və yeni yarımstansiyaların tikintisi, ötürücü xətlərin təmiri və yeni xətlərin çəkilişi, qonşu ölkələrlə yüksəkgərginlikli elektrik xətlərinin tikintisi və artıq regional əməkdaşlıq üçün zəminin yaradılması da çox önəmlidir. Biz Türkiyə, Gürcüstan, Rusiya

və İranla bu sahədə çox uğurlu əməkdaşlıq edirik. Yaradılmış enerji dəhlizləri ilə artıq öz elektrik enerjimizi ixrac edə bilirik.

Əlbəttə, əvvəlki illərin mənzərəsi yada düşəndə bir daha görürük ki, bu sahədə tarixi işlər görülüb. Çünki vaxtilə biz idxaldan tam asılı idik. Bizim yeganə generasiya mənbəyimiz olan "Mingəçevir" İstilik Elektrik Stansiyası çox bərbad vəziy-yətdə idi. Ona görə bu sahə inkişaf etmədən heç bir inkişafdan söhbət gedə bilməzdi və biz buna nail ola bilmişik.

Onu da bildirməliyəm ki, bu sahədə görülmüş işlər beynəlxalq qurumlar tərəfindən də qiymətləndirilir. Təkcə bir rəqəmi deyə bilərəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan elektrik enerjisinin əlçatanlıq indeksinə görə

dünyada ikinci yerdədir. Təkcə bunu demək kifayətdir ki, biz bu sahədə əldə edilmiş bütün uğurları əhatə edək və bu, doğrudan da tarixi nailiyyətdir. Dünya miqyasında ikinci yerdə olmaq özlüyündə böyük tarixi nailiyyətdir, xüsusilə infrastruktur layihələrinin ən vacib olan sahəsində elektro-energetika sahə-sində.

Mən bütün bu uğurlar münasibətilə Azərbaycan energetiklərini təbrik edirəm, onlara yeni uğurlar arzulayıram. Əminəm ki, "Qobu" Elektrik Stansiyası vaxtında - 2022-ci ilin əvvəlində istifadəyə veriləcək və biz bu stansiyanın açılışını qeyd edəcəyik. Sağ olun.

QOBU ENERJİ QOVŞAĞI

“QOBU” YARIMSTANSİYASI VƏ “QOBU” ELEKTRİK STANSİYALARI

2020-ci ildə Cənab Prezident İlham Əliyevin təməlini qoyduğu 385 meqavatlıq “Qobu” Elektrik Stansiyası və 1000 meqavat yükötürmə gücündə olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyası rekord müddətdə - bir il ərzində tikilib. Azərbaycan energetikası tarixində ilk dəfə istilik elektrik stansiyasının layihələndirilməsini xarici institutlar deyil, “Azərenerji” ASC-nin Layihə-

Axtarış Energetika İnstitutu layihələndirib və tikintini də yerli şirkət həyata keçirib. Ən əsası burada tikilən 330 kilovoltluq yarımstansiya Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiyadır. İstər elektrik stansiyasının, istərsə də yarımstansiyanın tikinti prosesi fasiləsiz növbətçilik prinsipi ilə aparılıb. Elektrik Stansiyanın maşın zalları, qaz paylayıcı stansiya, anbar, emalatxana binaları, yarımstansiyanın açıq paylayıcı qurğuları, idarəetmə mərkəzi, mühəndis korpusu və başqa yardımçı binalar eyni anda paralel şəkildə tikilib. Aqreqatların, avdanlıqların, texnika və mal-materialın daşınması, quraşdırılması, tikintisi, yüksəkgərginlikli ötürmə



xətlərinin çəkilməsi kimi mürəkkəb proseslər də sinxron şəkildə aparılıb. Beləliklə, Qobu Enerji qovşağının tikintisi nəzərdə tutulan vaxtdan daha tez müddətdə başa çatıb.

- "Qobu Enerji Qovşağı" ölkədə, xüsusi ilə Bakı və Abşeron yarımadasında elektrik enerjisinə artan tələbatı qarşılamaq,

- Bakı və Abşeron yarımadasının regionlardakı elektrik stansiyalarından asılılığını azaltmaq,

- Elektrik enerjisi ilə təchizatın dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə qaldırmaq,

- Texniki itkiləri azaltmaq,

- Sistem qəzası təhlükəsini minimuma endirmək,

- Bakı və Abşeronda tənzimləyici generasiya gücü funksiyasını üzərinə götürüb, 500 kV-luq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşımaq,

- Bakının 330 kV-luq dairəvi elektrik təchizat sistemini yaratmaq və digər amillərə görə olduqca əhəmiyyətlidir.

1000 meqavat yükötürmə gücündə olan 330/220/110 kV-luq "Qobu" yarımstansiyasında isə ən müasir avadanlıqlar quraşdırılan 330 kilovoltluq açıq paylayıcı qurğu inşa edilib. Eyni zamanda 330 kilovoltluq açıq paylayıcı qurğunun yanında 220 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb və yarımstansiyalar üçün hər birinin gücü 250 meqavolt-amper

olan 4 ədəd avtotransformator quraşdırılıb. 110 kilovoltluq açıq paylayıcı qurğu isə "Qobu" Elektrik Stansiyasının qarşısında tikilib. Yarımstansiya ərazisində müasir mikroprosessor tipli rəqəmsal idarəetmə və mühafizə panelləri ilə təchiz olunmuş yeni nəsil avadanlıqlarla təchiz olunmuş idarəetmə binası tikilib və yarımstansiyada məsafədən idarə olunan mikro-SKADA dispetçer idarəetmə sistemi, əks-qəza avtomatikası sistemi qurulub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq istismara verilən yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırlması, problemlərin tez həlli proqram təminatı vasitəsi ilə avtomatik həyata keçiriləcək.

İdarəetmə Mərkəzi ilə yanaşı Mühəndis yataqxana korpusu inşa edilib, işçi heyəti üçün xidməti otaqlar, onların fasiləsiz əmək fəaliyyətini təmin edən şərait yaradılıb. Yarımstansiyanın ərazisində abadlıq işləri aparılıb, daxili yollar çəkilib.

Ən müasir üslubda tikilən 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasında isə 4 maşın zalı tikilib və ümumilikdə 21 aqreqat quraşdırılıb. Bu aqreqatların hər birinin gücü 18,3 meqavatdır. Burada 7 ədəd güc transformatoru quraşdırılaraq yarımstansiya ilə əlaqələndirilib. İstehsal olunacaq elektrik enerjisinin maşın

zallarından kabellərlə ötürülməsi üçün ümumi uzunluğu 300 metrə yaxın dəmir beton tunel yaradılıb. Stansiyada qaz paylayıcı və təmizləyici stansiyası, çevik təchizat üçün anbar və emalatxana binası inşa olunub.

Burada 1 kilovatsaat elektrik enerjisinin şindən buraxılışına şərti yanacağın sərfiyyatı ölkədə fəaliyyət göstərən digər 6 modul tipli elektrik stansiyalarından daha qənaətlidir.

"Qobu" Enerji Qovşağının enerjisistemə inteqrasiyası üçün Şirvandakı "Cənub" Elektrik Stansiyasına 108 km məsafədə 330 kilovoltluq ötürmə xətti inşa edilib.

Eyni zamanda "Qobu" yarımstansiyasını strateji əhəmiyyətli 330 kV-luq "Yaşma" yarımstansiyası ilə əlaqələndirmək üçün 47 km məsafədə 330 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Bundan əlavə, 220 kV-luq 5-ci "Abşeron", 5-ci "Cənub" və 110 kilovoltluq 3-cü, 4-cü "Puta" hava xətlərinin giriş-çıxış sxemi ilə yarımstansiyaya qoşulması işləri başa çatdırılıb.

Beləliklə, səhralığı xatırladan ərazidə cəmi 1 il ərzində yüksəkgərginlikli ötürmə xətlərinin, 385 meqavatlıq elektrik stansiyasının və 330/220/110 kV-luq yarımstansiyaların bir araya gətirildiyi böyük enerji şəhərciyi salınaraq son illərin ən böyük infrastruktur layihələrindən biri kimi gerçəkləşdirilib.

ELEKTRİK SEXİ

İDARƏETMƏ MƏRKƏZİ
ANBAR
EMALATXANA

ÖLKƏMİZİN ELEKTROENERGETİKA SAHƏSİ ÖZ SÜRƏTLİ İNKİŞAF DÖVRÜNÜ YAŞAYIR




darəetmə
mərkəzi







BƏRPA OLUNAN

ENERJİ MƏNBƏLƏRİ

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir. Qeyd edək ki, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkə olduğundan son dövrlər bu enerji növlərinə çox böyük əhəmiyyət verilir. Çünki bərpa olunan enerji növlərinin genişmiqyaslı inkişafı ənənəvi enerjinin inkişafı ilə bilavasitə bağlıdır.

"Babək-1"
Günəş Elektrik Stansiyası

Günəş və Külək enerjisi

"Babək-1" Günəş Elektrik Stansiyası

Naxçıvan Muxtar Respublikasında alternativ enerji mənbələrindən səmərəli istifadə edilməsi, bölgənin elektrik enerjisinə olan tələbatının ödənilməsi, enerji verilişində dayanıqlığı, keyfiyyəti təmin etmək və əlavə iş yerlərinin açılması məqsədilə 1 dekabr 2015-ci il tarixində Babək rayonunun Xal-Xal kəndi yaxınlığında ümumi qoyuluş gücü 20 MVt olan "Babək-1" Günəş Elektrik Stansiyası tikilərək istismara verilib. Stansiyada Belçika Krallığının "Soltech" şirkətinin 78 min 684 ədəd müasir "şüşə-şüşə" tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb.

"Babək-2" Günəş Elektrik Stansiyası

8 sentyabr 2017-ci il tarixində Babək rayonunda 2 meqavatlıq ikinci günəş elektrik stansiyası tikilərək istismara verilib. İsveçrənin "Pure Energy Development" SARL şirkəti "Babək" GES-in ikinci ərazisində 1,3 meqavat, beşinci ərazisində isə 0,7 meqavat gücündə 7 min 700 ədəd "şüşə-şüşə" tipli günəş panelləri quraşdırıb. Tikinti işləri aparılarkən stansiya ərazisində müvafiq inventarlar, transformatorlar, kommutasiya aparatları, 2 transformator yarımstansiyası quraşdırılıb.

"Kəngərli-1" Günəş Elektrik Stansiyası

Naxçıvan Muxtar Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi, yeni mütəxəssislərin hazırlanması məqsədilə 22 fevral 2019-cu il tarixində Kəngərli rayonunun Qabıllı kəndində ümumi qoyuluş gücü 2 MVt olan günəş elektrik stansiyası tikilərək istismara verilib. Stansiyada 7 min 452 ədəd "şüşə-şüşə" tipli günəş panelləri, hərbirinin gücü 50 kilovat olan 41 invertor, içərisində kommutasiya aparatları və digər elektrik avadanlıqları qoyulmuş 2 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb və idarəetmə binası tikilib.

"Kəngərli-2" Günəş Elektrik Stansiyası

8 iyul 2020-ci il tarixində Kəngərli rayonunda ümumi qoyuluş gücü 3 MVt olan ikinci günəş elektrik stansiyası tikilib istismara verilib. 5 hektar ərazidə yerləşən stansiya hər birinin gücü 320 vatt olan 9 min 416 ədəd "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 61 invertor, müasir tipli kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunub. Burada 3 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası, 1 ədəd 35 kilovoltluq qapalı paylayıcı yarım-stansiya quraşdırılıb.

"Yeni Yaşma" Külək Elektrik Parkı

Alternativ və bərpa olunan enerji mənbələrinin inkişafının stimullaşdırılması, elektrik enerjisinin istehsalında yanacağa

"Kəngərli-2"
Günəş Elektrik Stansiyası

"Yeni Yaşma" Külək Elektrik Parkı, 11 oktyabr 2018-ci il

qənaət edilməsi məqsədilə 11 oktyabr 2018-ci il tarixində Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisində ümumi gücü 50 MVt olan "Yeni Yaşma" Külək Elektrik Parkı yenidən qurularaq istismara verilib. Yenidənqurma işlərini Almaniyanın "Berlin Wind" şirkəti aparıb. Stansiyada hər birinin gücü 2,5 MVt olan 20 ədəd külək turbini istismar edilir. "Yeni Yaşma" Külək Elektrik Parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır.

Müstəqil elektrik stansiyaları

"Qobustan" Hibrid Elektrik Stansiyası

Bakının Qobustan rayonunda əhalinin və sosial obyekt-lərin yerli alternativ və bərpa olunan enerji mənbələri he-sabına enerji ilə təminatı, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsi məqsədilə 13 sentyabr 2011-ci il tarixində ümumi gücü 5,6 MVt olan külək, günəş və bioqaz stansiyalarını

"Yeni Yaşma"
Külək Elektrik Parkı

özündə birləşdirən "Qobustan" hibrid elektrik stansiyası tikilib istismara verilib. Stansiyada hər birinin gücü 0,9 meqavata çatan 3 külək turbini, 1,8 meqavat gücündə günəş elektrik stansiyası və 1 meqavat gücündə bioenerji qurğusu quraşdırılıb.

Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu

Bakı və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması, alternativ və bərpa olunan enerji mənbələrinin inkişafının stimullaşdırılması, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsi məqsədilə 19 dekabr 2012-ci il tarixində Bakı şəhərinin Balaxanı zibil poliqonu ərazisində ümumi gücü 37 MVt olan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu tikilib istismara verilib. Zavod Fransanın "Cnim" şirkəti tərəfindən inşa edilib. Stansiyanın illik emal gücü 500 min ton məişət tullantısı və 10 min ton tibbi tullantı təşkil edir. Zavod iki xətdən və elektrik enerjisi istehsal edən turbindən ibarətdir. Tullantıların yandırılması prosesi nəticəsində alternativ enerji kimi əldə ediləcək elektrik enerjisinin miqdarı

ildə 231,5 milyon kilovat-saat olacaqdır. Zavodun fəaliyyəti nəticəsində illik 60 milyon kubmetrdən artıq təbii qaz həcmində enerjiyə qənaət ediləcək. Əldə edilən elektrik enerjisi 100 min evin elektrik enerjisi ilə təmin olunmasına imkan yaradacaq. Bərk məişət tullantılarının yandırılması zavodu istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisədir.

"Suraxanı" Günəş Elektrik Stansiyası

Suraxanı rayonunda əhalinin və sosial obyektlərin alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji ilə təminatı, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsi məqsədilə 16 iyul 2014-cü il tarixində ümumi gücü 2,8 MVt olan "Suraxanı" Günəş Elektrik Stansiyası tikilib istismara verilib. Stansiyada 8 min ədəd günəş paneli quraşdırılıb.

"Pirallahı" Günəş Elektrik Stansiyası

Bakının Pirallahı rayonunda alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsi məqsədilə 21 iyul 2017-ci il tarixində ümumi qoyuluş gücü 1,2 MVt olan "Pirallahı" Günəş Elektrik Stansiyası tikilib istismara verilib. Stansiyada 4 min günəş paneli quraşdırılıb.

"Pirallahı"
Günəş Elektrik Stansiyası

110/35/10 kV-lıq
"FÜZULİ"
YARIMSTANSİYASI

ELEKTRİK ENERJİSİNİN
ÖTÜRÜLMƏSİ

ELEKTRİK VERİLİŞİ XƏTLƏRİ VƏ YARIMSTANSİYALAR

Elektrik enerjisinin ötürülməsində fasiləsizliyin və dayanıqlılığın təmin edilməsi enerjisistemin səmərəli fəaliyyəti üçün mühüm şərtdir. Enerjiötürücü infrastrukturun - yarımstansiyaların və yüksəkgərginlikli elektrik verilişi xətlərini inşası, yenidən qurulması, modernləşdirilməsi və təkmilləşdirilməsi sahəsində son illərdə ardıcıl olaraq məqsədyönlü tədbirlər həyata keçirilib.

2002-2021-ci illər ərzində 1 ədəd 500 kV-luq, 5 ədəd 330 kV-luq, 4 ədəd 220 kV-luq, 22 ədəd 110 kV-luq, 25 ədəd 35 kV-luq yeni yarımstansiya və 46 min ədədə yaxın 10/6-0,4 kV-luq transformator yarımstansiyası, ümumi uzunluğu 30 min km-dən çox elektrik verilişi xətləri tikilib istifadəyə verilib. Mövcud EVX-lərdə 9 min km-dən artıq hissə əsaslı təmir olunub, 150 mindən çox izolyator yenisi ilə əvəzlənib. Yarımstansiyalarda ümumi gücü 4600 MVA yaxın olan 650-dən artıq yeni transformator quraşdırılıb, istismar müddəti başa çatan köhnə açarlar müasir tipli eleqaz açarlarla, çoxlu sayda ventil boşaldıcısı müasir tipli ifrat gərginlik məhdudlaşdırıcısı (İGM) ilə, köhnə gərginlik və cərəyan transformatorları, ayırıcılar yeniləri ilə əvəz olunub.

Əhalinin və iqtisadiyyatın artan tələbatını daha dolğun şəkildə ödəmək, elektrik enerjisinin ötürülməsi imkanlarını genişləndirmək məqsədilə 2003-cü ildə 330 kV-luq "Ağcabədi", 110 kV-luq "Alar",

2004-cü ildə 110 kV-luq "Sarıcalar", 2005-ci ildə 110 kV-luq "Ağdaş", 2006-cı ildə 110 kV-luq "Xəlfəli", "Xındırıstan", "Təzəkənd", "Binə", 2007-ci ildə 110 kV-luq "Yeni Biləsuvar", 2008-ci ildə 110 kV-luq "Xocalı", "Separadi", 2009-cu ildə 110 kV-luq "Kimyaçılar", 2010-cu ildə 330 kV-luq "Xaçmaz", "Abşeron" APQ, 220 kV-luq "Salyan", 110 kV-luq "Laza", "Sumqayıt-3", 2011-ci ildə 500 kV-luq "Samux", 330 kV-luq "Gəncə Alüminium Zavodu", 110 kV-luq "Masazır", "Taxtakörpü", 2012-ci ildə 110 kV-luq "Şahdağ", 2013-cü ildə 110 kV-luq "Hacallı", "Çəmənli", "Çələbixan", 2014-cü ildə 330 kV-luq "Goranboy", 220 kV-luq "Zabrat", "Ağdaş", 110 kV-luq "Bayıl", 2019-cu ildə 110 kV-luq "Aqropark", "Kimyaçılar-2", 2020-ci ildə isə 110 kV-luq "Xırdalan", 220/110/10 kV-luq "Böyükşor" yarımstansiyaları tikilib istifadəyə verilib.

Yuxarıda qeyd olunan yarımstansiyaların bir neçəsinin təməl-qoyma və açılış mərasimlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edib.

2002-2021-ci illər ərzində bir sıra istiqamətlərdə yeni elektrik verilişi xətləri çəkilib, həmçinin inşa edilən bir sıra enerji obyektləri arasında müasir ötürücü infrastruktur yaradılıb.

330 kV-luq "Goranboy" PM ilə 330 kV-luq "İmişli" yarım-

stansiyası arasında 330 kV-luq yeni elektrik verilişi xəttinin inşası və işə qoşulması "Azərbaycan" İES, "Goranboy" PM, "İmişli" yarımstansiyası, "Şirvan" İES, "Abşeron" yarımstansiyası arasında sistem əhəmiyyətli 330 kV-luq ikinci enerji dövrəsinin yaradılmasını və qonşu İran İslam Respublikası ilə enerji mübadiləsi imkanlarının artırılmasını təmin edir.

220 kV-luq "Salyan" yarımstansiyasını "Şirvan" İES və "Masallı" yarımstansiyası ilə birləşdirəcək 220 kV-luq yeni elektrik verilişi xətlərinin tikintisi həyata keçirilib.

"Samux-Qardabani" hava xəttinin 500 kV-luq "Samux" yarımstansiyasına giriş-çıxışı məqsədilə yeni 500 kV-luq hava xəttinin tikintisi və Gürcüstan sərhədinə qədər olan 150 km-lik hissəsi yenidən qurulub. Həmçinin 330 kV-luq 2-ci "İmişli-Parsabad", 220 kV-luq "Şimal ES-Hövsan YS", 220 kV-luq ikidövrəli "Şimal ES-Zabrat yarımstansiyası – Sumqayıt ES" hava xətlərinin tikintisi yerinə yetirilib.

Uzunluğu 223 km olan 220 kV-luq ikidövrəli "Mingəçevir ES-Abşeron YS" hava xəttinin tikintisi və 500 kV-luq "Abşeron" yarımstansiyasında 400 MVA-lıq 3-cü avtotransformatorun quraşdırılması və sxemə qoşulması üzrə işlər yekunlaşdırılıb. 2011-2013-cü illərdə Bakı şəhəri və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı nəzərdə tutulmuş işlər çərçivəsində ümumi uzunluğu 240 km-dək olan 110 kV-luq hava xətləri-nin 205 km hissəsində işlər başa çatdırılıb, gücü aşağı olan transformatorlar daha güclüləri ilə əvəz olunub.

2018-ci ildə "Cənub" ES və 220 kV-luq "Xırdalan" yarımstansiyası arasında 220 kV-luq 7-ci "Cənub" hava xətti tikilərək istismara verilib.

2018-ci ilin sonlarından başlayaraq, "Azərenerji" ASC tərəfindən "Reabilitasiya Proqramı"na start verilərək elektrik stansiyaları və yarımstansiyalarında əsaslı yenidənqurma, təmir və bərpa işlərinə başlanılıb. "Reabilitasiya Proqramı"nın həyata keçirilməsində əsas məqsəd "itirilmiş" gücləri bərpa etmək, ötürücü şəbəkələrin, rele mühafizəsi və əks-qəza avtomatikasının, ümumiyyətlə, enerjisistemin daha etibarlı və dayanıqlı işini təmin etməkdir.

"Reabilitasiya Proqramı"na əsasən 500/330/220/10 kV-luq "Abşeron", 220/110/10 kV-luq "Müşfiq", "Xırdalan", "Hövsan", 110 kV-luq "Sulfanol", "Əhmədli", "8-ci km", "Dübəndi", "Zabrat", "Maştağa", "Suraxanı", "Binəqədi" yarımstansiyaları əsaslı surətdə yenidən qurularaq istifadəyə

verilib. Hal-hazırda 330/220/110/10 kV-luq "Yaşma", 220/110/6 kV-luq "Nizami" və 110/35/10 kV-luq "Ağcabədi" yarımstansiyalarında yenidənqurma işləri davam etdirilir.

2020-ci il avqust ayının 21-də Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Qobu" Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Stansiyanın ötürücü sistemə qoşulması üçün 330 kV-luq "Cənub-Qobu" və "Qobu-Yaşma" EVX-ləri tikilib, 220 kV-luq 5-ci "Abşeron", 5-ci "Cənub", 110 kV-luq 3-cü, 4-cü "Puta" hava xətləri giriş-çıxış olunub. Layihə üzrə işlər tamamlanmaq üzrədir.

330 kV-luq "Ağstafa YS-Qardabani YS" hava xəttinin yenidən qurulması layihəsi çərçivəsində 330 kV-luq ikidövrəli "Ağstafa YS-Qardabani YS" hava xətti tikilərək istifadəyə verilib.

Eyni zamanda "Azərenerji" ASC-nin 2030-cu ilədək Strateji İnkişaf Planına əsasən 500, 330, 220, 110 kV-luq yeni yarım-stansiyaların, elektrik verilişi xətlərinin və elektrik stansiyala-rının tikilməsi nəzərdə tutulub.

PREZİDENT İLHAM ƏLİYEVİN AÇILIŞINDA İŞTİRAK ETDİYİ YENİ İNŞA OLUNAN VƏ YENİDƏN QURULAN YARIMSTANSİYALAR

Prezident İlham Əliyev "Müşfiq" yarımstansiyasının açılış mərasimində, 29 dekabr 2019-cu il

"AZƏRENERJİ"NİN YENİDƏN QURULAN "MÜŞFİQ" VƏ "ZABRAT" YARIMSTANSİYALARI

2019-cu il dekabrın 29-da Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan 220/110/10 kV-luq "Müşfiq" yarımstansiyasının açılışında iştirak edib.

Qeyd edək ki, 2018-ci ilin sentyabr ayından ölkəmizin enerji sistemində islahatların keyfiyyətcə yeni mərhələsinə start verilib, yerli və xarici mütəxəssislərin rəyi nəzərə alınmaqla 2018-2021-ci illəri əhatə edən mükəmməl "Reabilitasiya Proqramı" hazırlanaraq icrasına başlanılıb. Bu proqramın həyata keçirilməsində əsas məqsəd "itirilmiş" gücləri bərpa etmək, enerji sisteminin etibarlılığı və dayanıqlılığını təmin edib inkişafa nail olmaqla yanaşı, 800 meqavatdan artıq "itirilmiş" gücü bərpa etməkdir. Bu günə qədər 400 meqavat "itirilmiş" güc artıq bərpa olunub.

"Azərenerji" ASC 12 elektrik stansiyasında və sistem əhəmiyyətli 20-dək yarımstansiyada tikinti, yenidənqurma və bərpa işləri həyata keçirib. Ötən ildən başlayaraq mövcud 87 yarımstansiyadan ikisində yenidənqurma işləri başa çatdırılıb, 20-dək yarımstansiyada bu istiqamətdə işlər davam edir.

220/110/10 kilovoltluq "Müşfiq" və 110/35/10 kilovoltluq "Zabrat" yarımstansiyaları da ən müasir standartlar səviyyəsində yenidən qurulub. Silsilə tədbirlər sayəsində "Müşfiq" və "Zabrat" yarımstansiyalarının dayanıqlılığı, etibarlılığı və təhlükəsizliyi təmin olunub.

Prezident İlham Əliyev "Müşfiq" yarımstansiyasını həmin gün işə salıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən genişmiqyaslı islahatlar enerji sektorunu da hərtərəfli əhatə edib. Azərbaycanın elektrik enerjisi təsərrüfatında köklü islahatların növbəti mərhələsi uğurla reallaşdırılır, enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər geniş vüsət alıb. Son illərdə çoxsaylı yeni elektrik stansiyalarının və yarımstansiyaların açılışı, mövcud olanların bərpası ilə yanaşı, bərpa olunan enerjidən istifadəyə də geniş yer ayrılması istiqamətində çox mühüm layihələr icra olunub. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir. Görülən işlərin nəticəsidir ki, hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir. Bu işlər ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsinə xidmət etməklə, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlu nəticələrinin göstəricisi

"Müşfiq" yarımstansiyası

kimi də xarakterizə olunur. Respublikamızın elektroenergetika sistemi ötən müddətdə tanınmaz dərəcədə dəyişib və bütün yenidənqurma tədbirləri perspektiv də nəzərə alınmaqla reallaşdırılıb. Ardıcıl və məqsədyönlü səylər nəticəsində respublikamızın paytaxtı ilə yanaşı, regionlarında da qısa müddətdə böyük irəliləyişə nail olunub. Həmin tədbirlər elektrik enerjisi ilə təchizatın əsaslı şəkildə yaxşılaşdırılmasına, ən müasir texnologiya və avadanlıqların tətbiqinə, elektrik şəbəkələrində yüklənmələrin azalmasına və texniki itkilərin minimuma endirilməsinə imkan yaradıb. Ən ucqar yaşayış məntəqələrini belə əhatə edən yenidənqurma tədbirləri çərçivəsində yaradılan müasir energetika qurğuları və yeni güc mərkəzləri həm xarici görünüşünə görə əvvəlkilərdən kəskin fərqlənir, həm də böyük texniki üstünlüklərə malikdir. Ölkəmizin bütün bölgələrində qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, eləcə də sənayeləşmə diqqət mərkəzində olduğundan energetika kompleksinin zamanın tələblərinə uyğun köklü şəkildə təkmilləşdirilməsi də başlıca prioritetlərdəndir.

110/35/10 kilovoltluq "Zabrat" yarımstansiyasında aparılan yenidənqurma tədbirlərindən sonra bu energetika obyektinin gücü 160 meqavolt-amperə çatdırılıb.

Prezident İlham Əliyev "Müşfiq" yarımstansiyasından SCADA Dispetçer İdarəetmə Sistemi vasitəsilə "Zabrat" yarımstansiyasını da işə saldı.

"Zabrat" yarımstansiyası

"Dübəndi" yarımstansiyası

"DÜBƏNDİ" YARIMSTANSİYASI

Bakının Pirallahı rayonundakı "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyası əsaslı şəkildə yenidən qurulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar enerji sektorunun inkişafında da özünü aydın şəkildə göstərir. Respublikanın sosial-iqtisadi tərəqqisinin təmin edilməsində mühüm elementlərdən olan bu sahənin inkişafına son dövrlərdə çox böyük diqqət yetirilir. Ölkəmizin elektrik enerjisi təsərrüfatında köklü islahatlar həyata keçirilməklə bu proses davamlı xarakter alıb, enerji sisteminin etibarlılığının təmin olunması və bu sahədə mükəmməl infrastrukturun yaradılması üçün ardıcıl və kompleks tədbirlər davam etdirilir.

"Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində Xəzər və Pirallahı rayonlarında yeni tikilən sosial və sahibkarlıq obyektlərinin, inkişaf edən sənaye, kənd təsərrüfatı, turizm

Prezident İlham Əliyev "Dübəndi" yarımstansiyasının açılış mərasimində, 10 fevral 2020-ci il

müəssisələrinin, əhalinin artan tələbatını təmin etmək, qısaqapanmaları və sistem qəzalarını aradan qaldırmaq üçün yenidən qurulan "Dübəndi" yarımstansiyasının transformatorları daha güclü və yeniləri ilə əvəz edilib, mikro SCADA sistemi yaradılıb. Nəticədə güc defisiti aradan qaldırılmaqla yanaşı, etibarlılıq və dayanıqlılıq təmin edilib. Avadanlıqların açıq tiplidən qapalı tipliyə keçirilməsi yarımstansiyanı atmosfer şəraitinin təsirinə məruz qalmaq təhlükəsindən qoruyur. Yenidənqurma zamanı 63 MVA gücündə iki yeni transformator bina daxilinə yerləşdirilib ki, bununla yarımstansiyanın gücü 126 MVA-ya çatdırılıb. Burada aparılan işlər zamanı Xəzər və Pirallahı rayonlarının perspektiv sosial-iqtisadi inkişafı nəzərə alınıb. İstehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün yenidənqurma işləri xüsusi rejimdə, yarımstansiyanın fəaliyyəti dayandırılmadan icra olunub. Bu yarımstansiya Bakıətrafı kənd və qəsəbələrin çox hissəsini, Pirallahı Sənaye Parkı, qaçqın və məcburi köçkün şəhərciyi, kabel zavodu, "Zirə Ekopark" kompleksi və digər yerlərin enerji təchizatını təmin edir.

Xatırladaq ki, 1953-cü ildə istifadəyə verilən və istismar

müddəti başa çatan bu yarımstansiyanın avadanlıqları həddən artıq yüklənirdi ki, bu da istənilən zaman sistemdə qəza vəziyyətinin yaranmasına səbəb ola bilərdi. Yarımstansiya Xəzər dənizinə yaxın ərazidə yerləşdiyindən nəm və küləkli hava şəraitində də burada tez-tez qısaqapanmalar olurdu. Ona görə də "Dübəndi" yarımstansiyası sökülərək qapalı şəraitdə yeni texnologiyalar əsasında tam yenidən qurulub.

YENİDƏN QURULAN "ƏHMƏDLİ" VƏ "8-Cİ KM" YARIMSTANSİYALARI

Xətai rayonundakı 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyası da tamamilə yenidən qurulub, buradakı transformatorlar yeniləri ilə əvəzlənib, yarımstansiyanın bütün qurğuları müasir səviyyəyə çatdırılıb. Yenidənqurma işləri çərçivəsində yarımstansiyanın idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalinin, o cümlədən rayon ərazisində fəaliyyət göstərən sosial-iqtisadi və sənaye müəssisələrinin fasiləsiz elektrik enerjisi ilə təminatında xüsusi rol oynayır.

Yarımstansiyada quraşdırılan müasir avadanlıq və qurğular yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köh-

Prezident İlham Əliyev "Əhmədli" yarımstansiyasının açılış mərasimində, 11 iyun 2020-ci il

nə transformatorun yeni transformatorlarla əvəzlənməsi yarım-stansiyanın ümumi gücünü 166 MVA-dan 240 MVA-ya çatdırıb. Yarımstansiyada aparılan yenidənqurma işləri istehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə, fəaliyyəti dayandırılmadan həyata keçirilib.

Son iki ildə Prezident İlham Əliyevin tapşırığı ilə elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkələrdə də geniş yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib. "Reabilitasiya Proqramı" çərçivəsində bu dövrdə 1 ədəd 500, 2 ədəd 330, 2 ədəd 220 və 10 ədəd 110 kV-luq yarımstansiya yenidən qurulub, 12 yarımstansiyada təmir-bərpa işləri həyata keçirilib.

Qeyd edək ki, dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən ölkəmizdə elektrik enerjisi təsərrüfatının yenidən qu-rulması, bu sahədə ən son innovativ həllərin tətbiqi və nəticə etibarilə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində böyük işlər görülüb. Həyata keçirilən işlərin tərkib hissəsi kimi çoxlu sayda mövcud yarımstansiya, o cümlədən 110/35/10 kV-luq "Əhmədli" yarımstansiyası və paytaxtın Nizami rayonundakı 110/35/10 kilovoltluq "8-ci km" yarımstansiyası müasir səviyyədə yenidən qurulub.

"8-ci km" yarımstansiyası

"Böyükşor" yarımstansiyası

"BÖYÜKŞOR" YARIMSTANSİYASI

2020-ci il iyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yeni tikilən "Böyükşor" yarımstansiyasının açılışında iştirak ediblər.

Yeni tikilən "Böyükşor" yarımstansiyasının gərginliyi 220/110/10 kV, gücü isə 750 MVA-dır. Yarımstansiyanın müasir idarəetmə sistemi ilə təchiz edilən mərkəzi idarəetmə otağında iş prosesinə real zaman rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə micro SCADA sistemi quraşdırılıb.

Bu yarımstansiya paytaxtın Sabunçu, Binəqədi, Nərimanov və Nizami rayonlarında yerləşən bir sıra mövcud və tikilməsi planlaşdırılan iri infrastruktur obyektlərinin, sosial-sənaye müəssisələrinin və əhalinin dayanıqlı elektrik təchizatını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Böyükşor" yarımstansiyasının açılışında, 16 iyul 2020-ci il

"Böyükşor" yarımstansiyası Abşeron enerji qovşağını qidalandıran 220 kilovoltluq xətlərin və yarımstansiyaların yüklənməsini aradan qaldıraraq, xətlərdəki itkiləri azaldır, enerji qovşağının sxem etibarlılığını və yükötürmə qabiliyyətini artırır. Bu yarımstansiya eyni zamanda mövcud 110 kilovoltluq yarımstansiyaların qidalanma sxemlərini təkmilləşdirəcək, tikilməsi nəzərdə tutulan yeni 110 kilovoltluq yarımstansiyaların enerji sisteminə qoşulması məsələlərini həll edəcək.

Yeni yarımstansiya qurularkən perspektiv sosial-iqtisadi

inkişaf, əhalinin artan tempi də nəzərə alınıb. Yaxın vaxtlara qədər Bakının mərkəz hissəsinin şimal zonasının elektrik enerjisi ilə təchizatı "Xırdalan" yarımstansiyasından çıxan xətlər və 8 yarımstansiya vasitəsi ilə həyata keçirilirdi ki, bu da istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchizatında bəzi çətinliklər yaradırdı. "Böyükşor" yarımstansiyasının istifadəyə verilməsi ilə bu məsələ həllini tapıb. Yarımstansiyada üç müasir transformator quraşdırılıb, mövcud 2-ci "Hövsan" və 3-cü "Ramana" hava xətlərinin yarımstansiyaya giriş-çıxışı təmin edilib. Hazırda "Binəqədi" yarımstansiyasının yüklənməsini azaltmaq və etibarlılığını yüksəltmək məqsədi ilə bu yarımstansiyaya yeni kabel xətləri çəkilib.

Son iki ilə qədər Bakıda və Abşeron yarımadasında cəmi beş ədəd 220 kilovoltluq yarımstansiya fəaliyyət göstərirdi. Onların dördü istismar müddətini başa vurmuşdu. Ötən iki ildə isə "Böyükşor" yarımstansiyası və "Şimal" Elektrik Stansiyasının ərazisində qapalı tipli iki yarımstansiya tikilib. Beləliklə, Bakı şəhərindəki 220 kilovoltluq yarımstansiyaların sayı yeddiyə çatdırılıb.

ABŞERON RAYONUNDAKI "XIRDALAN" YARIMSTANSİYALARI

2021-ci il fevralın 1-də Prezident İlham Əliyev yenidən qurulan 220/110/10 kilovoltluq və yeni tikilən 110/35/10 kilovoltluq "Xırdalan" yarımstansiyalarının açılışında iştirak edib, burada yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, 220/110/10 kilovoltluq "Xırdalan" yarımstansiyası istismar müddətini başa vurduğuna və artan tələbatı qarşılaya bilmədiyinə görə tam yenidən qurulub. Bakı şəhərinin dairəvi elektrik təchizatı üzrə 60 faizini elektrik enerjisi ilə qidalandıran bu yarımstansiyaya Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından 108 kilometr məsafədə elektrik ötürmə xətti çəkilib. Bu, Mingəçevir şəhərindəki generasiya mənbələrindən asılılığı azaltmağa xidmət etməklə yanaşı, paytaxtın etibarlı və dayanıqlı enerji ilə təmin edilməsində əvəzsiz rol oynayır. Onu da bildirək ki, qəzaların qarşısının alınması və istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsində bu yarımstansiya mühüm əhəmiyyətə malikdir.

Xırdalan şəhərində son illərdə tikilən yüzlərlə çoxmərtəbəli binaların, sosial-iqtisadi və sənaye obyektlərinin elektrik enerjisinə artan tələbatını qarşılamaq, güc qıtlığını aradan qaldırmaq

üçün 110/35/10 kilovoltluq ikinci yeni "Xırdalan" yarımstansiyası da inşa edilib.

Yarımstansiyanın yeni inzibati binasında SCADA idarəetmə sisteminin tam həcmdə ehtiyat dispetçer idarəetmə mərkəzi yaradılıb. SCADA sistemi sınaqdan keçirilib. Azərbaycanın enerji sisteminin 25 elektrik stansiyasını, 100-dən artıq yarımstansiyasını, o cümlədən "Azərişıq" ASC-nin idarəetmə mərkəzi ilə əlaqəni özündə əks etdirən məsafədən idarəolunan SCADA əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarətdir.

Qeyd edək ki, görülən bütün işlər Prezident İlham Əliyevin davamlı strategiyasının əsasını təşkil edir, getdikcə bu layihələr daha da genişləndirilir.

"Xırdalan" yarımstansiyası

AzərEnerji
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

İstehsal 3327 MW
Tələbat 3036 MW
Ötürülmə 289 MW
Şərq En Kəsiyi 137 MW
Tezlik 49,99 Hz

YENİDƏN QURULAN "HÖVSAN" VƏ "MAŞTAĞA" YARIMSTANSİYALARI

Bakının Suraxanı rayonunda yerləşən və 45 il əvvəl inşa edilən "Azərenerji" ASC-nin 220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyası müasir səviyyədə yenidən qurularaq avadanlıqlar yeniləri ilə əvəz olunub. Yarımstansiya "Şimal" Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyətinin artırılmasında, "Abşeron", "Böyükşor", "Suraxanı", "Ramana", "Əhmədli", "Qala", "Zığ" yarımstansiyaları ilə əlaqələndirilməklə, Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchi-zatında mühüm rol oynayır.

220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyası ilə yanaşı, 110/35/6 kilovoltluq "Maştağa" yarımstansiyası da tam yenidən qurularaq etibarlılığı və dayanıqlılığı artırılaraq istehlakçıların fasiləsiz və keyfiyyətli enerji ilə təchiz edilməsi təmin olunub. Bu yarımstansiya Sabunçu və Xəzər rayonlarını, xüsusən də Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, ümumilikdə 150 min nəfərə yaxın sakini elektrik enerjisi ilə təchiz edir.

2021-ci il aprelin 19-da 220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyasının açılışında iştirak edən Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə "Maştağa" yarımstansiyasını da işə salıb.

"Hövsan" yarımstansiyası

Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasının açılış mərasimində, 3 iyun 2021-ci il

110/35/6 KİLOVOLTLUQ "BİNƏQƏDİ" YARIMSTANSİYASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 iyun 2021-ci il tarixində Bakının Binəqədi rayonunda “Azərenerji” ASC-nin yenidən qurulan 110/35/6 kilovoltluq “Binəqədi” yarımstansiyasının açılışında iştirak edib.

1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçdiyinə görə texnoloji itkilərin çoxalması-na, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsi-nə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu. Ona görə də yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

"Binəqədi" yarımstansiyasının yenidən qurulması həm

Prezident İlham Əliyev "Suraxanı" yarımstansiyasının açılışında, 6 avqust 2021-ci il

də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

"Abşeron" Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, işçi heyətinin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, "Azərenerji" ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub.

ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 110/35/6 KİLOVOLTLUQ "SURAXANI" YARIMSTANSİYASI

1932-ci ildə tikilən "Suraxanı" yarımstansiyası istismar müddətini dəfələrlə keçdiyinə və artan tələbatı qarşılaya

bilmədiyinə görə, burada əsaslı şəkildə yenidənqurma işləri aparılıb və yarımstansiya açıq tiplidən qapalı tipli variantda tam yenidən qurulub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial infrastrukturun daha da müasirləşdirilməsi, əhalinin sosial məsələlərinin həlli istiqamətində icra olunan layihələr uğurla və ardıcıl şəkildə davam edir. Bu layihələr arasında əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində həyata keçirilən işlər xüsusi yer tutur. Son illərdə yeni elektrik yarımstansiyalarının yaradılması, mövcud olanların əsaslı şəkildə yenidən qurulması bu sahənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsində mühüm rol oynayır və nəticədə istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması təmin edilir.

6 avqust 2021-ci il tarixində açılışı olan "Suraxanı" yarımstansiyasında da müasir avadanlıqlar quraşdırılıb. Yarımstansiya Suraxanı rayonunu, Sabunçu və Xəzər rayonlarının bir hissəsini, o cümlədən bir neçə digər strateji və sosial infrastruktur obyektlərini elektrik enerjisi ilə təchiz edəcək.

Xüsusi layihə əsasında "Suraxanı" yarımstansiyasının gərginliyi dəyişdirilərək 110/20/6 kilovoltluqdan 110/35/6 kilovoltluğa keçirilib, itkilərin azaldılmasına nail olunub. Eyni

"Suraxanı" yarımstansiyası

zamanda yarımstansiyanın transformatorlarının ümumi gücü də 126 meqavolt-amperədək artırılıb. Müasir avadanlığın quraşdırılması nəticəsində yarımstansiyanın istismar xərclərinin azaldılmasına, işçi heyətinin təhlükəsiz əmək fəaliyyətinə, avadanlıqların ətraf mühitin zərərli təsirindən qorunmasına və yarımstansiyanın daha səmərəli fəaliyyət göstərməsinə nail olunub.

ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 500/330/220 KİLOVOLTLUQ "ABŞERON" YARIMSTANSİYASI

2021-ci il avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 500/330/220 kV-luq "Abşeron" yarımstansiyasının açılışında iştirak edib.

Ötən əsrin 70-ci illərinin əvvəlindən başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə elektroenergetika sahəsi sürətlə inkişaf edib. Məhz həmin illərdə Ümummilli Liderin təşəbbüsü və birbaşa rəhbərliyi ilə Cənubi Qafqazda ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası inşa edilib, Bakı şəhəri və Abşeron yarımadasının sürətlə artan tələbatını qarşılamaq üçün bu stansiyada istehsal olunan elektrik enerjisinin Abşeron yarımadasına ötürülməsi

"Abşeron" yarımstansiyası

Prezident İlham Əliyev "Abşeron" yarımstansiyasının açılışında, 9 avqust 2021-ci il

məqsədilə ölkənin ən böyük yarımstansiyası olan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasının tikilməsinə başlanılıb.

"Abşeron" yarımstansiyasında 40 ilə yaxın müddətdə istismarda olan avadanlıqlar köhnəldiyindən, yeni texnologiyalara cavab vermədiyindən və bütün bunlarla yanaşı, tələbat dəfələrlə artdığından istismarda ciddi problemlər yaranırdı. Məhz buna görə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkənin ən böyük yarımstansiyası olan "Abşeron" yarımstansiyası əsaslı şəkildə yenidən qurulub.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, bu yarımstansiya bütövlükdə Bakı şəhəri və Abşeron yarımadasının əksər hissəsini elektrik enerjisi ilə təchiz edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasət nəticəsində sosial məsələlərin həlli, o cümlədən əhalinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təminatı baxımından olduqca mühüm layihələr həyata keçirilib. Bu layihələrin hazırda dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda da uğurla icra olunması Azərbaycan dövlətinin qüdrətini nümayiş etdirməklə yanaşı,

500/330/220 kV-luq
"ABŞERON"
YARIMSTANSİYASI

AzerEnerji
220 kV-luq
AÇIQ PAYLAYICI
QURĞU

ölkəmizdə sosial infrastrukturun daha da müasirləşdirilməsi üçün atılan addımların ardıcıl olduğunu göstərir. "Abşeron" yarımstansiyasının müasir səviyyədə yenidən qurulması Azərbaycanda enerjisistemin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi baxımından böyük rol oynayır.

Yenidənqurma işləri çərçivəsində köhnə idarəetmə binası əsaslı təmir edilib. Məhz burada ilk dəfə 22 nömrədən ibarət mühəndis-yataqxana korpusu inşa olunub, işçilərin istirahəti, idmanla məşğul olması, asudə vaxtlarını səmərəli keçirməsi



üçün hərtərəfli şərait yaradılıb. Yarımstansiyanın strateji əhəmiyyəti nəzərə alınaraq, onun səmərəli və etibarlı iş rejiminin, dayanıqlığının artırılması, istismar xərclərinin azaldılması, işçi heyəti üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılmasına tam nail olunub.

Qeyd edək ki, "Abşeron" enerji qovşağı nəinki Bakı və Abşeron yarımadasının, bütövlükdə ölkənin enerji sisteminin əsas bazası hesab olunur. Belə ki, Mingəçevir, Şirvan və digər şəhərlərdə yerləşən iri elektrik stansiyalarından çox böyük həcmdə yük məhz "Abşeron" yarımstansiyasına, buradan isə sistem əhəmiyyətli 330, 220 kilovoltluq yarımstansiyalara ötü-rülür.

Yenidənqurma işləri zamanı yarımstansiyanın 500 və 330 kilovoltluq açıq paylayıcı qurğularında avadanlıqlar yenilənib, ərazi genişləndirilib, yeni 220 kilovoltluq açıq paylayıcı qurğu inşa edilib. Həmçinin İdarəetmə Mərkəzi tikilib və müasir qurğularla təchiz olunub. İdarəetmənin təkmilləşdirilməsi, yarımstansiyanın işinə real zaman rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji"nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Beləliklə, yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb. Eyni zamanda dispetçer idarəetmə otağında mərkəzi SCADA sistemi tam həcmdə təkrar ehtiyat variantda quraşdırılıb.

Prezident İlham Əliyevin işə saldığı "Abşeron" yarımstansiyası Azərbaycanın dörd ən böyük istilik elektrik stansiyası - "Azərbaycan" İstilik Elektrik Stansiyası, "Sumqayıt", "Şimal" və "Cənub" elektrik stansiyaları, həmçinin "Mingəçevir" Su Elektrik Stansiyası, "Səngəçal", "Xaçmaz" modul tipli elektrik stansiyaları və "Qobu" elektrik stansiyası ilə əlaqələndirilib. Beləliklə, bu yarımstansiya bu qədər böyük generasiya mənbələri ilə əlaqələndirilən yeganə qovşaq yarımstansiyasıdır.

Yarımstansiyanın əsaslı şəkildə yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, elektrik təchizatının etibarlığının və dayanıqlığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir standartlara cavab verən innovativ həllərin tətbiqinə nail olunub.

Qarşıda duran layihələrdən biri də Rusiya ilə mövcud "Yaşma-Dərbənd" xəttinə paralel olaraq yeni 330 kilovoltluq "Dərbənd-Abşeron" xəttinin tikintisidir. Bununla əlaqədar yarımstansiyada genişləndirmə işləri aparılıb.

SIEMENS

İSTEHSAL OLUNAN ELEKTRİK ENERJİSİNİN İDARƏEDİLMƏSİ

2003-2021-ci İLLƏRDƏ "AZƏRENERJİ" ASC-də SCADA/EMS SİSTEMİNİN İNKİŞAFI

2004-cü ilin sonlarında "Azərenerji" ASC-də "Elektrik Enerjisinin Ötürülməsi Sisteminin İnkişafı" layihəsinin əsas tərkib hissəsi kimi "SCADA/EMS" sisteminin yaradılmasına start verilməsi müasir sistemə keçidin başlanğıcı oldu.

İlkin olaraq 2005-ci ildə Almaniyanın "Siemens" şirkəti ilə imzalanan müqavilə əsasında pilot layihə kimi 25 stansiya və yarımstansiyadan məlumatlar mərkəzi SCADA serverlə-

Prezident İlham Əliyev "Azərbaycan Elmi-Tədqiqat Layihə-Axtarış İnstitutu"nun açılışında, 20 aprel 2020-ci il

rinə ötürüldü. Yalnız 22 kV-luq "Xırdalan" və 500 kV-luq "Abşeron" yarımstansiyalarına mikroprosessorlu RTU (uzağa məlumatötürən) qurğusu quraşdırıldı. Yerdə qalan obyektlərdəki köhnə avadanlıqlar SCADA sisteminə uyğunlaşdırıldı və qoşulmalar yüksək tezlikli rabitə avadanlıqları vasitəsi ilə yerinə yetirildi.

İkinci dəfə SCADA/EMS/Telekom/Enerjinin hesabatı (uçotu) layihəsi üçün 9 noyabr 2007-ci il tarixində Fransanın "AREVA" şirkəti ilə müqavilə bağlandı. Bu layihə respublika enerjisisteminin 45 obyektini (sonra obyektlərin sayı 60-a çatdırıldı) əhatə edirdi. Gərginliyi 110 kV və yuxarı olan yarımstansiyalarda, elektrik stansiyalarında texnoloji məlumatların toplanması, emal edilməsi üçün uzaqdan idarə olunan terminallar və sürətli kompüter texnikası quraşdırıldı. Ümumi uzunluğu 850 kilometrə yaxın müasir optik-lifli rabitə xətt sistemi yaradıldı, sonra bu 1400 km-ə çatdırıldı.

Əsas dispetçer mərkəzi modernləşdirildi, ehtiyat dispetçer mərkəzi və 4 ədəd regional dispetçer mərkəzləri (Bakı, Gəncə, Sumqayıt, Şirvan) yaradıldı.

2018-ci ilin sentyabr ayında GE (Fransa) və EDF (Fransa) şirkətlərinin SCADA/EMS sistemində apardıqları auditin nəti-cələrinə əsasən, serverlər Windows 2003 XP əməliyyat sisteminə, E-terrahabitat 5.7.0, E-terraplatform 2.5.0 əməliyyat sistemlərinə istehsalçı şirkətlər tərəfindən texniki xidmətlərin dayandırıldığı məlum oldu. Bu səbəbdən SCADA sisteminin istismarında ciddi problemlər yaranırdı.

Audit keçirmiş şirkətlərin tövsiyələri və dispetçer idarəetməsinə qoyulan müasir tələblər nəzərə alınmaqla, SCADA sisteminin avtomatlaşdırılmış idarəetmə imkanlarını genişləndirməklə yenidən qurulması zərurəti nəzərə alınaraq, məsləhətçi "Utilicas" şirkəti tərəfindən texniki spesifikasiya hazırlandı. Bu spesifikasiyaya əsasən yenidənqurma işlərində iştirak etmək istəyən şirkətlər arasından müsabiqə yolu ilə ABB şirkəti qalib elan olundu və həmin şirkətlə müqavilə bağlandı.

Hazırda müasir tələblərə cavab verən yeni SCADA sistemi istismara verilib. Enerjisistemin 100-dən çox stansiya və yarımstansiyasında quraşdırılan intellektual uzaq terminal qurğuları vasitəsi ilə dinamik texnoloji teleməlumatlar mərkəzi serverlərdə toplanır və emal olunur. Bu teleməlumatlar vasitəsilə enerjisistemin işini fasiləsiz olaraq izləmək, habelə kommutasiya avadanlıqlarının məsafədən idarəolunması imkanından istifadə etməklə proseslərə zəruri müdaxilə etmək mümkündür.

SCADA sisteminin açıq xüsusiyyətinə görə gələcəkdə daha çox obyektlərin ona birləşdirilməsi və sistemin genişləndirilməsi imkanı var.

Ümumi uzunluğu 3100 kilometrə yaxın optik-lifli rabitə xətti şəbəkəsi yaradılıb, Əsas və Ehtiyat Dispetçer idarəetmə mərkəzləri enerjisistemin dinamik məlumatlarla təchiz olunmuş birxətli elektrik sxemini əks etdirən böyük ölçülü displeylərlə təchiz olunub. 7 ədəd Regional Dispetçer idarəetmə mərkəzləri (Bakı, Gəncə, Sumqayıt, Şirvan, Abşeron, Mingəçevir, Xaçmaz) yaradılıb. Yerli dispetçerlər öz regionlarında enerjinin istehsalına və təchizatına bu mərkəzlərdən rahat nəzarət edə bilirlər.

Hal-hazırda müfəssəl dispetçer idarəetməsinin həyata keçirilməsi üçün ölkə enerjisisteminin birxətli diaqram xəritəsi, sözügedən enerji obyektlərinin birxətli kommutasiya sxemləri, kommutasiya avadanlıqlarının və enerji daşıyıcı qurğuların istismara adaptiv dinamik topoloji reaksiyasını, zəruri istismar göstəricilərini və müvafiq xəbərdarlıqları əks etdirən əlaqələndirici məlumat bazası yaradılıb.

Respublika enerji sisteminin qonşu ölkələrin enerji sistemləri ilə

enerji mübadiləsini həyata keçirmək üçün SCADA sisteminin İCCP protokolu üzərindən operativ teleölçü və məlumat mübadiləsi imkanı mövcuddur və bu tipli əlaqələr artıq Rusiya, Gürcüstan, İran kimi qonşu ölkə enerji sistemləri ilə müvəffəqiyyətlə icra olunmaqdadır.

Yeni SCADA sistemində müasir dispetçer telefon rabitəsi yaradılıb, təhlükəsizlik sistemi isə kiberhücumlara tam cavab verə biləcək səviyyədə qurulub. Qurulan real topologiya əsasında daxil olan ölçü qiymətlərinə görə SCADA/EMS sisteminin tərkibində fəaliyyət göstərən aşağıdakı analitik proqram modulları mövcuddur. Bunlardan:

State Estimator-SE (Vəziyyət dəyərləndirici) proqramı real vaxt rejimində enerjisistemin ümumi vəziyyətinin dayanıqlılığını qiymətləndirir, həm sistemin monitorinqi üçün, həm də digər real vaxt proqramlarının işləməsi üçün istifadə edilir.

Dispatcher Power Flow-DPF (Yükün idarəolunması) proqramı Oflayn rejimdə ona verilən dinamik basecase (ilkin topologiya) əsasında yükün necə paylanması funksiyalarını işə salır.Dispetçerlərə qısa zamanda real sistemdə baş verə biləcək yük dəyişikliyinin ümumi yük axınına necə təsir edə biləcəyini analiz etməyə imkan verir.

Voltage Stability Analysis-VSA (Gərginlik tənzimatı analizi) proqramı gərginliyin stabil saxlanılması şərtini əsas götürərək təyin edilmiş yük koridorlarından maksimal nə qədər yük ötürülə biləcəyini hesablayır və yük koridorlarından ötürülə biləcək yükün sərhədlərini təyin edir.

Optimal Power Flow-OPF (Optimal yük axını) proqramı yük axını problemlərini analiz edir və problemlərin aradan qaldırılması üçün sistemin bəzi komponentlərinə idarəolunma qrafiki təyin edir. Həm real vaxt rejimində, həm də oflayn rejimdə icra edilə bilər.

Automatic Generation Control-AGC (Enerji istehsalına avtomatik nəzarət) proqramı enerji istehsalına avtomatik tənzimat (xarici sistemlərlə enerji mübadiləsi qrafikinə nəzarət, sistemin tezliyinə nəzarət, sistemin ekonomik idarəolunması) tələblərini həyata keçirir.

Operator Training Simulator-OTS (Operator təlim simulyatoru) sistem operatorlarına real sistemə heç bir təsir etmədən enerji sistemin analizinə imkan verir, operatorlar sistem üzərində həm həyəcanlanmalar, həm qəza, həm də qəzadan sonra bərpa vəziyyətlərində təcrübələr apara bilər.

Genişlənməyə və yeni əlavələrə açıq olan yeni SCADA sistemi 20 il zəmanətlə işləyəcək.

"Azərbaycan" İES-in idarəetmə mərkəzi



ƏKS-QƏZA AVTOMATİKASI

"Azərenerji" ASC-nin fəaliyyət növlərindən biri olan enerjinin idarəedilməsi vacib struktur bölmələrindən biridir. Məhz bu baxımdan elektrik enerjisinin idarəedilməsi sahəsinə xüsusi diqqət yetirmək əsas amillərdən biri hesab olunur.

Enerjisistemin normal iş rejiminin pozulması zamanı qəza prosesləri çox sürətlə inkişaf etdiyinə görə operativ işçi heyəti tərəfindən bu proseslərin ləğv edilməsi və ya qarşısının alınması mümkün olmur. Bu səbəbdən enerjisistemdə qəza vəziyyətlərinin cəld aradan qaldırılması və yaxud qarşısının alınması üçün **Əks-Qəza Avtomatikası (ƏQA)** sistemləri tətbiq edilir.

ƏQA yüklü magistral elektrik verilişi xətləri (EVX) ilə əlaqələndirilən elektrik stansiyalarının birlikdə işinin təmin edilməsi, qaçılmaz qısaqapanmalar şəraitində enerji obyektlərinin açılması, generasiya və ötürülən güclərin təkanvari azalması və ya çoxalması şəraitində ölkənin elektroenergetika sisteminin kəskin və spesifik problemlərinin həllini lokallaşdıran və ləğv edən avtomatik qurğudur. Qəza baş verən zaman ilk olaraq rele mühafizəsinin avtomatik qurğuları və açılan açarların avtomatik təkrarqoşma qurğuları vasitəsi ilə qəzanı yaradan səbəb ləğv edilir. Dayanıqlı qısaqapanmalardan və qeyri-müvəffəq ATQ-lərdən enerjisistemin dayanıqlığına və sinxron işinə yarana biləcək təhlükəni önləmək üçün sistem əks-qəza avtomatikası işə düşür və enerjisistemin dayanıqlı iş rejimini saxlayır.

"Azərbaycan enerjisisteminin əks-qəza avtomatikasının mikroprosessor texnikasının tətbiqi ilə modernləşdirilməsi layihəsi" 2011-ci ildə "Azərenerji" ASC və Rusiya Federasiyasının "Energetikanın Cənub mühəndis mərkəzinin" "Cənubenerjişəbəkəlayihə" filialı arasında imzalanan müqavilə əsasında hazırlanıb. 2011-ci ildən etibarən Rusiya Federasiyasının "Prosoft Systems" kompaniyası ilə bağlanılan müqavilələr əsasında avadanlıqlar hazırlanıb və respublikaya gətirilərək yerində quraşdırılıb.

Əks-qəza avtomatikası avadanlıqları tam quraşdırıldıqdan və yüksək tezlikli kanalların sınaq-sazlama işləri başa çatdırıldıqdan sonra 2018-ci ilin may ayından etibarən layihə qiymətləri əsasında test rejimində işə qoyulub.

2018-ci ilin iyul ayının 3-də enerjisistemin çökməsi ilə nəticələnən sistem qəzasının səbəbləri və inkişaf trayektoriyası analiz edildikdən sonra, həmçinin enerjisistemin dinamik inki-

şafı ilə əlaqədar istismara daxil edilən yeni generasiya gücləri, rejim və sxem dəyişiklikləri nəzərə alınaraq işçi qoyuluş qiymətlərinin yenidən hesablanmasına zərurət yaranmışdır. Bu məqsədlə "Azərenerji" ASC Rusiya Federasiyasının Vahid Enerji Sisteminin (VES) Sistem Operatorunun Elmi-Texniki Mərkəzi (ETM) ilə 2020-ci ilin yanvar ayınında 2020-ci və 2025-ci il sxemi və iş rejimləri əsasında işçi qoyuluş qiymətlərinin hesablanması üçün iki mərhələdə hesabat aparılması məqsədilə müqavilə bağlanılıb.

"Azərbaycan enerjisisteminin əks-qəza avtomatikasının mikroprosessor texnikasının tətbiqi ilə modernləşdirilməsi layihəsi" üzrə Rusiya Federasiyasının VES ETM ilə bağlanılmış müqavilənin birinci mərhələsinin şərtlərinə əsasən statik və

"Dübəndi" yarımstansiyası, 10 fevral 2020-ci il

dinamik hesabatlar tam aparılıb və artıq yerində quraşdırılmış avtomatikaların işçi qoyuluş qiymətləri "Azərenerji" ASC-nin prezidentinin DƏ/254 saylı, 30 dekabr 2019-cu il tarixli əmri ilə yaradılmış "Enerjisistemin əks-qəza avtomatikasının yenidən qurulmasına dair" komissiya tərəfindən baxılmış və razılaşdırılmışdır.

"Prosoft Sistems" kompaniyasının ölkəmizə ezam edilmiş əməkdaşları tərəfindən razılaşdırılan işçi qoyuluş qiymətləri ƏQA-nın təsir dairəsinə qoşulması nəzərdə tutulmuş bütün enerji obyektlərdə avadanlıqların (panellərin) məntiqinə daxil edilib.

2021-ci ilin may ayında lokal və sistem əks-qəza avtomatikalarının işə qoyulması işləri artıq başa çatdırılıb və ƏQA tam işə qoyulub.

Hesabatların nəticələrinə əsasən istismarda olan "Şimal" ES-in 2-ci BQQ-si və 220/110/10 kV-luq "Böyükşor" yarımstansiyası üçün təklif edilən avtomatika növlərinin "Prosoft Sistems" kompaniyası ilə bağlanılmış müqavilə əsasında layihələndirmə və avadanlığın hazırlanması işləri davam edir.

Müqavilənin ikinci mərhələsinin şərtlərinə əsasən, 2022-ci

ildə istismara verilməsi planlaşdırılan "Qobu" ES, 2023-cü ildə işə qoşulması nəzərdə tutulan, "Acwa Power" şirkəti tərəfindən tikiləcək 138 və 102 MVt gücündə "Pirəküşkül" və "Xızı" külək elektrik stansiyaları, "Masdar" şirkəti tərəfindən Ələt ərazisində tikiləcək 230 MVt gücündə günəş elektrik stansiyası, həmçinin erməni işğalından azad edilən Qarabağ ərazisində tikilməsi planlaşdırılan 240 MVt gücündə GES və Araz çayı üzərində tikiləcək 100 MVt gücündə "Xudafərin", 40 MVt gücündə "Qız qalası" SES-ləri, Qarabağın yenidən qurulacaq 330/110 kV-luq elektrik şəbəkə infrastrukturu və tikintisi və bərpa olunması planlaşdırılan kiçik SES-lər də daxil olmaqla Azərbaycan enerji sisteminin 2025-ci il üçün nəzərdə tutulan perspektiv inkişaf sxeminin hesabat modelinə daxil edilməsi üçün sözügedən enerji obyektlərinin coğrafi yerləşmə yeri və təklif edilən birləşmə sxemi üzrə ilkin məlumatlar ETM-ə ötürülüb.

HIDRO AQREQAT
YTQ
YASTIQLARIN TEMPERATURU
STATORDA TEMPERATUR
QEZA KLAPANI NORMAL
QEZA KLAPANI
DISK BAGLAYICI AÇIQ
EYLEC DUSUB
EYLEC
OVATION
G-6
LAGIM MERTEBESI
YANGIN SIQNALI
G1
G2
G3
G4
G5

TEZLİYİN TƏNZİMLƏNMƏSİ

Azərbaycan enerji sistemi 330 kV-luq "Dərbənd" EVX vasitəsi ilə Rusiyanın Vahid Enerji sisteminin 1-ci sinxron zonası ilə paralel işləyir və normal rejimlərdə tezlik tənzimatı Rusiya enerjisistemi tərəfindən həyata keçirilir. Təmir rejimlərində və ya qəza açılması zamanı tezlik tənzimatı "Mingəçevir" SES tərəfindən həyata keçirilir. Tezlik tənzimatına qoyulan tələblərin yerinə yetirilməsi üçün "Mingəçevir" SES-də quraşdırılan 6 ədəd hidrogenerator tam əsaslı təmir edilib, "Emerson" şirkətinin texniki dəstəyi ilə SES-də istismarda olan hidroaqreqatların aktiv gücü idarəetmə sistemi müasir tələblərə cavab verən rəqəmsal idarəetmə sistemi ilə əvəz olunub. Bundan başqa, hidrogeneratorlar aktiv gücün qrup idarəolunması (AGQİ) sistemi ilə təchiz edilib. Bu sistem vasitəsi ilə elektrik stansiyasında istehsal olunan aktiv güc işdə olan hidrogeneratorlar arasında optimal paylanmaqla həm yerli, həm də SCADA sistemi vasitəsi ilə məsafədən idarə oluna bilər. "Azərenerji" ASC-nin mərkəzi dispetçer məntəqəsindən SCADA layihəsi çərçivəsində istismara daxil edilən AGC (automatic generation control) proqram təminatı vasitəsi ilə "Mingəçevir" SES-in istehsal gücü vasitəsi ilə dövlətlərarası güc axınlarının tənzimlənməsi həyata keçirilir.

Azərbaycan enerjisisteminin qonşu dövlətlərin enerjisistemlərindən asılılığının tam aradan qaldırması məqsədilə yaxın gələcəkdə Səngəçal ərazisində normallaşdırılmış tezlik tənzimatını həyata keçirən, qoyuluş gücü 400-450 MVt olan və iki yanacaqla (qaz və mazut) işləyəcək xüsusi elektrik stansiya-sının tikilməsi və etibarlı birləşmə sxemi ilə enerjisistemə inteqrasiya edilməsi planlaşdırılır.



REAKTİV GÜCÜN KOMPENSASİYASI

"Azərenerji" reaktiv gücün kompensasiyası istiqamətində əhəmiyyətli layihə gerçəkləşdirərək Qarabağ və ətraf rayonları əhatə edən 330 kilovoltluq "Goranboy" Paylayıcı Məntəqəsində və respublikanın Şimal-Şərq rayonları, eləcə də Abşeron yarımadasını əhatə edən 330 kilovoltluq "Yaşma" yarımstansiyasında idarəolunan şuntlayıcı reaktorlar quraşdırır. Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində qoyulan şuntlayıcı reaktorlar yüksəkgərginlikli 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləməklə yanaşı rejim imkanlarını yaxşılaşdıracaq və bununla da reaktiv yükün kompensasiyasını təmin edəcək. İdarəolunan şuntlayıcı reaktorlar xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitlərinə qənaət etmiş olacaq.

Bununla yanaşı idarəolunan şuntlayıcı reaktorun quraşdırıldığı strateji əhəmiyyətli 330, 220, 110, 10 kilovoltluq "Yaşma" yarımstansiyası əsaslı şəkildə yenidən qurulur. Respublikanın Şimal-Şərq rayonlarının, eləcə də Abşeron yarımadasının enerji təchizatında mühüm əhəmiyyət kəsb edən, Rusiya və Azərbaycan enerjisistemləri arasında yük mübadiləsini həyata keçirən mühüm düyün nöqtəsi olan "Yaşma" yarımstansiyası 50 il əvvəl tikildiyindən istismar müddətini başa vurub və buna görə də tez-tez qısaqapanmalara, enerjisistemdə qəza vəziyyətinin yaranmasına səbəb olurdu. Bunun üçün müasir tələblərə cavab verən yeni avadanlıqlar quraşdırılmaqla, avtotransformatorlar daha güclüləri ilə əvəz edilir, açıq paylayıcı qurğular genişləndirilir. Yarımstansiyada müasir avadanlıqlarla təchiz ediləcək yeni inzibati idarəetmə binası tikilir. Onu da qeyd edək ki, "Yaşma" yarımstansiyasına yeni tikilən "Qobu" yarımstansiyasından 330 kV-luq hava xəttinin çəkilməsinə başlanılıb.

azərişıq
ASIQ SƏHMDAR CƏMİYYƏTİ

asan xidmət

azərişıq
ASIQ SƏHMDAR CƏMİYYƏTİ

ELEKTRİK ENERJİSİNİN
PAYLANMASI

nostikası
Elektrik avadanlıqlarının istismarında istif
nan
əsas və köməkçi mühafizə vasit



"İŞIQLI AZƏRBAYCAN" LAYİHƏSİNƏ APARAN ŞƏRƏFLİ YOL "BAKIELEKTRİKŞƏBƏKƏ" VƏ "AZƏRİŞIQ" ASC-NİN FƏALİYYƏTİ

Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı nailiyyətlərin, sürətli inkişaf prosesinin təməli ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş köklü islahatlara, möhkəm potensiala söykənir. Müdrik rəhbərimiz Azərbaycanda mükəmməl dövlətçilik ənənələrini formalaşdırmaqla yanaşı, bu ənənələri yeni dövrün tələbləri səviyyəsində yaşadacaq, müstəqil Azərbaycanı daha da möhkəmləndirəcək layiqli siyasi varisini yetişdirdi. Dövlətimizin əsaslarının möhkəmləndirilməsi, həyata keçirilən strategiyanın səmərəliliyi möhtərəm Prezidentimiz, cənab İlham Əliyevin varislik keyfiyyətləri, siyasi iradəsi, uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün oldu. Müasir cəmiyyətdə liderlik fenomeninin mühüm cəhətlərini özündə birləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr Azərbaycan tarixinə geniş islahatlar, sürətli inkişaf mərhələsi kimi daxil olaraq, müasir dövlətçilik salnaməmizin ən möhtəşəm və parlaq səhifələrini yazdı.

Hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanın daha da qüdrətlənməsinə yönəlib. Dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektroenergetika üzrə mükəmməl proqramlar hazırlanaraq uğurla icra olunur. Ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər elektrik enerjisinə olan tələbatı tam ödəməklə yanaşı, Azərbaycanın elektrik enerjisi ixracatçısı kimi potensialını daha da gücləndirib.

Qeyd edək ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrə qədər iqtisadiyyatın bütün sahələrində olduğu kimi, respublikamızın elektroenergetika sistemində, o cümlədən paytaxtın enerji təsərrüfatında böhranlı vəziyyət hökm sürürdü. Ümummilli Liderin rəhbərliyi altında enerji sistemini böhrandan çıxarmaq, onun maddi-texniki bazasını möhkəmləndirmək, dağıdılmış elektrik təsərrüfatını bərpa etmək üçün genişmiqyaslı tədbirlərə başlanıldı. Bakı şəhər elektrik şəbəkəsinin fəaliyyətini sağlamlaşdırmaq, paytaxtın elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə ulu öndər Heydər Əliyevin 14 iyun 2000-ci il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə" Açıq Tipli Səhmdar Cəmiyyəti yaradıldı. 2002-ci ilin yanvarında "Bakıelektrikşəbəkə" ATSC Türkiyənin "Barmek Holdinq A.Ş" MMC şirkətinə 25 il müddətinə

idarəet-məyə verildi. Səhmdar cəmiyyətin əlverişli şərtlərlə uzunmüddətli idarəetməyə verilməsi yeni texnologiyaların tətbiqi ilə şəbəkəni modernləşdirmək, paytaxtın elektrik təchizatında əsaslı dönüş yaratmaq zərurətindən irəli gəlirdi.

Lakin təəssüf ki, "Barmek Azərbaycan" şirkəti üzərinə götürdüyü öhdəliklərə əməl etmədi, bağlanılan müqavilənin şərtlərini pozdu. Uzun illər ərzində paytaxtın elektrik şəbəkəsinə əsaslı investisiyaların yatırılmaması, müasir texnologiya və avadanlıqların tətbiq edilməməsi, istehlakçıların elektrik enerjisi ilə təmin olunmasında ciddi qüsurlara yol verilməsi paytaxtın elektrik təchizatında böyük çətinliklər yaratdı. Həmin problemlərin getdikcə geniş miqyas alması və qüsurların aradan qaldırılması istiqamətində heç bir tədbir görülməməsi, istehlakçıların haqlı narazılıqları ölkə rəhbərliyinin diqqətindən yayınmadı. Bakı şəhərinin və ətraf qəsəbələrin elektrik enerjisi ilə təchizatında yaranan problemlərin aradan qaldırılması məqsədilə dövlətimizin başçısı tərəfindən müvafiq addımlar atıldı. Ölkə Prezidentinin 10 avqust 2006-cı il tarixli sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC-nin fəaliyyəti yenidən bərpa olundu.

"Məhəmmədi" yarımstansiyası

"BAKIELEKTRİKŞƏBƏKƏ" ASC-NİN BƏRPASI İŞIQLI YOLUN, DAVAMLI İNKİŞAF MƏRHƏLƏSİNİN BAŞLANĞICI

"Bakıelektrikşəbəkə"yə "Barmek Azərbaycan" şirkəti tərəfindən "ağır miras" qalmışdı. Səhmdar Cəmiyyət bütünlüklə pozulmuş təsərrüfatı, dağılmış sahəni tamamilə yenidən qurmalı idi. Yeni qurum rəhbərliyinin öz işinə vicdanla yanaşması, düşünülmüş addımlar bu çətin və şərəfli vəzifəni qısa müddət ərzində icra etməyə imkan verdi.

Bakı şəhərinin elektrik şəbəkəsi dövlət nəzarətinə qaytarıldıqdan sonra paylayıcı sahələr üzrə genişmiqyaslı islahat-lara başlanıldı. ASC-nin İdarə Heyəti Bakı şəhərinin enerjiyə olan tələbatını tam şəkildə təmin etmək, elektrik şəbəkələrini yenidən qurmaq, onları modernləşdirmək məqsədilə iki mərhələni nəzərdə tutan (2007-2009-cu və 2010-2020-ci illər) geniş inkişaf proqramı hazırladı. Həmçinin buna paralel olaraq bir neçə istiqamət üzrə yenidənqurma və əsaslı tikinti işlərinə start verildi. Bakı şəhərində elektrik təchizatının keyfiyyətini və etibarlılığını artırmaq məqsədilə 35 və 110 kV-luq yarımstansiyaların yenidən qurulması, 35 və 110 kV-luq yeni yarımstansiyaların, 10/0,4 və 6/0,4 kV-luq transformator məntəqələrinin tikilməsi, onların arasında dairəvi sxemlərin yaradılması məqsədilə elektrik verilişi xətlərinin çəkilməsi və

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında
Azərbaycan Respublikası Prezidentinin

Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti adlandırılsın.

2. Müəyyən edilsin ki, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının ərazisində elektrik enerjisini satın almaqla istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatını həyata keçirir, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. iki ay müddətində:

3.1.1. Azərbaycan Respublikasının ərazisində "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən elektrik enerjisi ilə istehlakçıların təmin olunması fəaliyyətinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə ötürülməsi, o cümlədən istehlakçıların elektrik enerjisi ilə təchizatı üçün zəruri olan və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlak və digər avadanlıqların "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin balansına verilməsi üçün tədbirlər görsün;

3.1.2. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin ümumi yığıncağının səlahiyyətlərini həyata keçirən dövlət orqanları barədə təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.3. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yeni Nizamnamələrinin və strukturlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti bu Sərəncamın 3.1.1-ci yarımbəndində göstərilənlərin yerinə yetirilməsi üçün tədbirlər görsün.

5. Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikasında bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan funksiyaları Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi həyata keçirir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 fevral 2015-ci il.

sayğaclaşma işlərinə başlanıldı. Mövcud şəbəkələrin əsaslı təmiri, yeni texnologiyaların tətbiqi ilə şəbəkələrin vahid mərkəzdən idarə olunması, mövcud şəbəkə ilə yeni qurulmuş şəbəkənin uyğunlaşdırılması kimi məsələlər tezliklə öz həllini tapdı. 10 il ərzində 50-yə yaxın ofis binası, yardımçı və texniki əhəmiyyətli bina və qurğular tikilib istifadəyə verildi, Azərbaycanda ilk dəfə 110 kV-luq dairəvi elektrik təchizat sistemi yaradıldı. İstehlakçıların fasiləsiz, dayanıqlı şəkildə elektrik enerjisi ilə təchizatı yüksək səviyyədə təmin edildi.

2006-cı ildən "Bakıelektrikşəbəkə" tərəfindən həyata keçirilən genişmiqyaslı tədbirlər, paytaxtın elektrik enerjisi ilə təminatında yaradılan yüksək xidmət, elmi-texniki nailiyyətlərdən səmərəli istifadə dövlət rəhbərliyi səviyyəsində yüksək qiymətləndirildi. "Bakıelektrikşəbəkə" ASC Prezident İlham Əliyev tərəfindən göstərilən etimadı doğrultduğu üçün şəbəkənin fəaliyyətinə yenidən baxıldı və bu fəaliyyətin təkcə Bakı və ətraf qəsəbələri deyil, bütövlükdə Azərbaycan ərazisini əhatə etməsi qərara alındı. Prezident İlham Əliyevin 10 fevral 2015-ci il tarixli 1045 saylı Sərəncamına əsasən, "Bakıelektrikşəbəkə" ASC-nin adı dəyişdirildi və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti yarandı. Ölkə Prezidentinin 10 fevral 2015-ci il tarixli sərəncamı ilə Baba Rzayev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edildi. "Bakıelektrikşəbəkə"nin təkcə Bakı və ətraf qəsəbələri deyil, bütün Azərbaycan ərazisini əhatə edən yeni bir quruma çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi və sosial siyasətin uğurlu nəticəsi idi.

"AZƏRİŞIQ" ASC-NİN FƏALİYYƏTİ "İŞIQLI AZƏRBAYCAN" LAYİHƏSİNİN REALLAŞDIRILMASI

Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması və bu işin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə tapşırılması şərəfli iş olmaqla yanaşı, son dərəcə məsuliyyətli missiya idi. "Azərişıq" ASC paytaxtda həyata keçirdiyi quruculuq işlərini bütün Azərbaycan ərazisində davam etdirməyə, ölkəmizin ən ucqar yaşayış məntəqələrinin nura qərq olması naminə əzmlə işə başladı.

Yeni qurum təsis edildikdən sonra respublikamızın 57 rayon və şəhərini əhatə etməklə, 8 Regional Enerji Təchizatı Satış İdarəsi - Bakı, Şimal, Cənub, Şimal-Qərb, Aran, Mərkəzi Aran, Qərb, Şirvan Regional Enerji Təchizatı və Satış idarələri yarandı. Qarşıya istehlakçıları keyfiyyətli elektrik enerjisi ilə təchiz etmək, yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın

"Hacıqabul" yarımstansiyası

müasirləşdirilməsi, elektrik enerjisinin texnoloji sərfiyyatını minimum səviyyəyə endirmək kimi mühüm missiya qoyuldu.

"Azərişıq"ASC-nin rəhbərliyi qısa müddət ərzində regionlardakı elektrik şəbəkələrinin mövcud vəziyyətini hərtərəfli təhlil etdi, istehlakçıların dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün dörd hissədən ibarət "İnkişaf və Yenidənqurma Proqramı" hazırlayaraq uğurla həyata keçirdi. Səhmdar Cəmiyyət paytaxtda olduğu kimi, ölkəmizin regionlarını da gözəl memarlıq quruluşlu ofis binaları ilə təmin etdi. Yarımstansiya binalarının layihələndirilməsi, tikintisi və rekonstruksiyası zamanı kompleks tələblər, məsələn, təbii-iqlim, geoloji, geomorfoloji məsələlər də nəzərə alındı. Yeni ofis binalarında əməkdaşlar üçün hər cür şərait yaradıldı, iş otaqları energetika sahəsinə aid müasir avadanlıqlar, kompüter texnikası və sürətli internetlə təmin edildi.

Qısa müddət ərzində Bakının Xətai rayonunda 35/6-10 kV-luq 220 saylı yarımstansiyanın və Bakı Paylayıcı Şəbəkəsinin inzibati binasının tikintisi başa çatdırıldı. Yarımstansiyada müasir tipli vakuum və eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri quraşdırıldı. "Bakı" RETSİ üzrə 35/6 kV-luq 86 və 87 saylı müasir tipli qapalı yarımstansiyalar

inşa edildi. Nərimanov rayonunda 35/10 kV-luq 219 saylı və 35/6 kV-luq 221 saylı yeni yarımstansiyalar istismara verildi. 227, 215 saylı və "Yurdum Araz" yarımstansiyalarına ikidövrəli 35 kV-luq kabel xətti çəkilməklə 219 və 221 saylı yarımstansiyalar dairəvi təchizat sxeminə daxil edildi. Qəsəbələrin elektrik təchizatını yaxşılaşdırmaq məqsədilə 35/10 kV-luq "Məhəmmədi" və 35/6 kV-luq "Fatmayı" yarımstansiyaları tikildi.

"Şimal" RETSİ üzrə Sumqayıt ərazisində əhalinin dayanıqlı və keyfiyyətli enerji ilə təmin olunması məqsədilə 35/10 kV-luq 138 A saylı yarımstansiya istismara verildi. Xaçmaz rayonunda "Seyidli" (Nabran-2), Şabranda "Dağbilici", Quba rayonunda "Təngəaltı", Qəçrəş massivində 35/10 kV-luq yarımstansiyalar quraşdırıldı.

2015-2018-ci illərdə "Şimal-Qərb" RETSİ-nin xidməti ərazisində 110/35/10/6 kV-luq 16 yarımstansiya yenidən quruldu, 5 ədəd avtomatik idarəetmə mərkəzi, müasir standartlara cavab verən 110/35/10 kV-luq 4 yarımstansiya tikildi, 35/10 kV-luq 8 yarımstansiya istifadəyə verildi, 287 transformator məntəqəsi quraşdırıldı. İki il ərzində Qax, Qəbələ, İsmayıllı, Şəki və Oğuz rayonlarında müasir memarlıq üslubunda yeni ofis binaları tikilərək istifadəyə verildi. Həyata keçirilən geniş yenidənqurma

"Alvadı" yarımstansiyası

tədbirləri nəticəsində texniki itkilərin həcmi azaldı, elektrik enerjisinin yığım faizi yüksəldi.

"Aran" RETSİ üzrə 110 kilovoltluq I və II "Beyləqan" hava xətlərində aparılan işlər nəticəsində Beyləqan və Füzuli rayonlarının ikitərəfli elektrik enerjisi təchizatı təmin edildi. 2017-ci ildə 35/10 kV-luq "Zərdab" yarımstansiyasında yenidənqurma işləri həyata keçirildi. Həmçinin İmişli rayonu ərazisində 5 yaşayış məntəqəsini və rayon mərkəzinin bir hissəsini elektrik enerjisi ilə təmin edən 35/10 kV-luq "Rəsullu" yarımstansiyası yenidən quruldu.

"Mərkəzi Aran" RETSİ üzrə də abonentlərə xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi. Ağsu rayonunda 110 kilovoltluq 3 və Ağdaş rayonunda 35 kilovoltluq 8 yarımstansiya tikildi. RETSİ üzrə 490 yeni transformator məntəqəsi quraşdırıldı, 5700 transformator məntəqəsi əsaslı təmir olundu. Görülmüş işlər nəticəsində texniki itkilər 13,5 faizdən 11,1 faizə endi, elektrik enerjisinin satışında yığım 65,5 faizdən 94,1 faizə yüksəldi.

"Nizami" yarımstansiyası

"Bəhmətli" yarımstansiyası

"Qərb" RETSİ-nin xidməti ərazisində 4 ədəd 110 kV-luq "Daş Salahlı", "Yenikənd", "Gədəbəy" və Yeni Gəncə" yarımstansiyaları, 9 ədəd 35 kV-luq yarımstansiya yenidən qurularaq istifadəyə verildi. Həmçinin 35 kV-luq "Vağzalyanı-1", "Şəmkir-2" və "Məhsəti" yarımstansiyaları inşa olundu, 394 ədəd KTM quraşdırıldı. "Şirvan" RETSİ üzrə tikilən yarımstansiyalarda da çoxfunksiyalı, kompakt və daha az elektrik enerjisi itkilərinə malik müasir avadanlıqlar quraşdırıldı. Yeni tikilən və əsaslı şəkildə qurulan yarımstansiyalar SCADA sisteminə qoşuldu.

Respublikanın paylayıcı elektrik şəbəkələrində yeni güc mərkəzlərinin yaradılması, bütün yaşayış məntəqələrinin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində işlər getdikcə sürətləndi. Bütün ölkə ərazisində yeni yarımstansiyaların inşa edilməsi, mənəvi və fiziki baxımdan köhnəlmiş yarımstansiyaların yenilənməsi istiqamətində mühüm layihələr gerçəkləşdirildi.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında

35/10-6 kV-luq 220 saylı yarımstansiya

alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əlavə tədbirlər haqqında" 22 dekabr 2017-ci il tarixli Sərəncamına əsasən, Xızı rayonu, Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən külək elektrik stansiyası (KES) parkları "Azərişıq" ASC-nin balansına verildi. ASC bu enerji müəssisələrini təhvil aldıqdan sonra geniş yenidənqurma işlərinə başladı, turbinlərin işlək vəziyyətə gətirilərək tam gücü ilə işləməsi təmin edildi. KES-1-də istehsal olunan elektrik enerjisinin etibarlı sxem üzrə ötürülməsi üçün 110 kV-luq 4-cü "Yaşma" hava xəttinin giriş-çıxış sxemi stansiyaya qoşuldu. KES-1 ilə "Sitalçay" yarımstansiyaları arasında 54 km məsafədə 110 kV-luq birdövrəli hava xətti çəkildi. 2018-ci ilin oktyabrında Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində "Yeni Yaşma" Külək Elektrik Stansiyası istismara verildi.

Bütün işləri keyfiyyətli və hərtərəfli görməyi prioritet hesab edən "Azərişıq" külək elektrik stansiyasının istismara verilməsində də ənənəvi prinsiplərinə sadiq qaldı. ASC təkcə KES-i istismara verməklə kifayətlənmədi, eyni zamanda ərazini qrunt sularından təmizlədi, geniş abadlıq və yaşıllaşdırma işlərini həyata keçirdi, zeytun və badam bağları saldı.

Bu gün "Azərişıq" ASC öz missiyasını – paylayıcı şəbəkələrin

dünya standartlarına cavab verən yeni texnologiyaların tətbiqi ilə müasirləşdirilməsi, istehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi prosesini şərəflə yerinə yetirir. Dövlətimizin başçısının dəstəyi ilə respublikamızın rayon və şəhərlərində paylayıcı elektrik şəbəkələrinin bərpası və yenidən qurulması işləri uğurla davam etdirilir.

110/35/10 kV-luq "Ağ şəhər-2" yarımstansiyası


R U S S I Y A
X ə z ə r
Mingəçevir su anbarı
ŞƏKİ ES 87 MVt
ŞƏMKİR SES 380 MVt
Meşakanal 1 YS
YENİKƏND SES 150 MVt
SAMUR YS
AZƏRBAYCAN İES 2400 MVt
MİNGƏÇEVİR SES 425 MVt
VARVARA SES 16.5 MVt
ŞƏMKİRÇAY SES 26 MVt
GƏNCƏ YS
Alabaşlı YS
Göyçay 2 YS
Kürəçay YS
Goran YS
Mingəçevir darb YS
Yevlax YS
Şahdağ YS
Lazə YS
ŞAHDAĞ TURİZM KOMPLEKSİ 10.5 MVt
Qusar YS
Quba YS
Xudat YS
Soyub YS
Qonaqkənd YS
OĞUZ - 1, 2 SES 2.2 MVt
QƏBƏLƏ YS
İSMAYILLI 1, 2 SES 3.2 MVt
Hacılı YS
Şamxor YS
AĞDAŞ YS
GOYÇAY 1 SES 3.3 MVt
Göyçay YS
1-ci Abşeron 242.8 km
2-ci Abşeron 250.54 km
1-ci Ağdaş 70.4 km
ABŞERON YS
YAŞMA YS
Terter YS
Çəmənli YS
Tezəkənd YS
Şıxlar YS
Zurnabad YS
AĞDAM YS
Ağdam YS
Mollakənd YS
Sırxavənd YS
Xocalı YS
Xankəndi YS
Kocavənd YS
Şuşa YS
Türkəy YS
Laçın YS
Dövlətyarlı YS
Pozuk YS
Şıxlar YS
Şıxlarbəyli YS
Qozluçay YS
B A Y C A N
Kürdəmir YS
Dəyirman YS
Sığaş YS
Qaraşu YS
Kompressor YS
Cavad YS
Muradxanlı YS
Sabirabad YS
Xalfəli YS
Mücəlli YS
Muğan 1 YS
Muğan 2 YS
Cəmilli YS
Sol sahil YS
ŞİRVAN İES 480 MVt
Saatlı darb YS
Sərcalar YS
İMİŞLİ YS
Şəkər z. YS
Y.mişli YS
Bəhramtəpə YS
3-cü Şirvan 87.4 km
5-ci Şirvan 83 km
DÖRVUŞ ES
MUĞAN YS
GÜNEŞ ES 20 MVt
NAXÇIVAN ES 87 MVt
ARAZ SES 22+22 MVt
BİLƏV SES 20 MVt
VAYXIR SES 5 MVt
KOY İES 350 MVt
Təbriz YS
TƏBRİZ İES 700 MVt
URMİYA İES 660 MVt
SONASS İES 600 MVt
ƏRDƏBİL İES 600 MVt
LERİK ES 16.5 MVt
ASTARA 1 SES 0.5 MVt
ASTARA ES 87 MVt
ASTARA YS
PUREL YS
Rəşt YS
A N

BEYNƏLXALQ ƏLAQƏLƏR,

QARŞIYA QOYULAN HƏDƏFLƏR

RUSİYA
GÜRCÜSTAN
İRAN
Mingəçevir su anbarı
GÖYÇƏ GÖLÜ

DÖVLƏT BAŞÇISININ QARŞIYA QOYDUĞU HƏDƏFLƏRƏ ÇATMAQ

Elektroenergetika təhlükəsizliyini təmin etmiş ölkəmiz artıq 2007-ci ildən başlayaraq qonşu dövlətlərə elektrik enerjisi ixrac edən ölkəyə çevrilib. Beləliklə, dünya energetika bazarında Azərbaycanın getdikcə artan rolu onun geosiyasi təsirini də artırmaqdadır. Azərbaycan 2011-cü ilin noyabr ayında "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaqla, bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılmasına start verib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün sahələr üzrə beynəlxalq əlaqələrin səmərəli dostluq və əməkdaşlıq çərçivəsində dinamik inkişafına, münasibətlərin müsbət konteksində davam etdirilməsini qarşıya əsas məqsəd kimi qoyub. Bütün bunları nəzərə alaraq Azərbaycan milli enerji sistemi də perspektivlər ilə bağlı qarşıya qoyulan hədəflərə çatmaq məqsədilə beynəlxalq əlaqələrinin miqyasını daha da genişləndirir.

Azərbaycan eyni zamanda beynəlxalq arenada öz enerji siyasətinin uğurla həyata keçirir və inkişaf etdirir. Artıq Azərbaycan Avropa İttifaqı ölkələrinin daxil olduğu bir sıra beynəlxalq təşkilatların, o cümlədən ATƏT, "Şərq Tərəfdaşlığı", QDİƏT, GÜAM-ın fəal üzvlərindəndir.

Azərbaycan Respublikasının Rusiya Federasiyası, Gürcüstan Respublikası, İran İslam Respublikası və Naxçıvan Muxtar Respublikası tərəfindən Türkiyə dövlətinin enerji sistemləri ilə sıx əlaqəsi mövcuddur. Bu, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda sülhün, sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına şərait yaradan ciddi amillərdən biridir. Hazırda həmin ölkələrlə elektrik enerjisi mübadiləsini həyata keçirir, qarşılıqlı əməkdaşlıq pik saatlarda elektrik enerjisinin paralel olaraq ötürülməsini təmin edir, xarici enerji bazarlarına çıxış imkanları öyrənilir və elektrik enerjisinin xarici bazarlarda satışını həyata keçiririk.

Azərbaycanın enerji sistemi Rusiya VES ilə vahid sinxron zonasında paralel iş rejimində fəaliyyət göstərir. Tərəflər arasında qarşılıqlı münasibətlər Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında elektroenergetika sahəsində əməkdaşlıq haqqında 07.10.1995-ci il tarixli Dövlətlərarası Sazişə əsasən həyata keçirilir.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının

AzərEnerji
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

enerjisistemləri arasında münasibətlər, müvafiq iqtisadi əməkdaşlıq üzrə müştərək Hökumətlərarası Komissiyanın qərarları ilə Tərəflər arasında bağlanmış paralel iş haqqında Müqavilə, elektrik enerjisinin alqı-satqı Müqavilələri və qəza hallarında elektrik enerjisinin ötürülməsi haqqında Müqavilələr əsasında tənzimlənir.

2001-ci ilin dekabr ayından etibarən Tərəflər arasında elektrik enerjisinin idxalı və ixracı yalnız kommersiya xarakteri daşıyır. 2007-ci ildən başlayaraq Rusiya Federasiyasına ixrac olunan elektrik enerjisinin həcmi dinamik olaraq artmış və Azərbaycan enerjisistemi müsbət saldo ilə işləyir.

Azərbaycan və Rusiya enerjisistemləri iki dövlətlərarası EVX-ləri vasitəsilə birləşdirilib. Bunlar 330/110 kV-luq "Xaçmaz" (AR) və 330/110 kV-luq "Dərbənd" (RF) yarımstansiyalarını birləşdirən 330 kV-luq "Abşeron-Dərbənd" EVX və 110/35 kV-luq "Yalama" (AR) və 110/35 kV-luq "Bilici" (RF) yarımstansiyalarını birləşdirən 110 kV-luq "Yalama" EVX-dir. Rusiya istiqamətində elektrik enerjisinin ötürülmə gücü 350 MVt ətrafındadır.

"Azərenerji" ASC ilə Rusiya Federasiyasının "İNTER RAO EES" şirkəti ilə normal və qəza şəraitində elektrik enerjisinin idxal və ixrac olunması üzrə müqavilə imzalanıb. Rosseti (FSK) şirkəti ilə idxal-ixrac prosessinin texniki tərəfindən icrası üzrə əməkdaşlıq edilir. Eyni zamanda sistemdə qəza baş verərsə, ehtiyac yarandığı anda dərhal o ölkənin elektrik enerjisi ilə

təmin olunmasına kömək göstərilir.

Azərbaycan Respublikası və Gürcüstan arasında 27.12.1997-ci il tarixində imzalanmış "Elektroenergetika sahəsində əməkdaşlıq haqqında" dövlətlərarası razılaşmaya əsasən, Tərəflərin enerjisistemləri arasında "Gürcüstan və Azərbaycan enerjisistemlərinin paralel işləməsi haqqında" Müqavilə (05.08.1998-ci il tarixində) bağlanıb. Azərbaycan və Gürcüstan enerjisistemləri arasında münasibətlər, müvafiq iqtisadi əməkdaşlıq üzrə müştərək Hökumətlərarası Komissiyanın qərarları ilə Tərəflər arasında bağlanmış paralel iş haqqında Müqavilə, elektrik enerjisinin alqı-satqı Müqavilələri və qəza hallarında elektrik enerjisinin ötürülməsi haqqında Müqavilələr əsasında tənzimlənir.

Gürcüstan Respublikasının "Elektroenergetika sisteminin kommersiya operatoru" MMC və "Azərenerji" ASC arasında 2011-ci ilin sentyabr ayında yeni müqavilə şərtləri ilə "Qəza hallarında Gürcüstandan Azərbaycan Respublikasına elektrik enerjisinin tədarükü", "Qəza hallarında Azərbaycan Respublikasından

Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında müqavilə imzalanması mərasimi, 6 aprel 2021-ci il


bilisi DRES
300 MVt
Qardabani 63,8 km
(sərhədə qədər 23,6 km)
Böyükkəsik YS
Muganlı YS
Şıxlı YS
Soyuqbulaq YS
Daşsalahlı YS
Poylu YS
Ceyranç YS
Güneşli
Ceyrançöl 2 YS
Ayrum
Qazax YS
AĞSTAFA YS
Qazax d. YS
Ağstafa YS
S.Vurğun

330 kV-luq “Ağstafa-Qardabani” elektrik verilişi xətti

Gürcüstana elektrik enerjisinin tədarükü" və "Gürcüstan və Azərbaycan enerji sistemləri arasında elektrik enerjisinin idxalı və ixracı haqqında" müqavilələr imzalanıb. Gürcüstan Dövlət Enerji Sistemi ilə Enerjinin ötürülməsi işləri üzrə əməkdaşlıq edilir.

"Azərbaycan-Gürcüstan-Türkiyə enerji körpüsü layihəsi" çərçivəsində Azərbaycan tərəfindən ötürülmə gücü 650 MVt təşkiledən 500 kV-luq "Samux-Qardabani" EVX çəkilib, Gürcüstan tərəfindən isə 500/400/220 kV-luq "Axalçixe" yarımstansiyası və Gürcüstanı Türkiyə ilə birləşdirən 400 kV-luq EVX-in tikintisi başa çatdırılıb və 2013-cü ilin sonunda istismara buraxılıb. 2016-cı ilin fevral ayından başlayaraq 500 kV-luq "Samux-Qardabani" EVX vasitəsilə elektrik enerjisinin ötürülməsinə başlanılıb. Azərbaycan və Gürcüstan enerjisistemləri arasında 2-ci hava elektrik verilişi xətti isə 1958-ci ildə tikilib istismara verilən 220 kV-luq qabaritli birdövrəli EVX uzunluğu 44 km, dayaqlarının sayı 158 ədəd olan iki dövrəli 330 kV-luq "Ağstafa-Qardabani" EVX yenidən inşa edilib.

Azərbaycan və Türkiyə energetika sistemləri arasında üç hava elektrik verilişi xətləri (154 kV-luq "İqdır-Naxçıvan 1", 154 kV-luq "İqdır-Naxçıvan 2" və 34,5 kV-luq "Sədərək") mövcuddur. Türkiyə Respublikası "Azərenerji" ASC-nin Türkiyədəki törəmə müəssisəsi olan "Global Power" şirkəti vasitəsilə Türkiyədə enerji satışını və Avropanın bəzi ölkələrinə enerji ixracını həyata keçirir.

2001-ci ilin fevral ayından başlayaraq, 230 kV-luq "İmişli-Parsabad" EVX-nın istismara verilməsi ilə "Azərenerji" ASC (AR) və "Tavanir" Şirkəti (İİR) arasında imzalanmış "Elektrik enerjisinin mübadiləsi və tranziti barədə" Müqaviləyə (24.01.2001-ci il) əsasən İran İslam Respublikasına elektrik enerjisi ixracı həyata keçirilir. 2018-ci ildə isə alqı-satqı müqaviləsi imzalanıb. Naxçıvan MR-dan İrana ötürülən elektrik enerjisi ancaq enerji mübadiləsi şəklində həyata keçirilir.

Azərbaycan Respublikası (AR) ilə İran İslam Respublikasının (İİR) enerji sistemləri arasında elektrik enerjisi mübadiləsi hal-hazırda istismarda olan beş elektrik verilişi xətti (EVX) – "Azərenerji" ASC-nin balans mənsubiyyətində olan 330 kV-luq "Muğan", 230 kV-luq "İmişli" EVX və 110 kV-luq "Astara-Astara" EVX və Naxçıvan DEX-in balans mənsubiyyətində olan 132 kV-luq "Araz-Araz" və 132 kV-luq "Culfa-Culfa" EVX-ləri vasitəsilə həyata keçirilir. Hal-hazırda strateji əhəmiyyətli 220 kV-luq "Masallı yarımstansiyası – Astara (İİR)" hava xəttinin tikintisi tamamlanıb. İran istiqamətində ötürmə gücü 550 MVt təşkil edir.


Masalı YS
MASALLI
Masalı SES
0.3 MVt
Yeni Yardımlı YS
Yardımlı YS
Şingəduran YS
LERİK ES
16.5 MVt
Boradigah YS
Lənkəran 1 YS
Asfalt z. YS
Lənkəran 2 YS
Savalan YS
ASTARA 1 SES
0.5 MVt
ASTARA ES
87 MVt
Astara YS
ASTARA YS
TAğı-Dizə - Astara
73 km

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 2021-ci il tarixli 134s nömrəli Sərəncamına əsasən İran dövləti ilə müştərəktikiləcək "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi və istismara qəbulu işlərinin Azərbaycan Respublikası tərəfindən sifarişçisi «Azərenerji» ASC müəyyən edilib. Hidroqovşaqların və su elektrik stansiyalarının tikintisi layihəsi çərçivəsində görüləcək işlərin smeta xərclərinin hesablanması, işlərin icra qrafiki, ehtimal olunan qiymətin müəyyən edilməsi məqsədi ilə «Azərenerji» ASC Türkiyənin «SİBA» məsləhətçi şirkəti ilə müqavilə bağlayıb.

Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində yerləşən 100 MVt (50x2) gücündə "Xudafərin" və 40 MVT (40x2) gücündə "Qız qalası" su elektrik stansiyalarının tikintisi davam edir.

Tikinti işləri başa çatdırıldıqdan sonra yaradılacaq 330 kV-luq şəbəkə vasitəsilə enerjisistemə inteqrasiya edilməsi təmin ediləcək.

29 dekabr 2020-ci il tarixində Energetika Nazirliyi və "Azərenerji" Səhmdar Cəmiyyəti ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi ilə bağlı "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. 6 aprel 2021-ci il tarixində isə Energetika Nazirliyi və "Azərenerji" ASC ilə Birləşmiş

Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə “İnvestisiya müqaviləsi”, “Enerji alqı-satqı müqaviləsi” və “Ötürücü şəbəkəyə qoşulma müqaviləsi” imzalanıb.

Bu müqavilələrdən əlavə olaraq, elektrik enerjisinin idxal-ixracının və tranzit əməliyyatlarının həyata keçirilməsi məqsədilə “Azərenerji” ASC və “ElGreen Holdings İn” şirkəti (BƏƏ) arasında da iki müqavilə bağlanıb.

Bütün bunları nəzərə alaraq, beynəlxalq əlaqələrin genişləndirilməsi məqsədi ilə “Azərenerji” ASC qonşu və Avropa ölkələri ilə enerji mübadiləsi istiqamətində yeni layihələrin həyata keçirilməsi istiqamətində öz işini günün tələbləri səviyyəsində qurur. Belə ki, beynəlxaq (tranzit) elektrik verilişi xətlərinin çəkilməsi və yenidən qurulması istiqamətində görülən işləri hədəfləmək prioritet vəzifələrdən biridir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xarici ölkələrlə beynəlxalq enerji mübadiləsi, yeni enerji layihələrinin həyata keçirilməsi məsələsinin daim diqqət mərkəzində saxlanılması və inkişaf etdirilməsini tövsiyə edir.

"Masallı-Astara" hava xətti

"Masallı-Astara" hava xətti

AZƏRBAYCAN ENERJİSİSTEMİNİN 2003 - 2020-Cİ İLLƏR ÜZRƏ
İDXAL - İXRAC GÖSTƏRİCİLƏRİ

№	Göstəricilər	Ölçü vahidi	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
1.	**Elektrik enerjisinin idxalı:**	mln.kVts	**2436,3**	**2373,1**	**2081,5**	**1766,2**	**547,9**	**215,9**	**110,1**	**99,8**	**128**	**140,9**	**127,3**	**124**	**107,5**	**65,9**	**65,2**	**99,3**	**103**	**106,8**
	Rusiya		1454,2	1375,8	1002,3	755,3	245,6	111,3	21,2	17,8	44,2	55,8	57,4	53,1	54,8	59,6	63,4	76,1	90,8	88,8
	İran		547,9	618,6	656	630,7	177,7	73,7	67,35	67,2	58,4	60,4	63	62,9	52,7	0,9	0,1	0	0	0
	Türkiyə		401,5	378,7	402,6	325,7	14,9	0	0,08	0,4	19,4	12,9	0,2	0,1	0,008	0	0	0	0	0
	Gürcüstan		32,7	0	20,7	54,4	109,6	30,9	21,47	14,3	5,9	11,8	6,6	8	0.015	5,4	1,7	23,1	12,1	17,9
2.	**Elektrik enerjisinin ixracı:**	mln.kVts	**870,8**	**1008**	**879,4**	**878,9**	**786**	**811,6**	**379,7**	**462,4**	**804,8**	**680,3**	**495,6**	**489,3**	**265**	**1046**	**1239,9**	**1413,2**	**1456,7**	**1121**
	Rusiya		317	271,1	275,4	317,1	320,6	335,5	158	202,6	391,6	240,8	128,6	134,3	108,4	120,1	117,3	121,4	218,6	118,5
	İran		553,7	736,8	583,3	541,9	342,6	347,5	64,8	93,4	60	64,6	66,7	68,2	54,9	2,9	0	48,3	0	174,4
	Gürcüstan		0	0	20,7	19,6	107,4	34,6	31,6	10,3	23,4	97,5	23,9	184,2	101,7	109,5	917,4	1230,1	1139,8	726,3
	Türkiyə + Tranzit "Global Power TEETSAŞ":		**-**	**-**	**-**	0,2	15,3	94	125,3	156,1	329,9	277,4	276,7	102,7	0	813,4	205,9	13,4	98,3	101,8
	Türkiyəyə		**-**	**-**	**-**	0,2	15,3	94	125,3	156,1	329,9	277,4	276,7	102,7	0	813,4	205,9	13,4	80,7	101,8
	Global Power TEETSAŞ SC		**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**-**	**17,55**	**0**

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR

GIRIŞ
QADAGANDIR

YÜKSƏK GƏRGİNLİK

"QARABAĞ ENERJİ LAYİHƏSİ"

Azərbaycan Ordusu 44 günlük 2-ci Qarabağ müharibəsi zamanı Ermənistanın təxribatlarına qarşı əks-hücum əməliyyatlarını uğurla həyata keçirərək torpaqlarımızı işğaldan azad etdi. İşğal edilmiş bütün torpaqlarımızda vandalizm aktları törədilmiş, tarixi abidələr, məscidlər, yaşayış binaları, idarə və müəssisələr, məktəb və bağçalar, sənaye və məişət obyektləri tamamilə dağıdılmış, xarabalığa çevrilmişdi. Ağdam, Füzuli şəhərləri, kəndlər yoxdur, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərlərində erməni əsgərlərin yaşaması üçün tək-tək bina qalıb. Kəlbəcər və Laçın rayonlarında qanunsuz məskunlaşan ermənilər o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində bütün dünyanın gözü qarşısında evləri, meşələri kəsib, qırıb, yandırıb oranı da məhv etdilər, vandalizm aktları törətdilər. Bu vəhşiliyin, bu qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur.

İşğal dövründə bütün sahələrdə olduğu kimi Azərbaycanın enerjisisteminə də küllü miqdarda ziyan dəydi.

Terroru dövlət siyasətinə çevirmiş Ermənistan 44 günlük

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərində elektronergetika sisteminə - təsərrüfatlara, texniki avadanlıqlara, maşın və mexanizmlərə, kommunikasiya xətlərinə və digər sistemlərə, həmin sistemin müəssisələrində çalışan mülki əhaliyə (əmək haqları daxil edilməklə) Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində xeyli ziyan vurulmuşdur.

"Azərenerji" ASC-nin Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərinin işğal olunmasından əvvəl bu ərazilərdə aşağıdakı elektroenergetika infrastrukturları mövcud idi:

I. Elektrik enerjisinin istehsalı üzrə:

1. 1976-cı ildə tikilib istismara təhvil verilmiş 50 MVt gücündə "Tər-Tər" (Sərsəng) Su Elektrik Stansiyası.
2. 1992-ci ildə işğal olunduqdan sonra tikintisi dayandırılmış 100 MVt gücündə nəzərdə tutulmuş Xudafərin su elektrik stansiyası.

II. Elektrik şəbəkələri üzrə:

Ümumi gücü 858,6 MVA olan yüksəkgərginlikli yarımstansiyalar:

1. "Ağdam" - 330/110 kV gərginlikli, 200 + 2x125 MVA
2. "Ağdam-1" - 110/35/10 kV gərginlikli, 2x40 MVA
3. "Ağdam-2" - 110/35/10 kV gərginlikli, 2x25 MVA
4. "Füzuli" - 110/35/10 kV gərginlikli, 2x25 MVA
5. "Xankəndi" - 110/35/10 kV gərginlikli, 2x16 MVA
6. "2-ci Əlibəyli" - 110/10 kV gərginlikli, 16 + 2x6,3 MVA
7. "Cəbrayıl" - 110/35/10 kV gərginlikli, 16 + 10 MVA
8. "Qubadlı" - 110/35/10 kV gərginlikli, 16 + 6,3 MVA
9. "Zəngilan" - 110/35/10 kV gərginlikli, 2x10 MVA
10. "Laçın" - 110/35/10 kV gərginlikli, 10 + 5,6 + 2,5 MVA
11. "Xocavənd" - 110/35/10 kV gərginlikli, 10 + 7,5 MVA
12. "Şuşa" - 110/35/10 kV gərginlikli, 2x6,3 MVA
13. "Yeni Kəlbəcər" - 110/35/10 kV gərginlikli, 2x6,3 MVA
14. "Mollalar" - 110/10 kV gərginlikli, 10 MVA
15. "Sırxavənd" - 110/35/10 kV gərginlikli, 6,3 MVA
16. "Qaraxanbəyli" - 110/10 kV gərginlikli, 6,3 MVA
17. "Kəlbəcər" - 110/35/10 kV gərginlikli, 5,6 MVA
18. "Turşsu" - 110/10 kV gərginlikli, 5,6 MVA
19. "Zülfuqarlı" - 110/10 kV gərginlikli, 2,5 MVA
20. "Dövlətyarlı" - 110/10 kV gərginlikli, 2,5 MVA

Yüksəkgərginlikli elektrik verilişi xətləri:

1. Uzunluğu 81 km olan 330 kV-luq xətt.
2. Uzunluğu 690 km olan 110 kV-luq xətt.
3. Uzunluğu 615 km olan 35 kV-luq xətt.

Alçaq gərginlikli paylayıcı elektrik şəbəkələri:

1. Ümumi 245,7 MVA gücündə 2435 ədəd 10/0,4 kV-luq transformator.
2. Uzunluğu 6197 km olan 10 kV-luq elektrik verilişi xətləri.
3. Uzunluğu 8865 km olan 0,4 kV-luq elektrik verilişi xətləri.

Elektroenergetika sektoru üzrə dəqiq qiymətləndirmə BMT-nin ekspertləri ilə birlikdə ərazilər işğaldan azad olunduqdan sonra həqiqi vəziyyət nəzərə alınmaqla yerinə yetiriləcəkdir.

müharibə zamanı Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan "Azərbaycan" İES-i, ölkəmizin ən böyük su elektrik stansiyası olan "Mingəçevir" SES-i də davamlı hədəfə almışdı. Yaşayış məntəqələrimizin raket atəşinə tutulması elektrik qurğularının və müxtəlif gərginlikli elektrik xətlərinin vurulması faktları ilə müşayiət olundu.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ORDU və XALQ bir yumruq altında birləşib torpaqları işğaldan xilas etdi.

İşğaldan azad edilən ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq "Azərenerji" ASC tərəfindən bütün istiqamətlərdə genişmiqyaslı işlər həyata keçirilir.

"Azərenerji" ASC tərəfindən Qarabağ və ətraf rayonlarda elektroenergetika infrastrukturunun yaradılması, bu ərazilərdə elektrik enerjisinin istehsalı və ötürülməsi ilə əlaqədar mövcud obyektlərin bərpası və yenilərinin tikilməsi üzrə 2 hissədən ibarət "Qarabağ Enerji Layihəsi" hazırlanmışdır. Layihənin birinci hissəsində Qarabağ və ətraf rayonlarda yeni güc mərkəzlərinin yaradılması məqsədi ilə müasir texnologiyalar əsasında yeni yarımstansiya və elektrik verilişi xətlərinin tikilməsi və onların enerjisistemə birləşdirilməsi nəzərdə tutulmuşdur.

İlkin olaraq dövlət səviyyəsində azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələri üzrə böyük potensiala malik olan rayonlar ayrı-ayrılıqda nəzərdən keçirilir, həmin rayonlarda külək və günəş enerjisi üzrə dəqiq potensialın müəyyən edilməsi üçün müşahidələr aparılır, texniki imkanlar və iqtisadi səmərəlilik qiymətləndirilir. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarının ərazisində yüksək günəş enerjisi potensialına malik sahələrin seçilməsi, daha sonra Kəlbəcər və Laçın rayonlarının külək enerjisi resurslarının nəzərdən keçirilməsi diqqət mərkəzindədir. Bundan başqa Azərbaycanda 25% yerli su ehtiyatlarının Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı məqsədi ilə istifadə perspektivləri nəzərdən keçirilir, regionda mövcud olan kiçik su elektrik stansiyaları, əsasən Tərtər, Laçın və Kəlbəcər rayonlarının ərazisində yerləşir. Bu ərazilərin bərpası üçün başlıca vəzifə həmin sahələrin minalardan təmizlənməsidir. Bütün ərazilərin, şəhərlərin bərpası ilə əlaqədar vahid konsepsiya olmalıdır.

Hazırda "Qarabağ Enerji Layihəsi"nə əsasən, işğaldan azad olunmuş ərazilərdə xüsusi əhəmiyyətli strateji obyektlərin elektrik təchizatı şəbəkəsinin yaradılması istiqamətində təxirəsalınmaz tədbirlər görülür.

Layihənin 1-ci mərhələsi üzrə 110/35/10 kV-luq "Şuşa", "Füzuli", "Kəlbəcər" yarımstansiyaları tikilərək istismara verilib. 110 kV-luq "Şükürbəyli" yarımstansiyası ilə "Şuşa" yarımstansiyası arasında qidalandırıcı ikidövrəli 110 kV-luq 1-ci və 2-ci "Şuşa" hava xətlərinin tikintisi və 110 kV-luq "Şükürbəyli" yarımstansiyası yenidən qurularaq, 110 kV-luq ikidövrəli "Daşkəsən-Kəlbəcər" hava xətlərinin tikintisi başa çatdırılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 13 may 2021-ci il tarixində yeni tikilmiş 2x25 MVA gücündə 110/35/10 kV-luq "Şuşa" yarımstansiyası, 14 iyun 2021-ci il tarixində 2x40 MVA gücündə 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası, eyni zamanda 2x40 MVA gücündə yenidən qurulmuş 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyası istismara verilmişdir.

İşğaldan azad olunan torpaqlarda qurulan sistemlər də SCADA sistemi vasitəsilə məsafədən idarə olunacaq. İndiyədək bu ərazilərdə görülən işlərə gəldikdə, Suqovuşan qəsəbəsi və ətraf ərazilərin elektrik enerjisi təchizatı üçün "Tərtər" yarımstansiyasından "Suqovuşan" yarımstansiyasına birdövrəli müasir tipli 35 kilovoltluq elektrik verilişi xətti çəkilib. Suqovuşan qəsəbəsinədək mövcud 10 kilovoltluq hava xətti təmir edilib. Talış kəndinə qədər mövcud 10 kilovoltluq hava xəttinin



əsaslı təmiri və 2 yeni mərkəzin quraşdırılması işləri aparılıb. Həmçinin Qubadlı və Zəngilan rayonlarının ilkin mərhələdə elektrik enerjisi ilə təmin olunması üçün mövcud şəbəkələrdən istifadə edilən 10 kilovoltluq elektrik verilişi xətlərinin bərpası və yenidən qurulması davam etdirilir.

110/35/10 kV-luq "Qubadlı", "Cəbrayıl", "Zəngilan", "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının və əlaqələndirici elektrik verilişi xətlərinin inşa olunması işləri intensiv surətdə davam etdirilir.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb. Belə ki, dördüncü Sənaye inqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formlaşdırılıb. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq istismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, problemlərin tez həlli proqram təminatı vasitəsi ilə avtomatik həyata keçirilir. Eyni zamanda süni intellekt vasitəsilə təkmilləşdirilən proseslər yarımstansiyaların istismarını daha da etibarlı edir. O cümlədən, SCADA dispetçer idarəetmə sistemi vasitəsilə informasiyaların, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kameraları, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilir.

AzərEnerji

AzərEne
"GÜLƏBİRD

SES

Prezident İlham Əliyev "Güləbird" Kiçik Su Elektrik Stansiyasının açılışında, 14 fevral 2021-ci il

"GÜLƏBİRD" KİÇİK SU ELEKTRİK STANSİYASI

Coğrafi əhəmiyyəti böyük olan Laçın rayonunun cənub hissəsində, Həkəri çayı üzərində yerləşən, Vətən müharibəsi zamanı düşmən tərəfindən tam yararsız hala salınmış 8 meqavat gücündə "Güləbird" Kiçik Su Elektrik Stansiyası bərpadan sonra 2021-ci il fevralın 14-də Prezident İlham Əliyevin iştirakı ilə işə salınıb. Stansiyada hər birinin gücü 3,475 MVt olan 2 ədəd hidroaqreqat quraşdırılıb.

Dövlət başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev Güləbird kəndində çıxışı zamanı qeyd edib ki, Laçın rayonu işğaldan azad olunandan ay yarım sonra artıq burada su elektrik stansiyası istismara verilir. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

"Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik" -deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev "Güləbird" Kiçik Su Elektrik Stansiyası ilə tanış olur, 14 fevral 2021-ci il

HIDROGENERATOR - 1

Şuşa
110/35/10 kV-luq
"ŞUŞA"
YARIMSTANSİYASI
Azərenerji

AzərEnerji
110/35/10 kV-luq
"ŞUŞA"
YARIMSTANSİYASI

Prezident İlham Əliyev "Şuşa" yarımstansiyasının açılışında, 12 may 2021-ci il

"ŞUŞA" YARIMSTANSİYASI

2021-ci il mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyasının açılışında iştirak ediblər.

İşgaldan azad olunan Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədi ilə "Şuşa" yarımstansiyasının tikintisinə başlanılıb. Yarımstansiya məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşıb. Burada perspektiv inkişaf da nəzərə alınıb. Belə ki, "Şuşa" yarımstansiyası ilə paralel Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından başlayaraq 75 km məsafədə 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin də tikintisi həyata keçirilib. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisi çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, qısa zaman ərzində yekunlaşıb. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya çəkilən 110 kilovoltluq

ikidövrəli elektrik verilişi xətti fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekord göstəricidir. Ümumilikdə işğaldan azad olunan ərazilərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində böyük layihələr hazırlanıb. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərin "Yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu tələblərə uyğun olaraq bu istiqamətdə işlər sürətlə davam etdirilir.

Şuşa
Azərenerji
110/35/10 kV-luq
"ŞUŞA"
YARIMSTANSİYASI

Şuşa

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Füzuli" yarımstansiyasının açılış mərasimində, 14 iyun 2021-ci il

"FÜZULİ" YARIMSTANSİYASI

14 iyun 2021-ci il tarixində istismara verilən 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası 3 ay ərzində inşa edilib. Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Yarımstansiya və yeni İdarəetmə Mərkəzi müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub və komplektləşdirilib. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədi ilə yerli mikro SCADA dispetçer idarəetmə sistemi qurulub.

Qeyd edək ki, yenidən qurulan 110/35/10 kilovoltluq

"Şükürbəyli" yarımstansiyası da məsafədən idarə olunan SCADA dispetçer sistemi ilə əlaqələndirilib.

İşğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyası da genişləndirilərək tam yenidən qurulub. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilib. Burada yeni avadanlıqlarla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Qeyd edək ki, işğaldan azad edilən digər rayonlarda inşa olunan yarımstansiyaların Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyasına "İmişli" yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilib. Eyni zamanda, "Şükürbəyli" yarımstansiyasından Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilib və həmin xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilib. Paralel olaraq "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən 110/35/10 kilovoltluq yarımstansiyalara ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib.

"Füzuli" yarımstansiyası

"ŞÜKÜRBƏYLİ" YARIMSTANSİYASI

14 iyun 2021-ci il tarixində Prezident İlham Əliyev yenidən qurulan "Füzuli" yarımstansiyasından 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasının məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsi ilə açılışını edib. Füzulidəki "Şükürbəyli" yarımstansiyası və yarımstansiyaya İmişlidən 110 kilovoltluq 51 km məsafədə yeni xətt gətirilir. Sistem əhəmiyyətli olan bu stansiya çox önəmlidir. Çünki "Füzuli", "Şuşa", "Cəbrayıl", "Qubadlı", "Zəngilan" yarımstansiyaları "Şükürbəyli" yarımstansiyası vasitəsilə ilə qidalanacaq.

110/35/10 kV-luq
"ŞÜKÜRBƏYLİ"
YARIMSTANSİYASI

AzərEnerji

110/35/10 kV-luq
"KƏLBƏCƏR"
YARIMSTANSİYASI

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Kəlbəcər" yarımstansiyasının açılışında, 17 avqust 2021-ci il

"KƏLBƏCƏR" YARIMSTANSİYASI

Kəlbəcər rayonu işgaldan azad ediləndən sonra burada enerji infrastrukturunun yenidən yaradılması üçün yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib. Erməni vandalları tərəfindən tamamilə dağıdılan "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasında da əsaslı şəkildə yenidənqurma işləri pararlel şəkildə aparılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak ediblər.

Dövlət başçısı işğaldan azad edilən ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə hər zaman xüsusi diqqətlə yanaşıb. Bunun nəticəsidir ki, işğaldan azad edilən bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. Məhz 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyası da qısa müddətə inşa olunan layihələrdən biridir.

Qeyd edək ki, Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində

müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

Prezident İlham Əliyev:

Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən

"Kəlbəcər" yarımstansiyası

layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq "Güləbird" Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. "Suqovşan" Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq. Amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

110 KV-LUQ İKİDÖVRƏLİ "DAŞKƏSƏN-KƏLBƏCƏR" ELEKTRİK VERİLİŞİ XƏTTİ

Ermənilər tərəfindən enerjisistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna paralel olaraq Daşkəsəndən 70 km məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrik ötürmə xətti çəkilib. Minalanmış ərazidə, ən çətin dağlıq, sıldırım relyefdə, qarlı, şaxtalı, tufanlı havada, yolsuzluq, buzlu, sürüşkən ərazidə çəkilən 110 kV-luq ikidövrəli "Daşkəsən-Kəlbəcər" xəttinin inşası üçün ağır texnika, avadanlıq da daxil olmaqla bütün yük Ağdərə və Murov yolundan daşınıb. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3300 metr yüksəklikdə quraşdırılıb. Ümumilikdə 70 km məsafədə ikidövrəli variantda çəkilən xətt üçün 240 anker və aralıq dayaq istifadə olunub. 110 kV-luq xəttin xüsusi buzlaşmış ərazi sayılan 20 km-dək məsafəsində 110 kV-luq dayaqların yerinə 220 kV-luq anker dayaqlar basdırılıb. İş fasiləsiz, növbəlilik prinsipi ilə aparılıb.

"SUQOVUŞAN-1" VƏ "SUQOVUŞAN-2" KİÇİK SU ELEKTRİK STANSİYALARI

Tərtər rayonunda "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarını yenidənqurmadan sonra istismara verilib.

"Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yararlı ehtiyat hissələrini sökü daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik verilişi xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt-saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

"Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayır. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürülür.


AzərEnerji
"SUQOVUŞAN - 2"
KSES

G-3
AzərEnerji



Daşkəsən-Kəlbəcər elektrik verilişi xəttinin trassası

Prezident İlham Əliyev "Cəbrayıl" yarımstansiyasının açılışında, 4 oktyabr 2021-ci il

"CƏBRAYIL" YARIMSTANSİYASI

Cəbrayıl rayonunda yeni inşa olunan 2x25 MVA gücündə 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyası istismara verilib.

44 günlük Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib. 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb. "Cəbrayıl" yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilib və müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə

ÇIXIŞ
S.A

ötürülməsi məqsədilə yerli micro SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb.

"Cəbrayıl" yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən

hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev "Zəngilan" yarımstansiyasının açılışında, 20 oktyabr 2021-ci il

"ZƏNGİLAN" YARIMSTANSİYASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi Zəngilan rayonunun elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən genişmiqyaslı işlər həyata keçirilib. Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə iki

transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişlən dirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada micro SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.

İşğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "Ağıllı şəhər", "Ağıllı kənd" də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir. Məhz bu səbəbdən də Zəngilan rayonunun və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır. "Zəngilan" yarımstansiyası, ilk növbədə, Zəngilan rayonunda yerləşən hərbi hissələri, sərhəd xidmətinin obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən müxtəlif dövlət strukturlarının, yol-tikinti şirkətlərinin obyektlərini elektrik enerjisi ilə təmin edəcək.

"Zəngilan" yarımstansiyası

Prezident İlham Əliyev "Qubadlı" yarımstansiyasının açılışında, 25 oktyabr 2021-ci il

"QUBADLI" YARIMSTANSİYASI

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 25 oktyabr 2021-ci il tarixində sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışında iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə ətraflı məlumat verib.

Belə ki, yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti

çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri – buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb.

Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib. Bu günə qədər "Azərenerji" ASC tərəfindən Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda 110 kV-luq yeni yarımstansiyalar tikilib. Bütün yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə,

"Qubadlı" yarımstansiyası

işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda

da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Yarımstansiyanı işə salan dövlət başçısına məlumat verilib ki, yarımstansiyanın rəqəmsal idarə edilməsinin prioriteti olan iki əsas məsələ - rəqəmsallaşmaya inteqrə olunan avadanlıqların təmin olunması və idarəetmə üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik kabel şəbəkəsinin yaradılması məsələləri həllini tapıb.

"Qubadlı" yarımstansiyasının işçi heyəti üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılması məqsədilə müasir texnologiyalar əsasında yeni İdarəetmə Mərkəzi tikilib. Yarımstansiyada 2 ədəd 25 MVA gücündə transformator quraşdırılıb. Yarımstansiyanın idarəetmə sistemi müasir tələblərə cavab verən micro SCADA sistemi yaradılmaqla "Azərenerji"nin mərkəzi SCADA sistemi ilə əlaqələndirilərək birbaşa mərkəzdən idarə edilməsi təmin olunub.

İşğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı gözlənilir. Yeni "Qubadlı" yarımstansiyası tikilərkən bu amil nəzərə alınıb.

"AĞDAM-1" VƏ "AĞDAM-2" YARIMSTANSİYALARI

İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə cənab Prezidentin tapşırığına uyğun olaraq "Azərenerji" tərəfindən 2 yerdə 110/35/10 kilovoltluq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları tikilib. Digər rayonlardan fərqli olaraq burada iki yerdə 110 kilovoltluq yarımstansiyaların tikilməsi Ağdam ərazisinin böyük olması və rayonda iri həcmli layihələrin gerçəkləşəcəyi nəzərə alınaraq

inşa edilib. “Ağdam-1” yarımstansiyası rayon mərkəzinin girişində, keçmiş avtovağzalın yanında, “Ağdam-2” yarımstansiyası isə rayonun Əsgərana yaxın, Şelli kəndi istiqamətində inşa edilib. Qeyd edək ki, “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarına “Xındırıstan” yarımstansiyasından 35 km məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib. Demək olar ki, xəttin tarssası tam minalanmış ərazidən keçib və bəzi yerlərdə bir neçə metr enində cığır açılaraq mina təmizləyənlərlə energetiklər paralel şəkildə öz işlərini görüblər. Ən əsası isə yeni çəkilən 35 kilometr məsafəli xəttin və üstəlik Ağcabədidən Xındırıstana qədər 28 kilometr məsafədə 110 kV-luq xətt üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiber optik kabel çəkilib. Bununla Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib. Bununla da nəinki, Ağdamdakı xüsusi təyinatlı obyektlərin, yarımstansiyaların, eləcə də burada tikilən “Azərenerji”nin Qarabağın Regional Avtomatik İdarəetmə Mərkəzinin yeni nəsil texnologiyalar əsasında fəaliyyət göstərməsi üçün sürətli internet şəbəkəsi ilə təminatı həyata keçirilib.

Bütövlükdə Qarabağda tikilən bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin idarəetməsini təşkil edəcək Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzində yeni nəsil müasir texnologiyalardan istifadə olunub. Rəqəmsal idarəetmə mərkəzi vasitəsi ilə açılıb-qoşulma əməliyyatları da daxil olmaqla bütün lazımi tədbirlərin hamısı avtomatik şəraitdə həyata keçiriləcək.

“Ağdam-1” yarımstansiyasının ərazisində Avtomatik İdarəetmə Mərkəzi ilə yanaşı “Azərenerji”nin Qarabağın regional xüsusi təyinatlı maşın-mexanizmlərinin nəqliyyat sahəsi, texnika və avadanlıqlarının təmir sahələri də tikilib.

"QARABAĞ"
REGİONAL ELEKTRİK ŞƏBƏKƏSİ
RƏQƏMSAL
İDARƏETMƏ MƏRKƏZİ
AzərEnerji

4,4 MVT GÜCÜNDƏ "KƏLBƏCƏR-1" KİÇİK SU ELEKTRİK STANSİYASI

Hazırda Kəlbəcər rayonunun ərazisindəki Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenisi ilə əvəzlənir və artıq işlərin böyük hissəsi görülüb. Ermənilər tərəfindən dağıdılaraq yandırılan bu kiçik su elektrik stansiyasının yarımstansiyası yenidən tikilir və bütövlükdə işlərin bu il ərzində başa çatdırılması planlaşdırılır.

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR REGİONUNUN MÖVCUD VƏ PERSPEKTİV ELEKTRİK TƏCHİZATI


Goranboy
330/110 kV
Yevlax
Tərtər
110/35/6 kV
Suqovuşan-1 SES
Suqovuşan-2 SES
Tərtər SES
Ağdərə
110/35/10 kV
Xındıristan
110/35/10 kV
Tərtər
Ağcabədi
Ağcabədi
330/110 kV
İmişli
330/230/110 kV
Ağdam-1
110/35/10 kV
Ağdam-2
110/35/10 kV
Ağdam
Xocavənd
Beyləqan
İmişli
Füzuli
110/35/10 kV
Füzuli
Hadrut
Zabux
Cəbrayıl
110/35/10 kV
Şükürbəyli
110/35/10 kV
Cəbrayıl
Cəbrayıl
330/110 kV
Xudafərin
Qız Qalası
L= 25 km
L= 10 km
L= 45 km
L= 31 km
L= 130 km
L= 130 km
L= 12 km
L= 35 km
L= 18 km
L= 10 km
Şərti İşarələr:
Su Elektrik Stansiyası
Mövcud 330/230/110 kV-luq yarımstansiya
Mövcud 330/110 kV-luq yarımstansiya
Mövcud 110/35/10-6 kV-luq yarımstansiya
Mövcud 35/10 kV-luq yarımstansiya
Mövcud 330 kV-luq EVX
Mövcud 110 kV-luq EVX
Mövcud 35 kV-luq EVX
Tikintisi planlaşdırılan 330/110 kV-luq yarımstansiya
Yeni tikilən 110/35/10 kV-luq yarımstansiya
Yenidən qurulan 110/35/10 kV-luq yarımstansiya
Tikintisi davam edən 110/35/10 kV-luq yarımstansiya
Tikintisi planlaşdırılan 110/35/10 kV-luq yarımstansiya
Yeni çəkilən 110 kV-luq EVX
Tikintisi planlaşdırılan 110 kV-luq EVX
Tikintisi planlaşdırılan 330 kV-luq EVX

MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN

Zəfər yürüşü

İkinci Qarabağ müharibəsi

Dövlətçilik tariximizin şanlı salnaməsi

2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək mənfur düşmənin işğalçılıq siyasətinə son qoydu. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında İkinci Qarabağ müharibəsi xalqımızın şanlı qələbəsi ilə başa çatdı.

Azərbaycan Ordusunun tətbiq etdiyi müharibə strategiyası müasir hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da Hadrut qəsəbəsini düşməndən təmizləyən Azərbaycan Silahlı Qüvvələri bununla Xocavənd rayonu ərazisində əlverişli mövqeləri ələ keçirdi. Düşmənə sarsıdıcı zərbə vuran ordumuz oktyabrın 17-də Füzuli şəhərini işğalçılardan azad etdi və oktyabrın 18-də Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı dalğalandı. Oktyabrın 20-də Zəngilan, 25-də isə Qubadlı rayonları işğaldan azad edildi.

Möhtəşəm qələbənin əldə olunmasında Qarabağın mədəniyyət mərkəzi sayılan Şuşanın işğaldan azad olunması mühüm önəm kəsb etdi. Noyabrın 8-də Şuşa şəhəri, ertəsi gün isə Laçın və Kəlbəcər də daxil olmaqla 70-dən çox yaşayış

məntəqəsi işğalçılardan təmizləndikdən sonra Ermənistan müharibəni davam etdirmək iqtidarında olmadığını dərk etdi və noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Beləliklə, xalqımız işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda dəmir yumruq kimi birləşərək dövlətimizin düşmənə layiqli cavab verməsinə nail oldu, Vətənin müdafiəsi uğrunda xalq birliyinin gücünü dünyaya nümayiş etdirdi. Və bununla Azərbaycan xalqının 30 il çəkən yurd həsrətinə son qoyularaq ədalət bərpa edildi.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdirdilər.

Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, haqq və ədalətin bərpası naminə Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan müxtəlif



millətlərin və dinlərin təmsilçiləri iştirak ediblər. Qarabağ müharibəsi Azərbaycan cəmiyyətinin fərqli dini və etnik-milli mənsubiyyətinə baxmayaraq həmrəy olduğunu bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə zəfər sevincini yaşatdı və Azərbaycanın Zəfər tarixini yazdı.

Vətən müharibəsi bitdikdən sonra Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş torpaqlara tarixi səfərlər edərək, orada yeni layihələrin təməlini qoydu. Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı.

Bu gün Azərbaycan quruculuq mərhələsini, postmünaqişə dövrünü yaşayır. Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində gərgin işlər görülür. Vaxtilə düşmən tərəfindən viran edilən torpaqlarımızda müzəffər Azərbaycan Ordusunun tarixi Qələbəsi sayəsində həyat yenidən canlanır,Sakinlərin bu ərazilərə qayıtması üçün bütün lazımi şərait yaradılır. İşğaldan azad edilən ərazilərin ilk növbədə ən



qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq "Azərenerji" ASC tərəfindən bütün istiqamətlərdə genişmiqyaslı işlər həyata keçirilir.

27 SENTYABR - ANIM GÜNÜ

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş əsgər, zabit və qətlə yetirilən mülki vətəndaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də Anım Günü ilə əlaqədar Bakı şəhərində yürüş təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən insanlıq əleyhinə törədilən müharibə cinayətləri nəticəsində

qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından iba-rət plakatlarla yürüş edərək, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirdilər. Neftçilər pros-pektindən başlayan yürüş həmin gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam edib. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində gös-tərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırıldı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım günündə Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlini qoyublar.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisində keçirilən tədbirdə qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verilib və yaylım atəşi açılıb.

27 sentyabr Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

"Azərenerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətləri də bu tədbirə qoşuldu. "Azərenerji" ASC-nin "Qobu" Enerji Qovşağının ərazisində hər şəhidin adına bir ağac olmaqla ümumilikdə üç min ağac əkilib. "Azərenerji"nin rəhbəri Baba Rzayev və "Azərişıq"ın sədri Vüqar Əhmədovun da iştirak etdiyi ağacəkmə aksiyasında Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Vətən müharibəsində "Azərenerji" və "Azərişıq"ın yüzlərlə əməkdaşı könüllü olaraq döyüşlərdə iştirak edib. Onlardan 8 nəfəri qəhrəmancasına şəhid olub. "Azərenerji" və "Azərişıq"ın bütün kollektivi səhmdar cəmiyyətlərin şəhid olan əməkdaşları da daxil olmaqla bütün şəhidlərin ruhu qarşısında baş əyir və Allahdan onlara rəhmət diləyirlər.

VƏTƏN MÜHARİBƏSİNDƏ ŞÜCAƏT GÖSTƏRƏN ENERGETİKLƏR

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun işğalçı Ermənistana qarşı apardığı əks-hücum hərbi əməliyyatı – Vətən müharibəsi torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələndi. Düşmən üzərində möhtəşəm qələbənin qazanıldığı döyüşlərdə "Azərenerji" ASC-nin də müxtəlif strukturlarının 130 əməkdaşı iştirak edib. Hərbi səfərbərlik zamanı Silahlı Qüvvələrimizin sıralarına qoşulan bu cəsur, vətənpərvər gənclərdən ikisi Vətən Müharibəsi zamanı döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Şəhid Nəcəfli Oruc Rövşən oğlu 06.10.1989-cu ildə Yevlax rayonunun Tanrıqulular kəndində anadan olub. Mingəçevir Politexnik İnstitutunun İnformatika və hesablama texnikası ixtisasını bitirdikdən sonra 20.05.2013-cı ildə əmək fəaliyyətinə başlayıb. Sonuncu iş yeri "Azərenerji" ASC-nin "Enerjiservistikintitəmirsazlaman MMC-nin Qazan avadanlıqlarının təmiri sahəsinin çilingəri vəzifəsi olub.

Şəhid Vəlizadə Kamran Əkpər oğlu - 14.09.1996-cı ildə

Lənkəran rayonu Nərimanabad qəsəbəsində anadan olub. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İstilik Energetika Mühəndisliyi fakültəsini bitirdikdən sonra 22.09.2016-cı ildə əmək fəaliyyətinə başlayıb. "Azərenerji" ASCnin "Bakı İstilik Elektirk Mərkəzi" MMC-nin Qazan-Turbin sexinin Boyler və deaerator qurğularının böyük maşinisti vəzifəsində çalışıb.

Müharibədə iştirak edən energetiklər hərbi əməliyyatlarda göstərdikləri şücaətə görə müxtəlif dövlət təltiflərinə layiq görülüblər. "Azərenerji" ASC-nin hər iki şəhid əməkdaşı - Vəlizadə Kamran Əkpər oğlu və Nəcəfli Oruc Rövşən oğlu "Vətən uğrunda" medalı ilə təltif olunub. Həmçinin "Vətən uğrunda" medalı ilə təltif edilənlər sırasında "Azərenerji" ASC-nin əməkdaşlarının yaxın qohumlarından doqquz nəfərinin də adı yer alıb.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə yaralanan əməkdaşlarımız:

- Əfəndiyev Alim Nəzmi oğlu-"Azərbaycan" İES,
- Nağıbəyli Toğrul Şahvələd oğlu-"Azərbaycan" İES,
- Həsənov İqbal Vüqar oğlu-"Şirvan REŞ" MMC,
- Məmmədzadə Fərid İlham oğlu-"Səngəçal ES" MMC,
- Qocayev Elxan Araz oğlu-"Abşeron REŞ" MMC,
- Sadəddinov Vasif Hümmət oğlu-"Mingəçevir REŞ" MMC,
- Mustafayev Rəhman Nağı oğlu-"Qəbələ REŞ" MMC,
- Allahverdiyev Elmir Hətəmxan oğlu-"Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC,
- Kərəmov Murad Həbib oğlu-"Hərbiləşdirilmiş Mühafizə Dəstəsi" MMC
- Abidinov Yahya Vüqar oğlu-"Enerjitikintitəmirsazlama" MMC

Vətən müharibəsində həmçinin "Azərenerji" ASC-nin əməkdaşlarının qohumlarından 46 nəfər iştirak edib, onlardan 12 nəfər şəhid olub, 34 nəfəri yaralanıb.

Bu gün xalqımız doğma torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın əziz xatirəsini ehtiramla yad edir, onların ruhu qarşısında baş əyir. Onların keçdikləri həyat yolları örnək olaraq əsrlər boyu daim xatırlanacaq.

Yaşasın Azərbaycan, Yaşasın Müzəffər Ordunun Ali Baş Komandanı, - Qarabağ Azərbaycandır!

"AZƏRBAYCAN" İES-in HƏDƏFƏ ALINMASI VƏ ENERGETİKLƏRİN QƏLƏBƏ ƏZMİ

2020-ci ilin 27 sentyabrından başlayan Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyən Ermənistan silahlı qüvvələri mülki şəxsləri hədəfə almaqla dinc yaşayış məntəqələrimizi, o cümlədən ölkəmizin strateji obyektlərinə atdıqlari döyüş raketləri vasitəsilə bu sahələrə ciddi ziyan vurdular. Həmin ilin oktyabrında erməni silahlıları energetiklər şəhəri sayılan Mingəçevir şəhərinə və burada yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyasına bir neçə ballistik raket atdılar. Raketlərdən biri mülki insanların yaşadıqları ərazinin yaxınlığına düşsə də xoşbəxtlikdən mərmi partlamayıb. Elə həmin gün "Azərbaycan" İstilik Elektrik Stansiyası hədəf alınaraq atılan növbəti raket stansiyanın ərazisinə, enerji bloklarının yaxınlığında boş sahəyə düşərək döyüş başlığı torpaq qatına bataraq partlamadığından stansiyaya ciddi zərər dəyməmişdir. Raketin düşdüyü yerə bir çox beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən ölkəmizdə fəaliyyət göstərən xarici ölkələrin diplomatik nümayəndələri də baxış keçirmişdilər. Raketin qalıq hissələrini stansiyanın ərazisindən çıxarmaq üçün hadisə yerinə Ərazilərin Minalardan Təmizlənməsi Agentliyinin (ANAMA) əməkdaşları cəlb edilərək xüsusi texnika vasitəsilə raketi zərərsizləşdirilərək çıxarıblar. Erməni silahlıları tərəfindən atılan növbəti döyüş raketi Mingəçevir şəhər ərazisində fərdi yaşayış evlərinə yaxın əraziyə düşüb. Nəticədə 5 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib. Hadisə zamanı ev təsərrüfatlarına ciddi ziyan dəyib.

İşğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyasını və onların əlavə protokollarını, habelə 2020-ci il oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini ciddi şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini yenidən hədəfə almaqla yaşayış məntəqələrimizi və strateji obyektləri ağır artilleriyadan atəşə tutmaqda davam etmişdilər. Təcavüzkar Ermənistan ordusu oktyabr ayının 11-i gecə saatlarında yenidən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasını hədəfə almışdı. Düşmən tərəfindən atılan raket ordumuzun Hərbi Hava Hücumundan Müdafiə qüvvələri tərəfindən zərər-sizləşdirilmişdir.

Ermənistan silahlı qüvvələri oktyabr ayında növbəti dəfə

istilik elektrik stansiyasını hədəfə almaqla cəbhə zonasından yüz kilometlərlə uzaqda yerləşən sənaye şəhəri Mingəçevirə yenə raket atıb. Bu dəfə də raketlər Azərbaycan Ordusunun Hərbi Hava Hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib. Erməni silahlı birləşmələri tərəfindən Mingəçevir şəhərinin, ələlxüsus da enerji obyektlərini xaincəsinə hədəfə almaları sakinlərin, o cümlədən energetiklərin qələbə əzmini sarsıda bilməmişdir. Çünki xalq bir nəfər kimi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşərək ordunun gücünə inanır, torpaqlarımızın işğaldan azad ediləcəyinə əmin idilər.

AZƏRENERJİ



ELM, TƏDRİS VƏ LABORATORİYA MƏRKƏZİ

ELMİ KADR POTENSİALI DİQQƏT MƏRKƏZİNDƏ

Prezident İlham Əliyevin diqqət və qayğısı ilə respublikada elmi-intellektual potensialın getdikcə artması Azərbaycanın sürətli inkişafının mühüm amilinə çevrilib. Dövlətimizin başçısı tərəfindən həyata keçirilən düşünülmüş elm və təhsil siyasəti xalqın milli mənafeyinə xidmət edərək, müstəqil Azərbaycanın bu sahədəki potensialını daim inkişaf etdirir.

Respublikada energetika elminin inkişafı, elmi-tədqiqat institutları və mərkəzlərində innovativ tədqiqat işlərinin genişləndirilməsi, elmi nəticələrin istehsalatda tətbiqi "Azərenerji" ASC-nin qarşısında duran əsas hədəflərdəndir. Elmin tərəqqisi istiqamətində yaradılan münbit şəraitdən faydalanan "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-nin əldə etdiyi uğurlar bu sahənin inkişafına öz töhfəsini verməkdədir.

Qeyd edək ki, respublikada elektroenergetika elminin yaradılması və formalaşmasında 1955-ci ilədək institutun direktoru işləmiş İ.Q.Yesmanın, onun davamçıları olan K.V.Pokrovski, Z.B.Yelyaşeviç və başqalarının böyük əməyi olub. Həmçinin sonrakı mərhələlərdə institutun elmi istiqamətlərinin, kadr hazırlığının formalaşmasında akademiklər Ç.M.Cuvarlı, A.A.Əfəndizadə, müxbir üzvlər A.A.Əlizadə, F.H.Hüseynov, professorlar M.S.Qasımzadə, A.M.Kərimov, K.N.Quluzadə və başqaları mühüm işlər görüblər.

Respublikada energetika üzrə ilk elm məbədgahı olan bu institutda hazırda 7 elmlər doktoru və 17 elmlər namizədi çalışır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 dekabr 2010-cu il tarixli qərarına əsasən "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların

Siyahısı"na daxil edilmiş "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-də doktorantura və dissertantlıq yolu ilə elmi kadrların hazırlanması həyata keçirilir. İnstitutun doktorant hazırlığında müasir tələblərə cavab verən iş prinsipi bu elm məbədinin qazandığı nailiyyətlərin hüdudlarını daha da genişləndirir. 1996-2015-ci illərdə institutda texnika üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarını müdafiə etmək üçün İxtisaslaşdırılmış Şura (Dissertasiya Şurası) fəaliyyət göstərib. Şurada 75-dən artıq dissertasiya, o cümlədən 15 doktorluq dissertasiyası işinin müdafiəsi keçirilib.

Doktoranturada elmi-pedaqoji kadr hazırlığı fəlsəfə və elmlər doktoru proqramları üzrə həyata keçirilir. Fəlsəfə doktoru proqramı üzrə əyani təhsil müddəti 3 il, qiyabi və dissertantlıq yolu ilə 4 ildir. Elmlər doktoru proqramı üzrə dokrotanturada əyani təhsil müddəti 4 il, qiyabi təhsil formasında və dissertanturada hazırlıq isə 5 ildir.

Doktoranturada elektroenergetikanın 6 sahəsi - Elektrik stansiyaları və elektroenergetik sistemlər, Elektrotexniki sistemlər və komplekslər, Yüksəkgərginliklər texnikası, İstilik elektrik stansiyaları, Sahə iqtisadiyyatı, Sistemli analiz, İdarəetmə və informasiyanın işlənməsi üzrə yüksək ixtisaslı kadr hazırlığı həyata keçirilir. İnstitutda yaradılmış işgüzar elmi mühit doktorantların seçdiyi ixtisaslar üzrə savadlı mütəxəssis olmaları üçün zəmin yaradır. Bu elmi-intellektual potensial energetika sahəsinin sürətli inkişafının mühüm amilinə çevrilir. İnstitutda elmi hazırlıq keçən kadrlar həm institutda, həmçinin respublikanın ali təhsil müəssisələrində və enerjisistemdə çalışırlar. Gələcəkdə kadr hazırlığı sahələrinin daha da genişləndirilməsi nəzərdə tutulur.

ENERGETİKA SAHƏSİNDƏ KADR HAZIRLIĞINA XÜSUSİ DİQQƏT

"Azərenerji" ASC Prezident İlham Əliyevin enerjisistemin perspektivləri ilə bağlı qarşıya qoyduğu hədəflərə çatmaq, gənc kadrları önə çəkmək, peşəkarlara şərait yaratmaq məqsədi ilə kadr məsələsinə daim xüsusi diqqət göstərir.

Belə ki, 2020-ci ilin aprel ayında yenidənqurmadan sonra istifadəyə verilən "Azərenerji" ASC-nin Tədris Mərkəzində insan resurslarının inkişafı və elektroenergetikanın bütün sahələrini əhatə edən davamlı onlayn kurslar təşkil olunur. Dərs və məşğələlər Səhmdar Cəmiyyətin əməkdaşları ilə yanaşı, bu sahə üzrə ixtisaslaşmış digər alim və mütəxəssislərin iştirakı ilə həyata keçirilir. Həmçinin Tədris Mərkəzindən idarə olunan simulyasiya proqramları vasitəsilə bölgələrdəki elektrik stansiyaları, yarımstansiyalar və şəbəkələrdə də dərslər təşkil olunur. Elektrik stansiyaları və şəbəkələrin əməkdaşları simulyasiya proqramlarında enerji blokunun isti və soyuq rejimdən işə qoşulması, generatorların sinxronlaşdırılmasından tutmuş operativ əməliyyatlar və əks-qəza məşqlərinə qədər bütün prosesləri öyrənirlər. Tədris otaqlarında müdavimlərin müstəqil işləmələri üçün trenajorların elektrik stansiyaları, yarımstansiyalar və şəbəkələrə aid avadanlıqlarla təchiz olunması onlayn dərslərin keçirilməsinə münbit şərait yaradır.

Bundan başqa, "Azərenerji" ASC-nin regional elektrik şəbəkə və elektrik stansiyalarında çalışan işçi heyətin bilik səviyyəsinin təkmilləşdirilməsi məqsədi ilə Tədris Mərkəzi tərəfindən müəssisələrdə təşkil olunan 74 kursa 400 nəfərə yaxın işçi cəlb edilib. Həmçinin, 18 ixtisasartırma və 13 işə qəbul kursu təşkil olunub. Bundan əlavə, "Wartsila" şirkəti tərəfindən nəzarət ölçü cihazları və avtomatika üzrə ixtisasartırma kursunda iştirak etmək üçün 5 nəfər Finlandiyaya göndərilib. Eyni zamanda "General Elektrik" və ABB şirkətlərinin nümayəndələri Azərbaycanda xüsusi kurslar təşkil edib. İxtisasartırma və digər kurslar üzrə tədris prosesi mütəmadi olaraq davam etdirilir. Paralel olaraq elektrik stansiyalarının bütün texnoloji sexlərində hər vəzifə üzrə ixtisasartırma kursunun başlaması üçün tədris planı işlənib hazırlanır.

Bununla yanaşı, Səhmdar Cəmiyyətin Tədris Mərkəzinin bazasından istifadə edilməklə "Azərenerji" ASC-nin müəssisələrində çalışan işçilərin bilik səviyyəsi yoxlanılır. İmtahanlardan əla və yaxşı qiymətlər alan əməkdaşlar Səhmdar Cəmiyyətin idarə və müəssisələrində məsul vəzifələrə təyin

edilirlər. Yaxşı qiymət alan mütəxəssislərin bir hissəsi isə kadr ehtiyatı bankına daxil edilir və onların vəzifəyə yüksəlməsi, ödəniş dərəcələrinin artırılması üçün vakansiyalara təqdim olunması işləri aparılır. İmtahandan kafi qiymət alan işçilərin isə ixtisaslaşdırma kurslarına cəlb olunması üçün qısamüddətli tədris proqramı hazırlanaraq həyata keçirilir.

"Azərenerji" ASC-də təcrübəli kadrların işə cəlb olunması, gənc mütəxəssislərin irəli çəkilməsi məqsədi ilə "İşə qəbul qaydaları" hazırlanaraq təsdiq edilib, Mərkəzi Müsahibə Komissiyası yaradılıb. "Azərenerji"nin elektrik stansiyaları və yarımstansiyalarında kadr ehtiyatının yaradılması məqsədi ilə təcrübəli və gənc energetiklərin işə dəvət olunması üçün müxtəlif

ixtisaslar üzrə Səhmdar Cəmiyyətin azerenerji.gov.az internet səhifəsində və KİV-lərdə vaxtaşırı elanlar yerləşdirilir. Bu elanlar əsasında qəbul olunan müraciətlər ehtiyat kadr bankına daxil edilir. Eyni zamanda işə qəbul imtahanından keçən bakalavr və magistr təhsilli energetiklər hazırlıq kursu keçdikdən sonra müvafiq vəzifə üzrə işə qəbul olunurlar.

Fasiləsiz təhsil, davamlı insan resurslarının inkişafını təmin etmək məqsədilə qəbul edilən konsepsiyaya uyğun olaraq Səhmdar Cəmiyyətin rəhbər vəzifəli şəxsləri tərəfindən bir il əvvəl 125 nəfər gənc və təcrübəli energetik himayəyə götürülüb. Həmin gənclərin bilik və bacarıqlarının artırılması, qocaman energetiklərin yerinə əvəzedici kadr kimi formalaşdırılması üçün praktik işlər görülüb. Himayəyə götürülən şəxslər imtahan edilərək, 89 nəfər rəhbər vəzifələr üçün hazırlanaraq kadr ehtiyatı bankına daxil edilib. İmtahan nəticələri əla olan 37 gənc yüksək vəzifələrə irəli çəkilib.

AZƏRENERJİ ASC

"AZƏRENERJİ" ASC-NİN YENİDƏN QURULAN BAŞ İDARƏETMƏ, ELM, TƏDRİS VƏ LABORATORİYA KOMPLEKSİ

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əsaslı islahatlar həyata keçirilir, strateji əhəmiyyət kəsb edən sahələr yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan, son illərdə ölkəmizdə enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində həyata keçirilən işlər miqyası və əhəmiyyəti ilə seçilir. Respublikamızın enerjisisteminin etibarlılığının təmin edilməsi, bu sahədə mükəmməl infrastrukturun yaradılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl və kompleks şəkildə davam etdirilir. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin müasir səviyyədə yenidən qurulması bunun bariz nümunəsidir. Bu, ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verildiyini bir daha təsdiqləyir.

"Azərenerji" ASC Baş İdarəetmə Mərkəzi vasitəsilə enerjisistemin avtomatik idarə edilməsi, idxal-ixrac prosesləri, tənzimləmələri həyata keçirir. Burada müasir avadanlıqlar və proqram təminatı ilə təchiz edilmiş yeni SCADA sistemi qurulub. Yeni sistem əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 80 yarımstansiyanı əhatə edir. Kompleksin Tədris Mərkəzində enerji sistemində çalışan şəxslərə yeni texnika və texnologiyanın öyrədilməsi və idarə edilməsi tədris olunur. Bu məqsədlə nəzəri və praktiki məşğələlərin tədrisi üçün sinif otaqları təşkil edilib. Həmçinin burada stansiya və yarımstansiyaların simulyasiyası, rele mühafizəsi və avtomatika, alternativ və bərpa olunan enerji mənbələri, informasiya texnologiyaları, elektrik təhlükəsizliyinə aid otaqlar var. Ölkə həyatında baş verən əlamətdar hadisələri, energetiklərin fəaliyyəti ilə təşkil olunan tədbirləri yüksək səviyyədə keçirmək üçün binada müasir avadanlıqlarla təchiz edilmiş 500 nəfərlik Energetiklərin Mədəniyyət Mərkəzi yaradılıb. Binada toplantı, arxiv otaqları, elektron kitabxana və istirahət guşələri də işçilərin ixtiyarındadır. Burada Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu da fəaliyyət göstərir.

Kompleksin müasir tələblər səviyyəsində qurulan Laboratoriya Mərkəzində müxtəlif növ sınaqların aparılması üçün bütün imkanlar mövcuddur. Burada ən son model avadanlıqlarla təchiz olunan laboratoriyalarda geotexnika, geodeziya, inşaat, kimya, metalların və inşaat materiallarının sınağı və digər laborator işləri həyata keçirilir ki, bu da enerjisistemin uzunmüddətli istismarını təmin edir.

ELEKTROTEXNİKA



ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ
AzərEnerji



PREZİDENT İLHAM ƏLİYEVİN "AZƏRENERJİ" ASC-NİN YENİDƏN QURULAN BAŞ İDARƏETMƏ, ELM, TƏDRİS VƏ LABORATORİYA KOMPLEKSİNİN AÇILIŞINDA ÇIXIŞI

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş İdarəetmə Mərkəzinin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Şadam ki, bu gözəl binada "Azərenerji"nin bir çox qurumları yerləşir. Dispetçer mərkəzi, baş idarəetmə mərkəzi, energetika institutu, tədris mərkəzi, laboratoriya, energetiklərin mədəniyyət mərkəzi. Hesab edirəm ki, indi burada şərait çox yaxşıdır. Bu binada qısa müddət ərzində əsaslı yenidənqurma işləri aparılmışdır. Demək olar ki, bina yenidən qurulmuşdur və indi bir yerdə, bir mərkəzdə "Azərenerji"nin əsas departamentləri yerləşir və beləliklə, idarəetmə üçün daha da gözəl imkan yaranır. Çünki bundan əvvəl "Azərenerji"nin departamentləri, qurumları müxtəlif yerlərdə yerləşirdi, bəzi hallarda yarımstansiyaların binalarında yerləşirdi və əlbəttə ki, idarəetmə üçün bu, o qədər də məqbul hal deyildi.

Bu bina sovet dövründə tikilib və bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılmışdı, "Azərenerji"nin balansından çıxarılmışdı. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu, dərhal "Azərenerji"nin balansına qaytarılsın. Çünki əkstəqdirdə bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 min kvadratmetr idi, indi isə artırılıb 20 min kvadratmetrə çatdırılıb. Yəni, burada ya hansısa bir mehmanxana, yaxud şadlıq evi, yaşayış binası, ya da ki, hansısa bir ictimai iaşə obyekti yaradılacaqdı və energetiklər bu binadan məhrum olacaqdılar.

Bu bina energetiklərə qaytarılandan sonra artıq 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc

nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni, böyük qıtlıq var idi. O ki qaldı, Azərbaycanın bölgələrinə, orada ümumiyyətlə, enerji təminatı çox pis vəziyyətdə idi. Ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda, bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci

regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işlərə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir - "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra "Sumqayıt" Elektrik Stansiyası, 525 meqavat. "Şimal-2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan

Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranmışdır. O cümlədən, bütövlükdə, ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə ki, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük bir hissəsi büdcənin hesabına təmin edildi, digər hissə götürülmüş kreditlər hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilib. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Yüksəkgərginlikli xətlər, bizi qonşu dövlətlərlə birləşdirən xətlər inşa edildi, bir çox yerlərdə yeni yarımstansiyalar tikildi, transformatorlar quraşdırıldı. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji təminatı necədir? Son illər ərzində hər zaman müsbət rəylər

eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər.

Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, "Azərenerji" son iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə

"Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var. İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarır ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni, bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt,

qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir.

SCADA sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı burdadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni, investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında

saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır.

Bir daha sizi ürəkdən təbrik edirəm və sizə, bütün Azərbaycan energetiklərinə yeni uğurlar arzulayıram. Sağ olun.

"Azərenerji" ASC-nin Enerji İstehsalı Operatoru İdarəsinin gənc mühəndisi Aytac Süleymanova dedi: Möhtərəm cənab Prezident, koronavirus pandemiyasının yayıldığı bir zamanda bu açılışa gəlməyiniz Ali Baş Komandan kimi biz energetiklərə, Sizin əsgərlərinizə stimul verməklə yanaşı, həmçinin məsuliyyətimizi daha da artırır. Bundan əlavə, Sizin tapşırığınızla 2018-ci ildə energetiklərin balansına geri qaytarılan bu binanın yenidən qurularaq tam istifadəyə verilməsi olduqca əlamətdar hadisədir. Çünki Azərbaycan energetiklərinin bugünkü zamana qədər hazırkı şəraitdə ən yüksək müasir texnoloji avadanlıqlarla təchiz edilmiş dispetçer idarəetmə sistemi, laboratoriya, təlim-tədris və mədəniyyəti mərkəzlərindən ibarət kompleksi olmayıb. Bütün bunlar bu sahədə çalışan, fəaliyyət göstərən peşəkar mütəxəssislərlə, energetiklərlə yanaşı, həmçinin biz gənc mütəxəssislərə də verilən böyük töhfə və stimuldur.

Sizi əmin edirik ki, yaradılan bu imkanlardan tam səmərəli istifadə etməklə elmi-texniki potensialı kadr potensialına çevirməyə çalışacağıq. Bütün bunlara və pandemiyanın geniş yayıldığı bu günlərdə biz də daxil olmaqla, ölkənin bütün vətəndaşlarına göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı bildiririk.

Prezident İlham Əliyev: Çox sağ olun.

"Azərenerji" ASC-nin Texniki İstehsalat İdarəsinin gənc mühəndisi Muxtar Mahmudov dedi: Hörmətli cənab Prezident. Sizin elektroenergetika strategiyanıza uyğun olaraq həyata keçirilən islahat, inkişaf və tərəqqi mərhələləri bu gün də uğur-la davam etdirilir. Baxmayaraq ki, karantin vəziyyətidir, "Azərenerji" ASC həyati əhəmiyyətli dövlət müəssisəsi kimi 24 saat fasiləsiz fəaliyyət göstərir, bu çətin günlərdə qabaqlayıcı tədbirlərin icrası ilə öz işini görür. Biz insanlara "Evdə qal" deyiriksə, onları fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək borcumuzdur. Sizin xüsusi diqqətiniz və enerji strategiyanız sayəsində enerji sistemində yenidənqurma, təmir-bərpa işləri bu gün də uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, xüsusi diqqət və qayğı göstərərək gəlişinizlə biz energetiklərə böyük ruh, fərəh verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün energetiklər adından Sizə bir daha söz veririk ki, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchizatı daim təmin ediləcək, evlərimizdə gur işıqlar yanacaq.

Prezident İlham Əliyev: Çox sağ olun. Təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm. Sağ olun.

LABORATORİYA MƏRKƏZİ

"Azərenerji" ASC-də müxtəlif növ sınaqların aparılması məqsədi ilə ABŞ, İngiltərə, Almaniya, İtaliya və digər inkişaf etmiş ölkələrin qabaqcıl şirkətlərinin istehsalı olan, müasir cihazlarla təchiz edilmiş və peşəkar mütəxəssislərdən ibarət komanda ilə formalaşmış Laboratoriya Mərkəzi fəaliyyət göstərir.

Laboratoriya Mərkəzində Elektrik avadanlıqlarının sınağı, Geotexniki sınaqlar, Metalların və inşaat materiallarının sınağı, Yağların və suların kimyəvi analizləri ilə məşğul olan laboratoriyalar, həmçinin Ekoloji monitorinq və Kalibrləmə laboratoriyaları mövcuddur. Bizim məqsədimiz enerji sistemində aparılan ölçmələrlə yanaşı, respublikamızda fəaliyyət göstərən digər şirkət və qurumlara da yüksək səviyyədə xidmət gös-

tərməkdir. Mərkəzin sınaq və kalibrləmə laboratoriyaları "Azərbaycan Akkreditasiya Mərkəzi" PHŞ tərəfindən akreditə olunaraq, müvafiq sertifikatlarla təmin olunub.

Nəzarət Ölçü Cihazlarının Kalibrlənməsi laboratoriyası ölçmə vasitələrinin müqayisəli sınaq, yoxlama və kalibrlənməsi sahəsində fəaliyyət göstərir.

Maşın və mexanizmlərin etibarlı və iqtisadi cəhətdən səmərəli işləməsi üçün istismarda olan maye yağ və qatı sürtgü yağlarının keyfiyyət göstəriciləri norma daxilində olmalıdır. Bu da onların keyfiyyət göstəricilərinə mütəmadi nəzarət olunmasını tələb edir. Məhz buna görə də yağların keyfiyyət göstəricilərinə qoyulmuş normalara nəzarət etmək üçün Kimya Laboratoriyasında fiziki-kimyəvi və xromotoqrafik analizlər də aparılır.

Geotexnika laboratoriyası “Azərenerji” ASC tərəfindən layihələndirilən elektrik stansiyaları, elektrik verilişi xətləri və mövcud olanların yenidən qurulması işlərinin yerinə yetirilməsindən əvvəl rayonun təbii şəraitinin kompleks öyrənilməsi və tikinti ərazisinin mühəndis-geoloji şəraitinin tədqiqi işlərini aparır.

Ekologiya laboratoriyası ətraf mühitin monitorinqi, insan sağlamlığına zərər verə biləcək antropogen amillərin (vibrasiya, səs-küy, işıqlandırma) QOST, ASTM, SanPiN və AZS standartlarına uyğun olaraq təyin olunmasına imkan verir.

Metalların sınaq laboratoriyası qara və əlvan metallarda kimyəvi elementin faizlə miqdarını (kimyəvi və spektral), metal və qaynaq birləşmələrinin mexaniki (dartma, əymə, sərtlik və.s) xassələrini, metalların makrostrukturunu və mikrostrukturunu və zərbə özlüyünün təyini (profillər, polad vərəqlər və digər metallar) beynəlxalq standartlara (EN, İSO , ASME, AWS və.s) əsasən təyin edir.

İnşaat materiallarının sınağı laboratoriyası sifarişçi tərəfindən verilən texniki tapşırığa əsasən, tikinti-quraşdırma işləri zamanı inşaat materiallarından götürülən nümunələrin üzərində kom-pleks sınaq və tədqiqatlar aparır.



PANDEMİYA DÖVRÜNDƏ HƏYATA KEÇİRİLƏN TƏXİRƏSALINMAZ TƏDBİRLƏR

İlin 365 günü 24 saat növbəli iş prinsipi ilə fəaliyyət göstərən və heç bir halda elektrik enerjisinin istehsalını, ötürülməsini dayandırmayan "Azərenerji" ASC dünyanı bürüyən, həmçinin Azərbaycanda da yayılan koronavirus (COVID-19) epidemiyasının olmağına baxmayaraq fasiləsiz işini davam etdirib. Bununla yanaşı koronavirusla bağlı təbliğat-təşviqat və maarifləndirmə işlərinin gücləndirilməsi məqsədi ilə də tədbirlər həyata keçirilib.

"Azərenerji" ASC koronavirus xəstəliyi ilə əlaqədar "evdə qal" aksiyasına da dəstək verib. "Azərenerji" ASC əməkdaşlarının şüarı isə belə olub: "Biz 24 saat gecə-gündüz fasiləsiz olaraq növbətçilik qaydasında işləyərək evinizi enerji ilə təmin edəcəyik. Yetər ki, evdə qalın və həyatları xilas edin! Biz birlikdə güclüyük".

"Azərenerji" ASC koronavirus (COVID-19) xəstəliyinin ölkə ərazisində yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının qorunması məqsədilə Prezident İlham Əliyevin sosial həmrəylik nümayiş etdirilməsi barədə tövsiyələrinə uyğun olaraq irəli sürülən təşəbbüsdə yaxından iştirak edib. Belə

ki, "Azərenerji" ASC əmək haqqı və qənaət olunmuş maliyyə imkanları hesabına Koronavirusla Mübarizəyə Dəstək Fonduna 1 milyon manat vəsait köçürüb.

"Azərenerji" ASC sadalanan tədbirlərlə yanaşı istehlakçıların dayanılqlı və keyfiyyətli enerji təminatı üçün bütün lazımi addımları atıb. Bu səbəbdəndir ki, pandemiya dövründə enerji təchizatında heç bir problem yaranmayıb. Bu müddət ərzində pandemiyanın hökm sürdüyü qonşu ölkələrə enerjinin ixracı lazımi səviyyədə həyata keçirilib.

AzerEnerji
"SUQOVUŞAN-1"
KSES

Şuşa
AzərEnerji

AzərEnerji

AzərEnerji

«Güləbird» SES

«Suqovuşan-1» KSES

«Şuşa» yarımstansiyası

«Qarabağ» Rəqəmsal İdarəetmə

«Füzuli» yarımstansiyası

«Ağdam-1» yarımstansiyası

«Şükürbəyli» yarımstansiyası

«Zəngilan» yarımstansiyası

BİR İL ƏRZİNDƏ AZAD EDİLƏN ƏRAZİLƏRDƏ TİKİLƏN VƏ YENİDƏN QURULAN ENERJİ OBYEKTLƏRİ

«Suqovuşan-2» KSES

«Kəlbəcər-1» KSES


«Kəlbəcər» yarımstansiyası

«Ağdam-2» yarımstansiyası

«Cəbrayıl» yarımstansiyası

«Qubadlı» yarımstansiyası

MÜNDƏRİCAT

AZƏRBAYCAN ENERJİSİSTEMİNİN İNTİBAH DÖVRÜ 5

2003-2008-Cİ İLLƏR İNKİŞAFIN İLKİN MƏRHƏLƏSİ 15

2008-2013-CÜ İLLƏRİN ENERJİSİSTEMİ 25

2013-2018-Cİ İLLƏR DAVAM EDƏN ENERJİ SİYASƏTİ 39

2018-2021-Cİ İLLƏR İSLAHAT, İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜ 47

"AZƏRENERJİ" ASC-DƏ HƏYATA KEÇİRİLƏN REABİLİTASİYA PROQRAMI 55

2018-ci ildən "Reabilitasiya Proqramı"na uyğun olaraq 12 elektrik stansiyasında aparılan işlər 58

ELEKTRİK ENERJİSİNİN İSTEHSALI 97

Elektrik Enerjsinin Artan Temp üzrə İstehsalı 98

QOBU ENERJİ QOVŞAĞI 105

Enerji Potensialının Gücləndirilməsi İstiqamətində Növbəti Addım 107

PREZİDENT İLHAM ƏLİYEVİN "QOBU" ELEKTRİK YARIMSTANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ ÇIXIŞI 108

“QOBU” YARIMSTANSİYASI VƏ “QOBU” ELEKTRİK STANSİYALARI 118

BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ 129

ELEKTRİK ENERJİSİNİN ÖTÜRÜLMƏSİ 137

Elektrik Verilişi Xətləri və Yarımstansiyaları 138

İSTEHSAL OLUNAN ELEKTRİK ENERJİSİNİN İDARƏEDİLMƏSİ 167

ELEKTRİK ENERJİSİNİN PAYLANMASI 181

"İŞIQLI AZƏRBAYCAN" Layihəsinə Aparan Şərəfli Yol "BAKIELEKTRİKŞƏBƏKƏ" VƏ "AZƏRİŞIQ" ASC-nin Fəaliyyəti "BAKIELEKTRİKŞƏBƏKƏ" ASC-NİN BƏRPASI 183

İşıqlı Yolun, Davamlı İnkişaf Mərhələsinin Başlanğıcı 185

"AZƏRİŞIQ" ASC-nin Fəaliyyəti "İŞIQLI AZƏRBAYCAN" Layihəsinin Reallaşdırılması 187

Beynəlxalq, Əlaqələr, Qarşıya Qoyulan Hədəflər 195

Dövlət Başçısının Qarşıya Qoyduğu Hədəflərə Çatmaq 197

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR 211

Qarabağ Enerji Layihəsi 214

ZƏFƏR YÜRÜŞÜ 274

27 Sentyabr - Anım Günü 279

Vətən Müharibəsində Şücaət Göstərən Energetiklər 282

"AZƏRBAYCAN" İES-in Hədəfə Alınması və Energetiklərin Qələbə Əzmi 285

Elm, Tədris və Laboratoriya Mərkəzi..... 289

Energetik Sahəsində Kadr Hazırlığına Xüsusi Diqqət 292

"AZƏRENERJİ" ASC -nin Yenidən Qurulan Baş İdarəetmə, Elm,
Tədris və Laboratoriya Kompleksi 297

PREZİDENT İLHAM ƏLİYEVİN "AZƏRENERJİ" ASC-nin Yenidən Qurulan Ba İdarəetmə Elm, Tədris,
və Labroratoriya Kompleksinin Açılışı 300

Laboratoriya Mərkəzi 310

Pandemiya Dövründə Həyata Keçirilən Təxirəsalınmaz Tədbirlər 314

AzərEnerji
110/35/10 kV-luq
"KƏLBƏCƏR"